

# Azərbaycana qarşı yeni "şimal planı"

*Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycana səfər edəcək. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. Onun sözlərinə görə, Lavrov 10-11 may tarixlərində Azərbaycana səfər edəcək. Mayın 5-6-da isə Rusiya XİN rəhbəri Ermənistanda səfərdə olub. Məlumat üçün bildirək ki, Seygey Lavrov bir neçə gün öncə Ermənistanda səfərdə olub.*

Səh.13


# UNİKAL

№17 (2055) 8 may 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev  www.unikal.org  unikal-1@mail.ru




# Əbülfəs Qarayevin yeni qorxusu...

## Mədəniyyət Nazirliyinin həbsdəki sabiq vəzifəlilərinin məhkəməsi eks-nazirə nə(lər) vəd edir?

*Dünən məlum oldu ki, rüşvət almaqda təqsirləndirilən Mədəniyyət nazirinin sabiq müavini Rafiq Bayramovun cinayət işi üzrə ibtidai istintaq başa çatıb. Təqsirləndirilən şəxs barəsində toplanan cinayət işinin materialları baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Kiçik xatırlatma: Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən 2020-ci il mayın 8-də məhkəmənin qərarı əsasında Rafiq Bayramov, eləcə də Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Sultanov Zakir İmran oğlunun vəzifə səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə, vətəndaşların hüquqlarına mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol ...*

Səh.12




# Rəsmi Bakıdan Fransa və Kanadaya xəbərdarlıq

Səh.5

## "Parlament öz funksiyasını yerinə yetirə bilmir"



*Ölkədə həyata keçirilən islahatlar çərçivəsində uzun illər vəzifədə olan yüksək çinli məmurların işdən azad olunması, bəzilərinin qanunsuz əməllərinə görə həbsi müzakirə olunmaqdadır. "Unikal" qəzetinə müsahibə verən ReAL Partiyanın icra katibi Natiq Cəfərli ilə də söhbətimiz bu mövzu ətrafında oldu.*

Səh.4

## Dağlıq Qarabağ həqiqətləri dünyaya çatdırılmalıdır



*Son aylar ərzində Azərbaycanın işğaldan azad olunmuş rayonlarına çoxsaylı nümayəndə heyətlərinin səfərləri həyata keçirilir. Onların arasında rusiyalı siyasətçilərin və ekspertlərin sayı da az deyil. Bu cür tanışlıq səfərlərinin məqsədlərindən biri də Azərbaycana dəymiş ziyanı xarici ekspertlərə nümayiş etdirmək...*

Səh.15

## Elman Rüstəmovun iri tenderlərinin dəyişməz qalibi...



*Yola salmaq üzrə olduğumuz həftə Azərbaycan Respublikasının Mərkəzi Bankı 2 şirkətlə müqavilə bağlayıb. Bu şirkətlər "GT Solyuşnz" MMC və "Stell Technology" MMC-dir.*

"GT Solyuşnz" MMC ilə bağlanmış müqavilədə Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan standart proqram təminatları üzrə lisenziyaların

Səh.6

# Şou-biznesdəkilərin bahalı maşınları -SİYAHI

***Şou-bzinesin tanınmış simaları zaman-zaman bahalı maşınları ilə gündəm mövzusudur.***

Lent.az yerli məşhurların bahalı avtomobillərini təqdim edir:

Müğənni Xəyyam Nisanov özünə göy rəngli ”Bentley” markalı avtomobil alıb.

Əməkdar artist Cavanşir Məmmədovun üç maşını var. Avtomobil həvəskarı olan müğənninin bütün avtomobillərinin nömrə nişanın sonu ”100”dür. C.Məmmədovun kolleksiyasında 1966-cı illərə məxsus ”Chrysler”, ”Rolls Royce” və ”Cadillac Escalade” var.

Müğənni Rüfət Axundov da avtomobil həvəskarıdır. Müğənni maşınlarını tez-tez dəyişir. O, bu günə kimi ”Lexus”, ”Bentley”, ”Gelenvagen” kimi maşınlar alıb. Sənətçinin maşınının nömrə nişanı ”90 DC 009”dur.

Xalq artisti Nəzakət Teymurova 100 minlik “Porsche Cayenne” avtomobili idarə edir. O, maşının nömrəsini də ad və soyadına uyğun alıb. ( 90 NT 232 )

Aktrisa Pərvin Abıyeva isə əvvəllər “Porche” markalı maşın idarə edirdi. O, indi “Range Rover” sürür. Aktrisa əvvəlki maşınındakı 99 EP 333 dövlət qeydiyyat nişanlı nömrəsini təzə avtomobilinə vurub.




Əməkdar artist Sevda Ələkbərzadə ”İnfiniti” markalı maşın sürür.

Müğənni İlhamə Qasımova isə bir neçə ildir ki, “90 EG 999” nömrəli ”Gelandewagen” idarə edir.

Məşhur dünya çempionumuz Zabit Səmədov da ”Mercedes-Gelandewagen” idarə edən tanınmışlardandır.

Müğənni Mənzurə Musayeva isə Lent.az-a açıqlamasında 100 min dollara “Lexus” markalı maşın aldığını demişdi.

Aparıcı İlhamə Bədəlova ”AA” seriyalı dövlət nömrə nişanı ”Gelandewagen” idarə edir.

Müğənni Manaf Ağayev ”Audi Q8” markalı maşın alıb. O, köhnə avtomobilində olan ”10 BU 100” nömrə nişanını yeni maşınına vurub. M.Ağayev bundan öncə ”Lexus” markalı avtomobil idarə edirdi.

Xalq artisti Tünzalə Ağayeva ağ rəngli ”Volkswagen Touareg” markalı maşına sahiblənib.

Müğənni Damla isə ”Mercedes” Vianonu 155 min manata alıb.

Əməkdar artist Yusif Mustafayev ”Gelandewagen” sürür.

Müğənni Afət Fərmanqızı da ”Gelandewagen” idarə edənlərdəndir.

Əməkdar artist Elza Seyidcahan “Jeep” markalı, 10 LZ 799 dövlət seriyalı avtomobilini 70 min manata yaxın qiymətə aldığını deyib.

Azərbaycanlı oriental rəqqasə Aytən Əliyeva 90 VO 919 dövlət seriyalı, “BMW-X 6” markalı avtomobilini 55 min dollara alıb: “Maşın həvəskarıyam. Yaxşı da idarə etməyi bacarıram. Onu da deyim ki, bu rəngdən Azərbaycanda bir dənədir. O da mənim payıma düşüb. Dubaydan gətizdirmişəm”.

Müğənni Xuraman Şuşalı illərdir Audi Q7 markalı maşın sürür.

Azərbaycanlı müğənni Sevda Kazımova “Dodge” markalı avtomobil idarə edir. İfaçı bildirib ki, maşın ona həyat yoldaşından hədiyyədir: “Mən hər il yeni maşın dəyişməyi sevmirəm. Uzun illər idi, bir maşın idarə edirdim. Yoldaşımın istəyi ilə o maşını satdıq. Bayramda isə bu maşını hədiyyə etdi. Əslində, elə həyat yoldaşımın varlığı mənim üçün bir hədiyyədir”.

Əməkdar artist Vasif Məhərrəmli “Range Rover” idarə edir.

Müğənni Elnarə Xəlilovanın illərdir ”Jeep Wrangler” markalı maşını var.

# "Xoşbəxt olmağım üçün hər şey edir" - Lətifə kövrəldi

***”Bir dönəm oldu ki, çox qızıl itirdim. Tam olaraq bilmirəm, itirdim, yoxsa onu götürdülər. Daha sonra anamın qızıl üzüyünü itirdim. O üzüyü atam anama Fransadan gətirmişdi”.***

Axşam.az xəbər verir ki, bu sözləri müğənni Lətifə Soyuöz ”Sözbaz” proqramında deyib. Sənətçi anası üçün böyük mənası olan üzüyü itirməsindən bəhs edib.

Aparıcı Zümrüd Bədəlova isə həmin zinət əşyasının onda olduğunu açıqlayıb və Lətifəyə təqdim edib.

Müğənni nənəsi Lətifədən danışarkən kövrəlib:

”Həyatımın özəli ailəmdir. Bir neçə gün əvvəl nənəmin səhhətində problem oldu. Buna çox üzüldüm. Mənim üçün örnək qadındır. Çünki çox güclü biridir. Mənə nənə itkisi çox pis təsir edər. Həyatdakı dayağımdır. Hardansa ”yox” cavabını alaram, amma ondan heç vaxt. Danışacaq, etiraz edəcək, ancaq sonda ”balamdır, edim” deyəcək. Hər zaman deyir ki, qəlbiqırıq övladım. Ona görə də mənim üçün çalışır. Ona göstərirəm ki, qəlbiqırıq deyiləm. Əlindən gələn hər şeyi edir ki, mən xoşbəxt olum. Məsələn, nəşə alırsa, ondan 3 ədəd alır. Deyir ki, biri sınar, ikinci olar. Üçüncünü isə ona görə alıram ki, birdən mən həyatda olmaram onu gedib axtarmayasan”.



# Keçirdiyi yarışmada birinci yeri 10 minə satıb

***Aşıq Namiq Fərhadaoğlu ”Lider” telekanalında keçirdiyi ”Köklə sazı” aşıqlarla bağlı yarışmada birinci yeri pulla satıb.***



Sənətçi bunun üçün qalibdən 10 min manat alıb. Bu xəbəri Namiq ”Həmin Zaur” proqramında təsdiqləyib:

”Biri dedi ki, birinci yerin xərci nədir? Mən də dedim avtomobil qoyuram, gərək üç qat qazanım. Dedim ki, 10 min ver, birinci yerə çıxarım səni. Maşına görə etdim. Sonra mənə dedilər ki, deyin, mən satmıram, ekspertiza qərar verir. Dedim, kişi kimi söz demişəm, yaxşı etmişəm. İnsan dediyi sözün ağası olmalıdır. Ora gələn səslərdən 18 faiz vergi ödəyirəm. Camaat evini satıb, səs verir. Prodakşınam orada ağa da, nökər də mənəm”.

# Nura Suri qabırğalarını çıxartdırıb

***Müğənni Nura Suri qabırğalarını çıxartdırıb.***

Sənətçi bu barədə ”10-da görüşək” proqramında danışıb. N.Suri başqa prosedurlar da etdirdiyini bildirib:

”Əməliyyat bu yaxınlarda olub. Hazırda belimin ölçüsü 60-dır. Xırda prosedurlar da etdirmişəm. Amma getdim, əməliyyat etdirdim, arıqladım deyə bir şey yoxdur. Mütləq şəkildə diqqət etməlisən”.

## Vətən müharibəsi qəhrəmanları üçün güzəşt və imtiyazlar genişləndirilir



***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin onlayn iclası keçirilib.***

İclasın müzakirəsinə üç qanun layihəsi çıxarılıb. Komitənin sədri Ziyafət Əsgərov qanun layihələri haqqında məlumat verərək bildirib ki, gündəliyin birinci məsələsi olan "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunda dəyişiklik edilməsi barədə" sənəd bu qanunun təsir dairəsində olan ictimai münasibətlərin dəqiq tənzimlənməsi və təkmilləşdirilməsi xarakteri daşıyır. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi isə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslər üçün nəzərdə tutulan güzəşt və imtiyazlarla əlaqədardır.

Komitədə baxılan üçüncü məsələ "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də, "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Gənclər siyasəti haqqında" və "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" qanunlarda dəyişiklik edilməsini nəzərdə tutur. Layihəyə əsasən hərbi ehtiram göstərilən şəxslərin sırasına "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş, "Zəfər" və "Qarabağ" ordeni ilə təltif edilmiş şəxslər də daxil edilir. Dəyişiklik həmçinin Vətən Müharibəsi Qəhrəmanlarının xatirəsinin əbədiləşdirilməsini və qorunmasını təsbit edir.

Sonra gündəlikdəki hər üç məsələ Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

Onlayn iclasda komitə sədrinin müavini Hikmət Məmmədov, komitənin üzvləri - Aqil Abbas, Əminə Ağazadə, Kamal Cəfərov, Oqtay Əsədov, Nurlan Həsənov, Erkin Qədirli, Elman Məmmədov, Elşad Mirbəşiroğlu, Aydın Mirzəzadə, Arzu Nağıyev, Bəxtiyar Sadıqov və Nizami Səfərov iştirak ediblər.

## "Azərkosmos" Əli Həsənovun oğlunun şirkətini məhkəməyə verdi

***"Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (ASC) "Kaspi Global" Məhdud Məsuliyyətli Cəmiyyətini (MMC) məhkəməyə verib.***

"Unikal" "Report"a istinadən xəbər verir ki, ASC əmr icraatı üzrə müqavilə tələbi ilə Bakı Kommersiya Məhkəməsinə müraciət edib.

İş hakim Leyla Əliyevanın icraatına verilib.

Qeyd edək ki, "Kaspi Global" MMC 2011-ci ildə yaradılıb. Onun hüquqi ünvanı Bakı şəhəri, Səbail rayonu, Fikrət Əmirov küçəsi, 1, nizamnamə kapitalı 20 manat, qnauni təmsilçisi isə Prezident Administrasiyasının ləğv olunmuş İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun oğlu Şamxal Həsənlidir.

Xatırladaq ki, "Azərkosmos" ASC Prezident İlham Əliyevin bu il aprelin 27-də imzaladığı Fərmanla Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tərkibində Kosmik Agentliyinə çevrilib.

## Rüstəm Muradov Njdenin abidəsinin sökülməsinə göstəriş verdi

***Xocavənddəki faşist Qaregin Njdenin abidəsinin sökülməsi ilə bağlı göstəriş verilib.***

Bu barədə Ermənistanın Iragir.am nəşri yazıb.

Bildirilib ki, göstəriş şəxsən Qarabağdakı Rusiya sülhməramlılarının komandanı general Rüstəm Muradov tərəfindən verilib.

## Həbs olunan polkovnik azadlığa buraxıldı

***Bakı Hərbi Məhkəməsində rüşvət almada təqsirləndirilən Samiq Əzizovun cinayət işi üzrə məhkəmə iclası başa çatıb.***

Unikal.org report-a istinadən xəbər verir ki, hakim Rafiq Abbasovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Məhkəmənin hökmü ilə S.Əzizovun barəsində Cinayət Məcəlləsinin 70-ci (Şərti məhkum etmə) maddəsi tətbiq olunaraq, ona şərti cəza verilib. S.Əzizov məhkəmə zalından azadlığa buraxılıb.

Qeyd edək ki, Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsində çalışmış polkovnik S.Əzizov 2020-ci ilin may ayında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Baş Prokurorluğun keçirdiyi əməliyyat zamanı həbs edilib.

Onun barəsində Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsi ilə ittiham irəli sürülüb.

# Əbülfəs Qarayevin yeni qorxusu...

### *Mədəniyyət Nazirliyinin həbsdəki sabiq vəzifəlilərinin məhkəməsi eks-nazirə nə(lər) vəd edir?*

***Dünən məlum oldu ki, rüşvət almaqda təqsirləndirilən Mədəniyyət nazirinin sabiq müavini Rafiq Bayramovun cinayət işi üzrə ibtidai istintaq başa çatıb. Təqsirləndirilən şəxs barəsində toplanan cinayət işinin materialları baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.***

Kiçik xatırlatma: Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən 2020-ci il mayın 8-də məhkəmənin qərarı əsasında Rafiq Bayramov, eləcə də Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Sultanov Zakir İmran oğlunun vəzifə səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə, vətəndaşların hüquqlarına mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol vermələrinə dair məlumatlar əldə olunub. Hər iki şəxsin xidməti və yaşadıqları ünvanlara keçirilmiş baxış zamanı onların qəbul etdikləri pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, ayrı-ayrı valyutalarda saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkar edilərək götürülüb. DTX-də aparılan cinayət işi üzrə Rafiq Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Zakir Sultanov isə vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib.

Onu da deyək ki, sözügedən anti-korrupsiya əməliyyatından sonra həmin vaxt Mədəniyyət naziri vəzifəsində çalışan Əbülfəs Qarayevin də istintaqa cəlb ediləcəyi yönündə iddialar səslənir, mülahizələr irəli sürülürdü. Hətta bir ara yerli KİV xəbər vermişdi ki, rəhbərlik etdiyi nazirlikdə irimiqyaslı korrupsiya və digər qanunazidd əməllər aşkarlandığı üçün kreslosunu itirən eks-nazir istintaq altındadır. O, da bildirilirdi ki, Ə.Qarayev ötən müddət ərzində bir neçə dəfə istintaqın suallarını cavablandırıb. Hətta o da deyilirdi ki, sabiq nazir Azərbaycanı tərk etmək istəyərkən sərhəddən qaytarılıb. Belə ki, Türkiyəyə getmək istəyən sabiq nazirə ölkədən çıxışına məhdudiyyət qoyulduğu deyilib. İddialara görə, Qarayev ona qoyulmuş "stop"un götürülməsi üçün istintaq orqanına müraciət edib. Eks-nazir Türkiyəyə həkim müayinəsinə getmək istədiyini və geri qayıtmaq niyyətinin olduğunu yazıb.

Əslində bütün bu iddiaların ortaya çıxmasında nə təsadüfi, nə də təəccüblü heç nə yoxdur. Reallıq burasındadır ki, keçmiş Mədəniyyət nazirinin cinayət məsuliyyətinə cəlb ediləcəyi cəmiyyətin əksər kəsiminin proqnozlaşdırdığı məsələ idi. Xüsusilə son zamanlar eks məmurlara qarşı anti-korrupsiya əməliyyatları Qarayevin saxlanılmış işləri ilə bağlı davam edən istintaqa cəlb edilməsinin mümkünlüyünü də gündəmə gətirir. İstintaqın sonunda sabiq nazirin özünün də cinayət məsuliyyətinə cəlb edilməsi sürpriz olmazdı. Əlbəttə, bu ehtimalın özünü doğruldub-doğrultmayacağını zaman göstərəcək.



Lakin bu da danılmaz faktdır ki, əgər həmin iddia gerçəkləşərsə nə cəmiyyətdə, nə də mətbuatda təəccüblə qarşılanmayacaq. Çünki hər kəs bilir ki, Mədəniyyət Nazirliyində yeyintilər dərin kök salıb, bu barədə təkzibolunmaz faktlar mövcuddur. Həmin faktların bir ucu isə məhz Əbülfəs müəllimə gedib çıxır.

Əlbəttə, sabiq nazirin keçmiş müavininin ibtidai istintaqının başa çatması və işin məhkəməyə göndərilməsi Qarayevi bir qədər sakitləşdirə bilər. Yəni o, əsas təhlükənin arxada qaldığını düşünüb özü ilə bağlı hüquqi məsuliyyət riskinin arxada qaldığını fikirləşməkdə sərbəstdir. Lakin bu da diqqətdən qaçmamalıdır ki, əslində proses bitməyib; tamamilə əksinə, yeni və daha çətin mərhələyə qədəm qoyub. Məhkəmə prosesində fərqli situasiyanın ortaya çıxması (əlbəttə ki, Mədəniyyət Nazirliyindəki korrupsiya sxeminin və şəbəkəsinin ifşası baxımından!) tamamilə mümkündür. Bu isə Əbülfəs müəllim üçün sürpriz nəticələrin meydana gəlməsi deməkdir.

Üstəlik, nəzərə alsaq ki, ibtidai istintaqla müqayisədə məhkəmə prosesi ictimaiyyətə açıq olacaq, ictimaiyyət Qarayev və yaxınlarının rüşvət, korrupsiya əməlləri ilə daha yaxından tanışlıq imkanı qazanacaq, onda eks-naziri qarşıda heç də asan günlərin gözləmədiyini daha əminliklə söyləmək olar.

İstənilən halda Mədəniyyət Nazirliyinin həbsdəki sabiq vəzifəlilərinin yaxın gələcəkdə başlayacaq məhkəməsini maraqla gözləməyə dəyər. İndidən əminliklə deyə bilərik ki, məhkəmə prosesi ictimai rəyi kifayət qədər məşğul edəcək və sürprizlərə də açıq olacaq...

***Tuncay***

# Azərbaycana qarşı yeni “şimal planı”

## Rusiyanın yeni oyununa qarşı diplomatik qaydada əlbəyaxa döyüşə hazır olmalıyıq

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycana səfər edəcək. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. Onun sözlərinə görə, Lavrov 10-11 may tarixlərində Azərbaycana səfər edəcək. Mayın 5-6-da isə Rusiya XİN rəhbəri Ermənistanda səfərdə olub.***

Məlumat üçün bildirək ki, Seygey Lavrov bir neçə gün öncə Ermənistanda səfərdə olub. O, baş nazir Nikol Paşinyan, daha sonra Xarici İşlər naziri Ara Ayvazyanla görüşüb. Maraqlı məqam odur ki, Lavrov Ermənistanda səfərdə olan zaman Azərbaycanın maraqlarına zidd olan ikibaşlı açıqlamalar verməklə cəmiyyətdə narazılıq yaradıb,

Siyasi ekspert Zaur İbrahimli “Unikal”qəzetinə açıqlamasında deyib ki, Lavrovun Ermənistan səfəri Moskvanın daha çox 44 günlük Vətən Müharibəsinin nəticələrini İrəvan üçün yumşaltmaq, ermənilər üçün manevr imkanları yaratmaqda israrlı olduğunu nümayiş etdirdi. Onun sözlərinə görə, Moskva bunun müqabilində Ermənistanda zədə almış reputasiyasını və bu ölkənin daxili siyasətində həlledici təsirini bərpa etməyə, hərbi iştirakının əsaslarını gücləndirməyə çalışır: “Moskva üçün son iki amil çox mühümdür. Ermənistanda Saakaşvili Gürcüstanının siyasətinin bu və ya digər formada təkrarlanması Rusiya üçün real təhlükədir, hələ də bunun üçün real imkanlar var. Ruslar tədricən bu imkanları azaltmağa, ABŞ-ın təsirini zəiflətməyə çalışırlar. Ruslar bu məqsədlə müxtəlif alətlərdən istifadə edirlər, ən başlıcası isə Ermənistanın kapitulyasiyasını rəsmiləşdirən 10 noyabr sazişinin müddəalarının şərhi və yozumudur. Moskva ermənilər üçün öz maraqlarını irəli sürməkdə imkanlar yaradır, yaxud ikibaşlı şərhləri ilə ermənilərdə sazişin ziddinə tələblər səsləndirməkdə motivasiya təqim edir. Hazırda əsas taktiki vəzifə 20 iyun parlament seçkilərində ən azı parlamentdə hökumət qərarlarına legitim təsir edəcək Rusiya fraksiyasının yaranmasına nail olmaqdır. Gürcüstanda da belə başladılar və sonda bacardılar.

Ruslar, eyni zamanda, Azərbaycanın 44 günlük Vətən Müharibəsinin nəticələrindən bəhrələnmək və bölgədəki vəziyyəti buna uyğun dizayn etmək imkanlarını məhdudlaşdırmağa çalışırlar. Məhz buna görə Minsk qrupunu yenidən aktivləşdirməyə maraq göstərirlər. 10 noyabr sazişinin tam şəkildə həyata keçirilməsinə mane olurlar, kommunikasiyaların açılmasında əlavə şərtlər irəli sürürlər, bunun ətrafında sövdələşmə açmağa niyyətlidirlər. Görünən budur ki, Azərbaycan yaxın perspektivdə rusların bu mövqeyi ilə üz-üzə qalmalı olacaq”.



Zaur İbrahimli onu da qeyd edib ki, Bakı Türkiyə ilə birgə hərəkət etməklə Moskvanın müəyyən çərçivədə qalmasına nail ola bilir: “İndiki məqamda bu özü də az naliyyət deyil. Daha da irəli getmək üçün daha geniş ittifaqlara ehtiyac olacaq. Türkiyə ilə birlikdə qətiyyətini qorumaqla, kommunikasiyaları açmaqla Bakı yeni ittifaqlar üçün imkanlar əldə edə bilər. Ermənistanda seçkilərin nəticələrindən asılı olaraq Moskvanın təsirini azaltmaq üçün yeni fürsətlərin yaranması mümkündür. Azərbaycan üçün yaxın perspektivdə Qarabağ bölgəmizdə yaşayan ermənilər üçün nə təklif edəcəyimiz də əhəmiyyətlidir. Şübhəsiz ki, “qırmızı xətt”imiz suverenliyimiz, ərazi bütövlüyümüzdür. Bu iki təməl şərti gözləməklə müxtəlif dinc birgəyaşayış modelləri nəzərdən keçirilməlidir. Bu məsələdə təşəbbüskar olmalıyıq və suverenliyimizin, ərazi bütövlüyümüzün qəbul edilməsi şərti ilə öz strateji yanaşmamızı, təkliflərimizi masaya qoymalıyıq. Biz etməsək, başqaları təşəbbüsü ələ alacaq. Necə ki, Şuşanı əlbəyaxa döyüşdə azad etdik, diplomatiyada da buna bənzər əlbəyaxa döyüşə hazır olmalıyıq. Əsas üstünlüyümüz qətiyyətimiz, döyüş ruhumuz, haqlı tərəf olmağımız, ittifaqlarımızdır. Təcrübə də göstərdi ki, kənar güclərin iş bərkə düşəndə “İsgəndəri” köməyə çağırması da istənilən nəticəni vermir”.

Siyasi şərhçi Məhəmməd Əsədullazadə “Unikal”a bildirib ki, Lavrov Azərbaycana öz təkliflərini diqtə etmək üçün gəlir. “Lavrovun planında Erməni köçkünlərinin Azərbaycanın müəyyən ərazilərinə, Hadruta və Xocavəndə qaytarılması da var. Rusiyanın Hadrutla bağlı planı var. Bu plan ermənilərin və Rusiyanın geosiyasi maraqlarına cavab verir. Rusiya ermənilər Hadruta köçəndən sonra burada sülhməramlılarını yerləşdirmək istəyir”, - deyə M.Əsədullazadə bildirib.

O qeyd edib ki, Bakıya səfər edəcək Lavrovun çantasında Azərbaycanın Avrasiya İttifaqına və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qəbulu məsəsilə ilə bağlı təkliflər də olacaq: “Eləcə də, Azərbaycanı ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlara cəlb etməyə cəhd ediləcək. Azərbaycanın öz şərtləri var, Minsk qrupunun həmsədrlərinin təklifləri ilə proses aparılamayacaq. Lavrov Azərbaycana öz təkliflərini diqtə etmək üçün gəlir. Azərbaycan bu təklifləri qəti şəkildə qəbul etməyəcək, Minsk qrupu formatında danışıqlara qayıtmayacaq. Çünki bu format Azərbaycanın birbaşa əleyhinədir”.

Politoloq onu da qeyd edib ki, Rusiya XİN rəhbəri Sergey Lavrovun Azərbaycana səfəri çərçivəsində ondan Xankəndində Rusiya Xarici İşlər nazirliyinin yerli bürosunun fəaliyyəti ilə bağlı sula verilməli və bağlanılması tələb edilməldir: “Həmçinin Rusiyanın bir neçə nazirliyinin şöbələri Xankəndində fəaliyyət göstərir. Rusiyanın Xankəndində nazirliklərinin yerli şöbələrini təsis etməsi ilk növbədə Azərbaycanla razılaşdırmalıydı. Bu, Moskvanın özbaşınalığı və bu kimi şöbələrin ləğv edilməsi rəsmi Bakının gündəmində olmalıdır. Bundan əlavə, Rusiya sülhməramlı qüvvələri 9 mayda Xankəndində hərbi keçid edəcəklərsə, artıq bu onların sülhməramlı deyil, Rusiyanın işğalçı qüvvələri olduğu qeyd edilməlidir. Azərbaycan mətbuatı və siyasətçiləri sülhməramlı ifadəsindən deyil, işğalçı Rus ordusu ifadəsindən istifadə etməlidir. Biz Rusiyanın qarşısından geri çəkilsək, müdafiədə dayansaq üstümüzə gələcəklər”.

***Z.Məmmədli***



# Rəşad Atakişiyevə şəhid statusu verildi

***Hərbi Hava Qüvvələrinin ”MiQ-29” təyyarəsinin pilotu, polkovnik-leytenant Rəşad Atakişiyevə şəhid statusu verilib.***

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən (SHXÇDX) “Unikal”a bildirilib ki, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları”nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli 10 saylı Qərarının 4.1-ci bəndinin 3-cü abzasına əsasən, şəhid ailəsi statusu gizir və zabit heyəti üçün Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidmətinin, Dövlət Sərhəd Xidmətinin kadrlar idarəsinin verdiyi arayışlarla təsdiq olunur.

Belə ki, Müdafiə Nazirliyindən SHXÇDX-nin Yasamal rayon idarəsinə daxil olan 02.04.2021-ci il tarixli 1/A-374 nömrəli məktuba və 01.04.2021-ci il tarixli 1/A-371 nömrəli arayışa əsasən, mərhum polkovnik-leytenant Atakişiyev Rəşad Saləddin oğlu 24.07.2019-cu il tarixdə döyüş tapşırığının icrası zamanı həlak olub, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən mərhuma “şəhid”, ailəsinə isə “şəhid ailəsi” statusu verilib.

SHXÇDX-dən o da bildirilib ki, Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli 10 saylı Qərarının 4.2-ci bəndinə əsasən, şəhid ailələrinə vəsiqə bu Qaydaların 4.1-ci bəndində göstərilən arayışlara əsasən yaşadıqları ərazi üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbələri tərəfindən verilir. Odur ki, qeyd olunan məsələ ilə əlaqədar aidiyyəti üzrə müraciət etmək məqsədəuyğundur.

Qeyd edək ki, 2019-cu il iyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən HHQ-nın MiQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib. Avqustun 20-də MiQ-29 təyyarəsinin pilotu polkovnik-leytenant Atakişiyev Rəşad Saləddin oğlunun nəşi tapılaraq dənizdən çıxarılıb. O, avqustun 21-də II Fəxri xiyabanda dəfn edilib.

“Rəşad Atakişiyevə şəhid statusunun verilməsini çoxdan gözləyirdik”. Bunu Azvision.az -a açıqlamasında polkovnik-leytenant, mərhum pilot Rəşad Atakişiyevin qaynatası, politoloq Qabil Hüseynli deyib. Onun sözlərinə görə döyüş təlimi zamanı qəza nəticəsində həyatını itirən pilota şəhidlik statusunun verilməsi mütləq idi.

“Ona şəhidlik statusunun veriləcəyini gözləyirdik. İnanırdıq ki, Rəşad nə vaxtsa şəhid statusu alacaq. Qəza ilə bağlı təhqiqatlar aparılırdı və bu istiqamətdə işlər gedirdi. Gecə baş tutan döyüş təlimi zamanı qəza baş vermişdi. Rəşad təlimdə tapşırığı yerinə yetirən zaman şəhid olmuşdu. Yəni onların keçirdiyi hərbi təlimlər döyüş şəraitinə bərabər tutulur”.

# Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edildi - SƏRƏNCAM



***Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncam Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə imzalanıb.

Sərəncamda deyilir: "Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. 1977-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir.

Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır".

# Bu tarixdən əyani tədris qismən bərpa olunur -RƏSMİ

***Təhsil Nazirliyi Kollegiyasının müvafiq qərarına əsasən, Bakı, Sumqayıt, Gəncə və Şəki şəhərlərinin, Abşeron rayonunun ərazisində yerləşən ümumi və məktəbdənkənar təhsil müəssisələrində mayın 17-dən əyani tədris forması qismən bərpa ediləcək.***



Nazirlikdən Unikal.org-a verilən məlumata görə, həmin tarixdən etibarən Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda yerləşən ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq mərhələsində və ümumi orta təhsil səviyyəsində (V-IX siniflərdə) tədris həftədə 2 dəfə, ibtidai təhsil səviyyəsində isə (I-IV siniflərdə) həftədə 3 dəfə olmaqla əyani formada təşkil ediləcək.

Gəncə və Şəki şəhərlərində yerləşən, layihə tutumu və şagird sıxlığı təhsilalanlar arasında ən azı 1.5 metr məsafəni gözləməyə imkan verən məktəblərin icma əsaslı təlim qrupları və məktəbəhazırlıq mərhələsində tədris həftədə 4 dəfə, ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 5 dəfə əyani şəkildə təşkil olunacaq. Qeyd olunan şəhərlərdə layihə tutumu və şagird sıxlığı təhsilalanlar arasında ən azı 1.5 metr məsafəni gözləməyə imkan verməyən məktəblərin icma əsaslı təlim qrupları və məktəbəhazırlıq mərhələsində isə həftədə 2 dəfə, ümumi orta əhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 3 dəfə olmaqla əyani aparılacaq.

Kollegiyanın qərarına əsasən, Bakı, Sumqayıt, Şəki və Gəncə şəhərlərinin, Abşeron rayonunun ərazisində yerləşən xüsusi məktəblər, xüsusi internat məktəbləri və inteqrasiya təlimli internat tipli təhsil müəssisələrinin xüsusi siniflərində (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla dərslər əyani bərpa ediləcək. Xüsusi məktəblərin ibtidai və ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə), karlar, zəif eşidən və sonradan karlaşmış və kor şəxslər, həmçinin nitqi qüsurlu şəxslər üçün xüsusi internat məktəblərinin ibtidai və ümumi orta təhsil səviyyəsində tədris (I-XI, I-XII, I-X, I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla əyani keçiriləcək.

Həmçinin Bakı, Sumqayıt, Şəki və Gəncə şəhərlərinin, Abşeron rayonunun ərazisində yerləşən məktəbdənkənar təhsil müəssisələrində aşağı və orta yaş qruplarında (I-IX siniflər) dərnək məşğələləri həftədə 2 dəfə olmaqla əyani aparılacaq.

# Bakıda qanunsuz aksiya keçirməyə cəhd edildi

***Daxili İşlər Nazirliyi (DİN) bu gün Bakıda aksiya keçirməyə cəhd edənlərlə bağlı məlumat yayıb.***

DİN Mətbuat Xidmətindən bildirilib ki, bu gün paytaxtın Nəsimi rayonunda bir qrup şəxs xüsusi karantin rejiminin tələblərinə zidd olaraq, eyni zamanda razılaşdırılmamış aksiya keçirməyə cəhd edib: "Cəhdin qarşısı polis tərəfindən dərhal alınmaqla onlar ərazidən uzaqlaşdırılıb. Saxlanılan yoxdur".

# Şuşanın işğal tarixini necə keçirməliyik? – Vitse-spiker danışdı

***"Şuşanın işğalı Azərbaycan müstəqillik tarixində qanlı tarix olaraq öz əksini tapıb. Şuşa Azərbaycan xalqının təkcə mədəniyyət beşiyi yox, qeyrət beşiyidir".***



Bu sözləri Modern.az-a 8 may Şuşanın işğal tarixinin necə qeyd edilməli olduğu haqqında danışan Milli Məclisin vitse-spikeri Fəzail İbrahimli deyib. Deputat xatırladıb ki, Azərbaycanın tarixi taleyində kifayət qədər faciəli günlər var: "Əslində təqvimimizə diqqət yetirsək, yanvar ayının 20-dən başlayaraq, noyabr ayının 20-ə qədər aylarımızın hər birində bir faciə var. Bunlardan biri də Şuşanın işğalı günüdür. Əzəmətli Şuşa qalası qeyrət qalası kimi yada salınır. Təbii ki, onun işğalı heç bir azərbaycanlılar üçün məqbul sayılmırdı. Amma 30 il sonra Şuşanın geri alınması Azərbaycan xalqının qeyrətini özünə qaytardı . Himnimizin sözlərində belə bir ifadə var: qan tökməyə hazırıq, can verməyə qadiriz. Həmişə himnimizi oxuyanda üzü qara oxuyurduq. Amma indi qalib millət olaraq, himnimizi baş ucalığı ilə oxuya bilərik. Zaman göstərdi ki, doğru vaxta, qalib sərkərdəyə ehtiyacımız varmış. Təbii ki, qan qardaşımız Türkiyəni də unutmaq olmaz. Düzdür, axır sözü Azərbaycan əsgəri dedi, ancaq siyasi masada Türkiyə həmişə can qardaşına dəstək oldu. Bəyan etdi ki, Azərbaycana toxunmaq olmaz".

Fəzail İbrahimlinin fikrincə, tariximizin və taleyimizin ən hörmətli, ən şərəfli qələbəsi Qarabağ qələbəsidir: "Şuşa alınan kimi erməni əlini saxladı, çünki alınmaz qala kimi düşünülürdü. Zəfər paradında da bir daha bəyan etdik ki, Azərbaycan hər zaman müstəqil və azad yaşayan ölkədir. İndi qalib dövlət, qalib sərkərdəyik. Buna görə, işğal tarixini də şəhidlərimizi anaraq, qələbə əhval-ruhiyyəsi ilə qeyd etməliyik. Tariximizi, xalqımızın başına gətirilənləri unutmamalıyıq".

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Son günün yoluxma sayı açıqlandı

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 722 yeni yoluxma faktı qeydə alınıb, 1854 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 15 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 325407 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 302860 nəfər müalicə olunaraq sağalıb, 4650 nəfər vəfat edib, aktiv xəstə sayı 17897 nəfərdir.

Ölkədə son sutka ərzində 10686, hazırkı dövrədək isə 3311267 test aparılıb.

# Azərbaycanda 3 hakim işdən çıxarıldı, ikisinə töhmət verildi

***Bu gün Məhkəmə-Hüquq Şurasının videokonfrans formatında iclası keçirilib.***



Unikal.org xəbər verir ki, iclasda hakimlər barədə qiymətləndirmə materialları hərtərəfli müzakirə olunaraq, onlardan 14 nəfərin fəaliyyətində peşəkar çatışmazlıqlar müəyyən edilib.

İşdə dönüş yaratmaları üçün onlara altı ay vaxt verilib, üç nəfərin isə səlahiyyətlərinə xitam verilməsi qərara alınıb.

Bundan başqa, Şuranın iclasında ali və apellyasiya məhkəmələrinə zəruri hazırlığa və mənəvi keyfiyyətlərə malik 24 hakimin təyin olunması, apellyasiya məhkəmələrinin rəhbərliyində dəyişikliklərin aparılması, həmçinin, fəaliyyətində çatışmazlıqlara yol verən hakimlərin həmin məhkəmələrdən kənarlaşdırılmasına dair təkliflər verilib.

Həmçinin, Şurada hakimlər barədə intizam icraatı üzrə işlərə baxılaraq, korrupsiyaya şərait yaradan hallara, süründürməçiliyə və digər pozuntulara yol verdiklərinə görə Şirvan Apellyasiya Məhkəməsinin hakimləri Nüsrət Mirzəyev və Tofiq Heydərova töhmət verilib, Bakı Şəhəri Nizami Rayon Məhkəməsinin hakimi Mətanət Hacıyevaya irad tutulub.

# Prezidentin BBC-yə müsahibəsi rekord qırdı




***Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin noyabrın 6-da "BBC News"a verdiyi müsahibə rekorda imza atıb.***

"Unikal"ın məlumatına görə, ölkə başçısının müsahibəsinə Tvitter hesabında 3 milyondan çox baxış olub. 44 günlük Vətən Müharibəsi dövrünə təsadüf edən müsahibə beynəlxalq arenada böyük maraq doğurub və geniş müzakirələrə yol açıb.

İndiyədək Azərbaycandan tirajlanan heç bir müsahibə, açıqlama və şərh dünya müstəvisində bu qədər geniş izlənilməyib. Ölkə başçısının müsahibəsinin Tvitterdə 3 milyondan çox istifadəçi tərəfindən baxılması Azərbaycan üçün rekord göstəricidir.

Məlumat üçün bildirək ki, sözügedən müsahibə zamanı təxribatçı suallarla çıxış edən BBC-nin jurnalisti Prezident İlham Əliyevin ortaya qoyduğu real faktlar qarşısına aciz qalıb. Müsahibə boyu ona ünvanlanmış qərəzli sualları səbir, təmkin və sübutlarla cavablandıran dövlət başçısı avropalı jurnalistə sözün əsl mənasında "master klass" keçib.

Ümumilikdə isə Prezident İlham Əliyev müharibə dövründə xarici mediaya verdiyi müsahibələrlə yalnız döyüş meydanında deyil, informasiya müharibəsində də Azərbaycanın maraqlarını müdafiə edib, həqiqətləri bütün dünyaya çatdırıb. Dövlət başçısı hərb meydanında müzəffər sərkərdə nümunəsi olmaqla yanaşı, informasiya müharibəsində də ölkəmizə böyük qələbə qazandırıb.

Ali Baş Komandan xarici mediada hücum diplomatiyası sərgiləyərək tarixi həqiqətlər, Dağlıq Qarabağ münaqişəsinə dair vacib hüquqi və siyasi məqamlar barədə beynəlxalq ictimaiyyəti məlumatlandırıb. Onun gərgin əməyi, uğurlu informasiya savaşı sayəsində dünya miqyasında ictimai rəyin Azərbaycanın lehinə dəyişməsi təmin edilib. Prezidentin dünyanın nüfuzlu nəşrlərinə verdiyi müsahibələrdə təkcə erməni yalanları ifşa edilmədi, anti-Azərbaycan dairələrin qarayaxma kampaniyaları da iflasa uğradıldı.

# Rəsmi Bakıdan Fransa və Kanadaya xəbərdarlıq

***"Fransa və Kanada Xarici İşlər Nazirliklərinin rəsmi tvitter səhifələrində Azərbaycan tərəfindən 3 erməni əsirinin azadlığa buraxılması müsbət addım kimi qiymətləndirilir və digər erməni əsirlərin də azad olunmasına dair çağırış edilir.***

Xatırlatmaq istərdik ki, bu, Azərbaycan tərəfindən edilən ilk humanist addım deyil, ölkəmiz hətta hərbi əməliyyatlar davam etdiyi zaman erməni əsirlərini qarşı tərəfə təhvil vermişdi. Hərbi əməliyyatlar dayandıqdan sonra tərəfimizdən 70-dən artıq erməni əsir qarşı tərəfə qaytarılıb. Bunun qarşılığında isə Ermənistan, çox çətinliklə əldə olunmuş kövrək sülhə zərbə vuraraq, əməliyyatlar dayandırıldıqdan demək olar ki, 20 gün sonra Azərbaycan ərazilərinə öz hərbçilərini yeridib. Bu hərbçilərin törətdiyi terror aktı nəticəsində 4 nəfər azərbaycanlı hərbçi həlak olub, bir nəfər mülki şəxs isə yaralanıb".



"Unikal"ın məlumatına görə, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Fransa və Kanada Xarici İşlər Nazirliklərinin erməni əsirlərinin azad olunması çağırışına münasibətində bildirib.

"Hər iki ölkənin xarici siyasət qurumunun diqqətinə çatdırırıq ki, Ermənistan tərəfi hələ də beynəlxalq humanitar hüquq öhdəliklərini, eləcə də üçtərəfli bəyanatlarla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Yəqin ki, Ermənistanın 1991-94-cü illərdə müharibə zamanı itkin düşmüş 4000-ə yaxın azərbaycanlı barədə məlumatı bu günədək verməməsi, habelə azad olunmuş ərazilərdə kütləvi şəkildə basdırılmış minaların xəritələrinin təqdim etməkdən imtina etməsi barədə hər iki ölkənin məlumatı var.

Fransa və Kanada Xarici İşlər Nazirlikləri məsələyə birtərəfli deyil, obyektiv yanaşma nümayiş etdirmək istəyirlərsə, o zaman Ermənistana çağırış edərək beynəlxalq humanitar hüquq öhdəliklərinə riayət etməsini, bölgədə dayanıqlı sülhə əngəl olan fəaliyyət və əməllərdən çəkinməsini tələb edərlər. Əks təqdirdə bu, Azərbaycan cəmiyyətində hər iki ölkəyə olan etimada ciddi zərbə vuracaq", - deyə XİN rəsmisi vurğulayıb.

***Famil Fərhadoğlu***

# Bakıda bu küçəyə Polad Həşimovun adı verildi

***Bakıda küçələrdən birinə Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun adı verilib.***

Unikal.org Oxu.Az-a istinadən xəbər verir ki, Xətai rayonunda yerləşən Naximov küçəsinin adı dəyişdirilib.

Dəyişikliyə əsasən, bundan sonra Naximov küçəsi Polad Həşimov küçəsi adlandırılacaq.

# Qida Təhlükəsizliyi İnstitutunda "Açıq qapı" günü keçirildi

***Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda (AQTİ) vətəndaşlar üçün növbəti "Açıq qapı" günü keçirilib.***



Unikal.org xəbər verir ki, əvvəlcədən qeydiyyatdan keçmiş vətəndaşların, həmçinin KİV nümayəndələrinin iştirak etdiyi görüşdə bildirilib ki, "Açıq qapı" gününün keçirilməsində məqsəd vətəndaşlara İnstitutun fəaliyyət istiqamətləri, istehsal və idxal-ixrac olunan qida məhsullarının təhlükəsizlik və keyfiyyət göstəriciləri üzrə laboratoriyalarda aparılan müayinə və analizlər barədə ətraflı məlumat verməkdir. Qeyd olunub ki, qida təhlükəsizliyinin təmin edilməsində vətəndaşların aktiv iştirakını həyata keçirmək üçün onların maarifləndirilməsi vacibdir. "Açıq qapı" gününün təşkili də belə tədbirlərdən biridir.

Tədbirdə İnstitutun bazasında Bakıda və regionlarda ən müasir tələblərə cavab verən laboratoriyalar yaradıldığı, seçilmiş potensiallı kadrların təlimə cəlb edilərək laboratoriyalarda müvafiq işlə təmin olunduğu, habelə müayinələrin beynəlxalq standartlara uyğun, müasir metodlarla həyata keçirildiyi barədə vətəndaşlara məlumat verilib. Qeyd olunub ki, laboratoriyaların mövcud imkanları Azərbaycanda əhalinin təhlükəsiz qida məhsulları ilə təmin edilməsi ilə yanaşı, qida məhsullarının ixrac imkanlarının genişlənməsinə də şərait yaradır. Daha sonra iştirakçılara Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin "1003-Çağrı Mərkəzi"nə daxil olan vətəndaş müraciətləri, sahibkarlarla əməkdaşlıq, İnstitutda aparılan elmi araşdırmalar, keçirilən təlimlər barədə məlumat verilib. Sonda vətəndaşlar laboratoriyalarda aparılan müayinələri əyani şəkildə müşahidə ediblər.

Görüş çərçivəsində vətəndaşları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# DTX anti-terror əməliyyatı keçirdi

## Terror təşkilatlarına qoşulan azərbaycanlılar həbs edildi

***Azərbaycan Respublikasının milli təhlükəsizlik maraqlarına yönələn təhdidlərin, terror-təxribat və digər pozuculuq fəaliyyətinin vaxtında aşkar edilməsi və qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən kompleks mübarizə tədbirləri davam etdirilir.***

"Unikal" DTX-nin saytına istinadən xəbər verir ki, Azərbaycan Respublikasının vətəndaşlarının ölkə hüdudlarından kənarda, digər dövlətlərin ərazisindəki qanunsuz silahlı birləşmələrin tərkibində iştirak etmələri ilə əlaqədar toplanmış materiallar əsasında əməliyyat-istintaq tədbirləri aparılmışdır.

Araşdırmalar nəticəsində, Azərbaycan Respublikasının vətəndaşları - 1977-ci il təvəllüdlü Məmmədov Yəhya Şərməddin oğlunun, 1985-ci il təvəllüdlü Cəbiyev Elnur Güloğlan oğlunun və qeyrilərinin ölkə hüdudlarından kənarda aparılan münaqişələrdə qanunsuz silahlı birləşmələrin tərkibində iştiraklarına dair əsaslı şübhələr müəyyən edilmişdir. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Yəhya Məmmədov və Elnur Cəbiyevin müvafiq olaraq 2010-cu ilin noyabr və dekabr aylarında ölkəni tərk edərək əvvəlcə İran İslam Respublikasına, oradan isə qeyri-leqal yollarla Pakistan İslam Respublikasına keçdikləri və həmin ölkənin Şimali Vəziristan və Uruqzay vilayətlərində "Taliban" hərəkatına tabe olan "Səlahəddin" camaatının tərkibində qanunsuz silahlı birləşmələrin fəaliyyətində iştirak etdikləri məlum olmuşdur.

Qeyd olunan faktlarla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi üzrə Yəhya Məmmədov və Elnur Cəbiyev saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (Azərbaycan Respublikasından kənarda qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunmuş və barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir. Hər iki şəxs törətdikləri cinayət əməllərini etiraf edərək səmimi peşmançılıq hissi keçirdiklərini bildirmişlər. Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.



## "Siyasi partiyalar haqqında" qanun yenidən işlənir

***"Siyasi partiyalar haqqında" qanun yenidən işlənilir. Yaxın vaxtlarda olmasa da, gələcək sessiyalarda qanun müzakirəyə çıxarılacaq".***

Bu barədə Modern.az-a Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli məlumat verib. O qeyd edib ki, mövcud "Siyasi partiyalar haqqında" qanun zamanın tələbinə cavab vermir: "Hesab edirəm ki, ciddi dəyişikliyə ehtiyac var. Doğrudan da, Azərbaycan hakimiyyəti böyük jest etdi. Sədri vəfat etmiş və fəaliyyəti olmayan partiyalar belə qeydiyyata alındı. Bununla bərabər, qeydiyyata alınmayan, fəaliyyəti olmayan partiyalar da mövcuddur. Cəmiyyətdə haqlı olaraq, "bu qədər partiya nəyə lazımdır" sualı yaranır. Aktivliyi olmayan partiyaların arasında inteqrasiya olmalıdır, birləşməlidirlər. Bəzən bu kimi fikirləri səsləndirəndə bizim özümüzü də ittiham edirlər ki, bəs Vəhdət Partiyasının fəaliyyəti? Rəhbərlik etdiyim partiya Milli Azadlıq Hərəkatında böyük rol oynayan Bakı Kəndlər Birliyinin əsasında yaranıb. Partiyamızın bazası var, üzvləri kifayət qədərdir, həmişə qərargahı olub, seçkilərdə iştirak edib. İddiaları səsləndirəndə özümüzə də aid edirik ki, partiyanın fəaliyyətində yeni baxışlar var".

Dünya siyasi sistemində iki tip partiyanın mövcudluğuna toxunan Tahir Kərimli bunu açıq və qapalı partiyalar kimi xarakterizə edib: "Açıq tipli partiyalara Amerika Birləşmiş Ştatlarını misal göstərə bilərik. Bu ölkədəki partiyalarda üzvlük haqqı olmur, qaydalar kəskin qoyulmur. Qapalı partiya tipi isə Azərbaycandakı kimidir. Qanunda müəyyən olunub ki, partiyanın 1000 nəfər üzvü olmalıdır, bundan sonra qeydiyyat üçün müraciət edə bilərlər.

İndiki vəziyyətə nəzər saldıqda görürük ki, siyasi partiyalar xeyli zəifləyib. Dəfələrlə bildirmişik ki, proporsional seçki sistemi bərpa olunarsa, partiyaların siyasi aktivliyi artar və bu onların böyüməsinə, genişlənməsinə səbəb ola bilər. Etiraf edək, Azərbaycanda hakim Yeni Azərbaycan Partiyasını çıxmaqla heç bir siyasi partiya üzvlük haqqını toplaya bilmir. Düşünmək lazımdır ki, partiyalar işlək partiyalar olsun, dövlətin siyasi həyatında iştirak etsin, dövlət idarəetmə sistemində yeri olsun, seçkilərdə aktivlik göstərsin. Ona görə, hesab edirəm ki, Azərbaycanda 10-15 siyasi partiyanın qeydiyyatının saxlanması kifayət edər. Qanunvericiliyi də, ictimai-siyasi həyatı da bu istiqamətdə formalaşdırmalıyıq".

# "Parlament öz funksiyasını yerinə yetirə bilmir"

## Natiq Cəfərli: "Parlamentin ixtiyarı olmalıdır ki, istənilən naziri çağırıb ondan görülən işlərin hesabatını istəsin, təəssüf ki, belə bir ixtiyar və hesabatlılıq yoxdur"

***Ölkədə həyata keçirilən islahatlar çərçivəsində uzun illər vəzifədə olan yüksək çinli məmurların işdən azad olunması, bəzilərinin qanunsuz əməllərinə görə həbsi müzakirə olunmaqdadır. "Unikal" qəzetinə müsahibə verən ReAL Partiyanın icra katibi Natiq Cəfərli ilə də söhbətimiz bu mövzu ətrafında oldu.***

***-Natiq bəy, yüksək çinli məmurların işdən çıxarılması və məmur həbsləri yenidən başlayıb. Öncə bu barədə fikirlərinizi bilmək istərdik.***

-Məmurların həbsi son iki-üç ildə təkrarlanan prosesə çevrilib. Əsasən də icra hakimiyyətlərində, eləcə də icra başçılarının həbsi artıq heç kimdə şübhə doğurmur. Bundan əlavə, son zamanlar həbslərin yeni ssenari üzrə təkrarlanması artıq cəmiyyət tərəfindən təəccüblə qarşılanmır. Amma başqa məsələlərin gündəmə gətirilməsinə səbəbə olur. Bütün bunlar onu göstərir ki, işdən çıxarmalar, həbslər, yetərli deyil. Artıq o həddə gəlib çatmışıq ki, daha sistemli idarəetmədən, islahatların fəlsəfəsinin və formasının vaxtının çatdığından danışmalıyıq. Çünki eyni şeylər təkrarlanırsa, deməli, bu tək insan faktoruna bağlı olan məsələ deyil, sistemin işləmsi qaydalarına bağlı olan məsələdir. Ola bilməz ki, icra başçılarının hamısı pis olsun, rüşvət alsın, ardarda eyni vəzifəni daşıyanlar həbs olunsun. Bunun səbəbi idarəetmə mexanizmindədir. İndi problemlər o yerdə düyünlənib ki, bu, institusional olaraq, isalahatları labüdləşdirir. Yəni, icra hakimiyyəti artıq qarşısına qoyulan institusional vəzifəni yerinə yetirə bilmir. Bundan başqa, tək icra başçıları deyil, digər məmurların da həbsi onu göstərir ki, büdcə vəsaitlərinin xərclənməsi prosesində korrupsiya halları ilə bağlı problem var. Yəni, problem məmurun harada olması deyil, büdcə vasaitinin idarə edilməsindədir. İndi büdcə vəsaitlərinin şəffaf idarə edilməsi, bu məsələlərin parlamentdə, ictimai müzakirələrdə dartışılması daha düzgün olardı. Yəni, dediyim kimi, məsələ insan faktorunu aşıb, sistematik problem mərhələsindədir. Deməli, sistemin özündə ciddi dəyişikliklərin olması labüddür.

***-Son bir neçə ildə Prezidentin çıxışlarına nəzərə yetirsək görərik ki, ciddi dəyişikliklər mesajı verilib, indi də verilməkdədir. Proseslər də onu deməyə əsas verir ki, müəyyən addımlar atılır. Necə düşünürsünüz, proses təzə başlayır, yoxsa görübgörəcəyimiz elə bunlardır?***

-Prezidentin bu məsələlərə bağlı çıxışlarının məğzi onu deməyə əsas verir ki, əvvəlki illərdən fərqli olaraq lap yüksək rəhbərlik tərəfindən problemlərin sistemli xarakter daşıdığı haqqında ümumi bir təsəvvür var. Yəni, son çıxışlarda yerli icra hakimiyyətlərindən tutmuş nazirliklərin fəaliyyətləri ilə əlaqədar ciddi tənqidlər eşitmişik. Məncə, problemin etirafı və onun olduğunu söyləmək ilk addımdır. Növbəti addımlar artıq sistemli qanunvericilik dəyişiklikləri ilə öz yerini tapmalıdır. Prezidentin xüsusi nümayəndəliyinin yaranması və ilk olaraq Şuşada tətbiq olunması ondan xəbər verir ki, hansı çıxış yolu axtarılır. Yaxşıdır ki, yeni sistemə keçidlə bağlı müəyyən ipucları da var. Amma bunun kütləvi olması üçün qanunverici və konstitusion islahatlar lazımdır. Konstitusiya islahatları lazımdır ki, idarəetmənin fəlsəfəsi öz yerini tuta bilsin. Çox təəssüf ki, bizdə səlahiyyət və məsuliyyət bölgüsü anlayışı yox dərəcəsindədir.

***-Əgər ali iradə varsa, o zaman geniş miqyaslı islahata mane olan nədir, yaxud kimlərdir?***

- Birinci növbədə sistemin öz mahiyyətidir. Birdən-birə kəskin dəyişikliklər sistem daxilindəki oyunçuların bir çoxunun maraqlarına toxunur. Bu da açıq aydın görünür. İcra hakimiyyətlərindən tutmuş nazirliklərə qədər bir çox məmurlara, klanlara toxunur. Təbii olaraq sistemin daxilində buna müqvimətin olduğu açıq görünür. Hətta bunun örnəkləri də var. Məsələn, Rəqabət Məcəlləsi 2008-ci ildə birinci oxunuşda parlamentdən keçdi. Üzərindən 13 il ötüb hələ də bu Məcəllə qəbul olunmayıb. Yəni, biz bilirik ki, Azərbaycan parlamenti Prezident Administrasiyasından gələn hər hansı qanuna yox demək iqtidarında deyil. Deməli, daxildə hansısa maraq qrupları var ki, bu Rəqabət Məcəlləsinin qəbul olunmasına maneçilik törədirlər. Eyni məsələ başqa sahələrə də aiddir. Ona görə də sistemin daxilindəki müqaviməti inkar eləmək olmaz. Bir qrup məmurun islahatlardan narahat olması, büdcəyə çıxış imkanından məhrum ola biləcəyi açıq görünür. Maraqlı məqamlardan biri də budur ki, bu qədər icra başçısı həbs olunur, amma icra hakimiyyətində bu sahəyə rəhbərlik edən şəxs hələ də yerindədir.

***-Zeynal Nağdəliyevi deyirsiniz?***

-Bəli. Bu da anlaşılan deyil də, icra hakimiyyətlərinə nəzarət şöbəsi var, uzun illərdir ki, eyni vəzifəni daşıyır. Nəzarət elədiyi sahədə bu qədər problem olur, amma hansısa məsuliyyət daşımır. Prezidentin icra hakimiyyətləri ilə bağlı bu qədər tənqidləri olur, icra başçıları həbs olunur, amma administrasiyada müvafiq şöbənin işinə yenidən baxılmır. Yəni, belə məsələlər var deyə, sistemdaxili müqavimətin olduğunu açıq şəkildə söyləmək mümkündür.



***-Natiq bəy, mövcud durumun yaranmasında parlamentin fəaliyyətsizliyinin rolu nə qədərdir?***

-Parlament ümumiyyətlə, öz funksiyasını yerinə yetirə bilmir. Bu günə kimi rəsmi rəqəmlərə görə parlamentdə qəbul olunan qanunların 96 faizə qədəri Prezident Administrasiyasından göndərilir. Belə qanunverici hakimiyyətin fəaliyyəti olmaz. Əslində, institusional bölgüdə parlamentin çox mühüm rolu olmalıdır, amma indi məsuliyyət və səlahiyyət bölgüsündə rolu görsənmir. Müəyyən formal səlahiyyətləri olsa belə, onun həyata keçirilməsi mexanizmləri yoxdur. Məsələn, hökumət parlament qarşısında hesabatlı deyil. İldə bir dəfə hesabat verir ki, o da formal xarakter daşıyır. Parlamentin ixtiyarı olmalıdır ki, istənilən naziri çağırıb ondan görülən işlərin hesabatını istəsin, təəssüf ki, belə bir ixtiyar və hesabatlılıq yoxdur.

***- Yaxşı, fəaliyyətsiz parlamentin formalaşmasında məsuliyyət kimdədir?***

-Təbii ki, bunun məsuliyyəti həm hakimiyyətin, həm müxalifətin, həm də cəmiyyətin üzərinə düşür. Söhbət ondan gedir ki, Azərbaycanda seçki institutu dəyərdən və gözdən salınıb. Özü də bu, təkcə hakimiyyətin atdığı addımlara görə baş verməyib. Hakimiyyəti başa düşdük, istənilən hakimiyyət öz iqtidarını qorumağa çalışır. Azərbaycanda seçki institutu funksional olaraq oturuşmayıb. Parlament və prezident seçkilərini boykot edən ənənəvi müxalifət partiyaları da bu taktika ilə seçkiləri daha da gözdən salırlar. Zatən əhali seçki institutuna inanmır və bu boykot da inamı tamamilə dağıdır. Bu da hakimiyyətə seçkiləri saxtalaşdırmağa imkan yaradır.

Bir sözlə, hazırkı mövcud duruma görə hakimiyyət də, müxalifət də, elə cəmiyyət də məsuliyyət daşıyır. Hər bir tərəf öz funksiyasını lazımi səviyyədə yerinə yetirmədiyi üçün nəticədə problemlər daha da dərinləşir.

***Z.Məmmədli***

# Bakının bəzi rayonlarının icra başçıları üçün həbs yolu...

## Son vaxtlar paytaxtın bir sıra rayon icra hakimiyyətlərində yaşananlar nədən xəbər verir?

***Yola salmaq üzrə olduğumuz həftə Bakı rayonlarının yerli icra hakimiyyətləri ilə bağlı iki maraqlı məlumat yayıldı. Məlumatlardan birində deyilirdi ki, paytaxt rəhbəri Eldar Əzizov Bakıdakı istirahət parkları, bağlar və "Abad məhəllə"lərin hazırkı vəziyyəti ilə bağlı videokonfrans formatında müşavirə zamanı Sabunçu rayonunda yerləşən EKO park yerli icra qurumlarının diqqətsizliyi nəticəsində baxımsız vəziyyətə düşməsinə görə adıçəkilən rayonun İcra Hakimiyyətinin başçısı Adil Vəliyevə irad tutub.***

Başqa bir məlumatda isə deyilirdi ki, Baş Prokurorluq Səbail Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Bayramova Xalidə Nuru qızının qanunsuz hərəkətlərə yol verməsi haqqında daxil olmuş məlumat əsasında Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparıb. Araşdırma zamanı müəyyən edilib ki, X. Bayramova vəzifə səlahiyyətlərindən istifadə edərək Səbail rayonu ərazisində yerləşən 1 saylı Şəhər Poliklinikasının vəzifəli şəxslərinə zəng edib, "COVID-19" xəstəliyi əleyhinə vaksinasiya prosesi ilə əlaqədar yaxın qohumuna peyvənd vurulmadan peyvəndlənmiş şəxs kimi qeydiyyata alınaraq, bu barədə tibbi sənədin verilməsini tələb edib. Qeyd edilənlərlə bağlı X. Bayramovaya Baş Prokurorluq tərəfindən xəbərdarlıq edilməklə, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanunun tələblərinin pozulması səbəbindən barəsində qanuni tədbirlərin görülərək intizam məsuliyyətinə cəlb edilməsindən ötrü "Prokurorluq haqqında" qanunun 23-cü maddəsinə əsasən Səbail RİH-ə müvafiq təqdimat verilib.

Bundan iki gün sonra isə X.Bayramova vəzifəsindən azad olundu.

Sözügedən iki xəbər son vaxtlar mətbuatda və sosial şəbəkələrdə paytaxtın bəzi rayonlarının rəhbərləri ilə bağlı tənqidi materialların yer almasının təsadüfi olmadığını göstərir. Aydın görünür ki, Bakının bir sıra rayonlarından gələn şikayətlərin intensiv xarakter almasında məntiqəuyğunluq var. Çünki həmin rayonların əksər vəzifəli şəxsləri öz işlərinin öhdəsindən gəlməkdə, qanunun tələblərini və səlahiyyətlərini yerinə yetirməkdə çətinlik çəkirlər.



Düzdür, paytaxt rayonlarından gələn şikayətlərin motivləri fərqlidir: kimi giley-güzarlarının eşidilməməsindən, problemlərinin həllinə laqeyd yanaşılmasından narazıdır, kimi bir sıra məmurların hələ də rüşvət və korrupsiya kimi qanunsuz əməlləri tərgidə bilməməsindən, kimi də özbaşına tikintilərdən, yaşıllıqların məhvindən, ağacların kəsilməsindən... Lakin ümumi məzmun dəyişmir: bəziləri korrupsiyaya qarşı getdikcə güclənən mübarizədən, obrazlı desək, "gözü çıxan qardaşlarının" (həbsdəki sabiq icra başçılarının, digər keçmiş iri məmurların...) aqibətindən dərs almır, elə otağındaca, iş başındaca qollarına qandal vurulan vəzifə sahiblərinin başlarına gələnlərdən ibrət götrmək istəmir, hələ də özlərini qanunların, dövlət və xalq maraqlarının üzərində görməyə davam edirlər.

Bu isə belə bir mülahizə irəli sürməyə əsas verir ki, ayrı-ayrı əyalət rayonlarının icra hakimiyyətlərindən tutmuş müxtəlif nazirliklərəcən son ilyarım-iki ildə xüsusilə intensivləşən antikorrupsiya əməliyyatları və bu əməliyyatların nəticəsi olaraq yüksək çinli şəxslərin həbs olunması prosesi Bakı rayonlarını da əhatə edə bilər.

Yəqin buna görədir ki, son vaxtlar Bakı sakinləri arasında ayrı-ayrı əyalət rayonlarında aparılan antikorrupsiya əməliyyatlarının paytaxtdakı müəyyən rayonların rəhbərlərinə qarşı da keçirilməli olduğu fikri, qənaəti getdikcə möhkəmlənib. Hələ bir neçə ay öncə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov da yerli mətbuata açıqlamasında bu cür fikirləri, qənaətləri bölüşdüyünü açıq şəkildə dilə gətirmişdi. O istisna etməmişdi ki, həm Baş Prokurorluğun Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi, həm də Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilən əməliyyatlar təkcə əyalət şəhərlərinin və rayonlarının deyil, eləcə də paytaxt Bakının da rayon icra hakimiyyətlərini əhatə edə bilər. Millət vəkili bunu onunla əsaslandırmışdı ki, vətəndaş narazılıqları kifayət qədər çoxdur. Araşdırmalara başlanması isə hər hansı rayondakı rüşvətxorluq halları və bununla bağlı şikayətlərdən asılıdır. Deputat qəti olaraq bu düşüncədə olduğunu söyləmişdi ki, antikorrupsiya əməliyyatlarının əhatə dairəsi genişləndirilməli, şəffaf idarəçiliyin bərqərar olması üçün bütün bölgələri, o cümlədən paytaxt Bakının rayonlarını da əhatə etməlidir.

Müşahidələrimiz də göstərir ki, oxşar fikirdə olanlar kifayət qədərdir. Cəmiyyətdə bu cür qənaətin formalaşmasından paytaxtın bir sıra rayonlarının rəhbərlərinin məlumatsız olması və səksəyə düşməməsi mümkün deyil. Elə yola salmaq üzrə olduğumuz həftənin yazının əvvəlində bəhs elədiyimiz iki xəbəri də ümumi mənzərənin fonunda kifayət qədər diqqətçəkicidir. Paytaxt rayonlarının yüksək post sahibləri öz işlərini yeni dövrün - islahatlar mərhələsinin tələblərinə uyğunlaşdırmayacaqları, bu istiqamətdə açıq dönüş yaratmayacaqları təqdirdə bəzi əyalət rayonlarının keçmiş rəhbərləri barədə məşhur videogörüntüləri tezliklə onların da nümunəsində izləyə bilərik.

Bizdən söyləməsi...

Gerisini qoy həmin vəzifəlilərin özləri düşünsün!

***Sənan Mirzə***



## Ombudsmanın hesabatında erməni terroru sənədlərlə sübut edilir

### Deputat: "Dünya ictimaiyyəti bu hesabatla yaxından tanış olmalıdır"

***Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) azərbaycanlılara qarşı cinayətləri və nifrət nitqinə dair hesabat hazırlayıb. Hesabatda Ermənistanda və onun hüdudlarından kənarda azərbaycanlılara qarşı uzun illər aparılan kompaniyadan bəhs edilir. Eyni zamanda etnik zəmində nifrəti təbliğ edən siyasətin yol açdığı insan hüquqları pozuntularını dünya ictimaiyyətinə çatdırırlar. Bu nifrət əsaslı siyasətin qarşısının alınması istiqamətində tədbirlərin görülməsi ilə bağlı çağırışlar edilib.***

Bunu "Unikal"a Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.

O bildirib ki, Ombudsmanın hazırladığı yeni hesabat çoxdan hazırlanması vacib olan bir sənəddir:

"Dünya ictimaiyyəti bu hesabatla yaxından tanış olmalıdır. Bu sənəd ermənilərin azərbaycanlılara qarşı törətdikləri hərbi cinayətləri və soyqırımlarını, xalqımıza qarşı bəslədikləri nifrət hislərini açıq şəkildə ifadə edir. Ermənilər XIX əsrdən başlayaraq yaratdıqları terror təşkilatları vasitəsilə ilk olaraq Osmanlı İmperiyası ərazisində hərbi cinayətlər və terror aktları həyata keçirib. Əsl məqsədləri isə "Böyük Ermənistan" qurmaq idi. Sözsüz ki, erməniləri qızışdıran, dəstəkləyən havadarları var idi. Onların bu terror aktları Osmanlı dövlətinin zəiflədiyi dövrə təsadüf etdiyi üçün müəyyən qədər uğur da qazandılar. İmperiya ərazisində hərbi cinayətlər və terror aktları reallaşdırdılar. Daha sonra bu proseslər Azərbaycan ərazilərində həyata keçirilməyə başladı. Çünki 1813 və 1828-ci illərdəki "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra azərbaycanlıların yaşadıqları ərazilərə ermənilər köçürülməyə başlanıldı. Nəticə etibarı ilə Osmanlı dövləti ilə Azərbaycan arasında bir bufer zona yaradıldı. Rus çarizmi özü üçün dayaq yaratmaq istəyirdi. Bir sözlə, həmin dövrdə əsası qoyulan bu siyasət sonra da davam etdirildi".

Deputat xatırladıb ki, qondarma erməni soyqırımının 50 illiyi də sovet ittifaqının dönəmində Ermənistanda qeyd edildi: "Ermənilərin azərbaycanlılara qarşı nifrət cinayəti XX əsrdə də davam etdirildi. Əsrin sonlarına yaxın Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi fikirləri artıq sovet rəsmiləri tərəfindən dəstəkləndi. Azərbaycanda, Qarabağda yaşayan ermənilər qızışdırıldı. Münaqişə süni olaraq yenidən alovlandırıldı. 1990-cı il 20 yanvar hadisələrində ermənilər iştirak edib. 1992-ci ildə Xocalı soyqırımını birbaşa ermənilər törədib. Bu da əsrin ən böyük faciələrindən, soyqırımı aktlarından biridir. Təəssüf ki, illər dəyişsə də, ermənilərin ideologiyası, məsələlərə baxışı dəyişməyib. Sonrakı dövrdə ermənilər terror aktları törətməyə davam edib. 44 günlük Vətən müharibəsi zamanı da ermənilər dinc əhalinin yaşadığı əraziləri uzaqmənzilli, istifadəsi qadağan olunmuş raketlərlə hədəfə aldı. Nəticədə çox sayda dinc azərbaycanlı öldü".

Naqif Həmzəyev qeyd edib ki, bu gün işğaldan azad olunmuş ərazilərdə daşı-daş üstündə qoymayan erməni vandalları Azərbaycan xalqına məxsus dini, mədəni abidələri talan edib:

"Azərbaycan bu gün əraziləri yenidən bərpa edir. Cənab Prezidentin rəhbərliyi ilə bu proses tezliklə yekunlaşacaq, Qarabağ cənnətə çevriləcək".

# Elman Rüstəmovun iri tenderlərinin dəyişməz qalibi...

## Mərkəzi Bankın keçirdiyi dövlət satınalmalarında niyə bir şirkətin adı daim önə çıxır?

***Yola salmaq üzrə olduğumuz həftə Azərbaycan Respublikasının Mərkəzi Bankı 2 şirkətlə müqavilə bağlayıb. Bu şirkətlər "GT Solyuşnz" MMC və "Stell Technology" MMC-dir.***

"GT Solyuşnz" MMC ilə bağlanmış müqavilədə Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan standart proqram təminatları üzrə lisenziyaların satın alınması nəzərdə tutulur. Müqavilənin dəyəri 749 288 manatdır.

"Stell Technology" MMC ilə bağlanmış müqavilədə Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün kompüter və printer avadanlıqlarının satın alınması nəzərdə tutulur. Müqavilənin dəyəri 570 000 manatdır.

Bir sözlə iki müqavilənin cəmi məbləği 1 319 288 manatdır.

Lakin maraqlı burasıdır ki, Elman Rüstəmovun rəhbərlik etdiyi qurumun keçirdiyi iki iri məbləğli tenderində ənənəvi Azərbaycan reallığına xas hal müşahidə olunur. Belə ki, araşdırmalar zamanı tender qaliblərindən birinin az qala hər il baş bankın satınalma müsabiqələrindən zəfərlə çıxdığını göstərir. Söhbət "GT Solyuşnz" MMC-dən gedir.

Düzdür, bu şirkət ilə bağlı internet üzərindən aparılan axtarışlarda onun müxtəlif vaxtlarda qalib gəldiyi bir çox tenderlər barədə məlumatlara rastlayırıq. Lakin belə məlumatlar da elə çox deyil. Məsələn, şirkətin 5 il öncə Azərbaycan İpoteka Fondunun server və şəbəkə avadanlığına texniki dəstəyin göstərilməsi üzrə xidmətlərin alınması ilə bağlı təkliflər sorğusunun qalibi olduğunu öyrənirik.

Lakin"GT Solyuşnz"ın məhz Mərkəzi Bankın tenderlərində qalib gəlməsi barədə kifayət qədər informasiya əldə etmək mümkündür. Üstəlik, adıçəkilən MMC-nin qalibi olduğu tenderlər sırasında ən yüksək məbləğli satınalmaların da əsasən ölkənin baş bankına məxsusluğu diqqət çəkir. Misal üçün, E.Rüstəmovun rəhbərlik elədiyi qurum ötən il İKT avadanlıqları almaq üçün keçirdiyi tenderin qalibi kimi də bu şirkəti elan edib. Qurumun "GT Solyuşnz"lə bağladığı müqaviləyə görə, Mərkəzi Bank şirkətə kompyuter, printer, server və şəbəkə avadanlıqları olmaqla ümumilikdə 288 ədəd avadanlıq üçün1 milyon 808 min 669 manat ödəyib.



Yenə ötən il Mərkəzi Bankın Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi və Ani Ödənişlər Sisteminin arxitekturasında istifadə olunan Oracle VBİS lisenziyalarının dəstəklənməsi xidməti üçün elan etdiyi tenderdə də "GT Solyuşnz" qalib elan olunub. Həmin vaxt bildirilib ki, qalib şirkətə 831.286 manat ödəniləcək.

2019-cu ildə keçirilən tenderdə isə "Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Elektron statistik məlumat bazası və analitik hesabatlıq sisteminin proqram platformasının dəstəklənməsi" və "Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Maliyyə savadlığı portalının proqram platformasının dəstəklənməsi" lotları üzrə yenə adıçəkilən şirkət qalib elan olunub. Həmin vaxt bildirilib ki, şirkət bağladığı 2 müqavilə üzrə 516 min 498 manat alacaq.

Belə nümunələri davam etdirmək mümkündür. Ancaq ehtiyac duymuruq, çünki ümumi mənzərəni təsəvvür etmək üçün elə yuxarıdakı örnəklər də kifayət edə bilər.

Mümkündür ki, Mərkəzi Bankın bir sıra satınalmaları ilə bağlı tenderlərdə qalib gələ biləcək peşəkar şirkət ölkədə ya yoxdur, ya da var, ancaq "GT Solyuşnz"la rəqabət gücündə deyil. Bu mənada baş bankımızın dəyişməz seçimini anlamaq mümkündür.

Lakin onu da qəbul etmək lazımdır ki, hər hansı dövlət qurumunun satınalmalarında eyni şirkətlərin adlarının çox önə çıxması cəmiyyətdə suallar yaradır. Keçirilən tenderlərin obyektivliyini, ədalətliliyini şübhə altına almaqla yanaşı, ölkədə rəqabətlilik prinsipinin mövcudluğu barədə də mübahisə və müzakirələri alovlandırır. Elə bu baxımdan da Azərbaycan Mərkəzi Bankının, ümumiyyətlə isə hər bir dövlət qurumunun öz satınalmalarında mütəmadi şəkildə eyni şirkətləri qalib elan etməsinin səbəb, yaxud səbəblərini açıqlaması ehtiyac var.

***Toğrul Əliyev***

# Fitrə çıxaran millət vəkilləri

***On bir ayın sultanı Ramazan ayını yaşayırıq. Bu müqəddəs ay insanları Allahı sevməyə, təmiz, vicdanlı, xeyirxah, iradəli olmağa yönəldir. Ramazanda oruc tutub namaz qılmaq, Allaha şükr etmək vacib şərtlərdir. Eyni zamanda Ramazan ayının yekununda fitrə vermək də adətdir.***

Ramazan bayramına (fitrə bayramı) sayılı günlər qalıb. Bu il bayram mayın 13-nə təsadüf edir. Hər il adəti üzrə bayram namazından öncə fitrə verilməlidir. Fitrə İslam dinində vacib hesab edilir və maddi vəziyyəti normal olan hər bir müsəlman mütləq Ramazan ayı bitmədən fitrə sədəqəsi verməlidir.

Bəs Milli Məclisin deputatları fitrə çıxaracaqlarmı? Modern.az-ın əməkdaşı bu sualla bəzi deputatlara müraciət edib.



Milli Məclisin 87 saylı Ağsu-İsmayıllı seçki dairəsindən seçilmiş üzvü Tahir Kərimli: "Bir qayda olaraq müstəqillik illərindən üzü bəri həm ailəm, həm də özüm həmişə fitrə çıxarmışıq. Çalışırıq ki, miqdar dini qaydalara uyğun şəkildə olsun. Lakin əslində mən hər maaş alanda həm qonşuluğumda, həm seçildiyim rayondan olan bəzi insanlar var ki, onlara hər ay mütləq şəkildə yardım göstərirəm. Bunun Ramazana aidiyyatının olub- olmamasını bilmirəm. Təbii ki, çalışırıq ki, aldığımız əmək haqqı özümüzə halal olsun. Çox ehtiyacı olana əlimizdən gəldiyi şəkildə yardım etməyə çalışırıq. Bu il də hər il olduğu kimi inşallah fitrə verəcəyik".

92 saylı Zərdab-Ucar seçki dairəsindən seçilmiş üzvü Jalə Əliyeva: "Milli, dini adət-ənənələrimizə uyğun olaraq hər il həyata keçirdiyimiz fəaliyyəti - fitrə zəkatın çıxarılmasını kimliyindən, imkanından asılı olmayaraq yenə də ailə olaraq hər bir azərbaycanlı edir. Düşünürəm ki, məsələyə daha geniş yanaşmalıyıq. Ramazan bayramı yardımlaşma deməkdir. İnsanlar bu ayda bir-birilərinə daha çox mərhəmət, yardım göstərirlər. Düşünürəm ki, bunu etmək üçün sadəcə ildə bir dəfə Ramazan ayını gözləməyə ehtiyac yoxdur. Əgər köməyə ehtiyacı olan biri varsa, imkanın çatdığı qədər sən ona hər hansı bir şəkildə, istər maddi, istərsə də mənəvi dəstək ola bilirsənsə, bu elə Allah tərəfindən qəbul edilmiş fitrə zəkatdır. Mənim nəzərimdə bu belədir. Bu şəkildə qiymətləndirirəm".

26 saylı Sabunçu birinci seçki dairəsinin deputatı Fazil Mustafa: "Ramazan bayramında fitrə verilir. Zəkat başqa kateqoriyaya aid olan məsələdir. Lakin fitrə konkret Ramazan bayramı ilə bağlı verilən sədəqədir. O da hər il verildiyi kimi, bu il də veriləcək. Fitrə konkret insanlara verilir. Onun da miqdarı müəyyən olunur. Həmin miqdar civarından da ikiqat artıq ödəmək imkanı varsa, ödənilməlidir".

75 saylı Lənkəran - Masallı seçki dairəsinin deputatı Cavanşir Paşazadə: "Hər il orucluq qurtarandan sonra ailə üzvlərimiz fitrə verir. Biz əvvəldən buna öyrəşmiş, valideynlərimizdən bunu görmüşük. Orucluq bayramına bir gün qalmış gecə fitrə çıxarırıq. Orta hesabla miqdarı təyin olunur. Kimə çatacağı təyin olunur. Fitrə gəliri olmayan, xəstəsi olan, tam ehtiyaclı insanlara verilir. Mənə elə gəlir ki, ailə çərçivəsində imkansız qohum-əqraba varsa, fitrəni onlara vermək olar".

52 saylı Quba seçki dairəsinin deputatı Vahid Əhmədov: "Ramazan bayramı bütün İslam dünyasının müqəddəs bayramıdır. Azərbaycanda dinə, Ramazan bayramına kifayət qədər çox böyük hörmət edirlər. Bayramın həmişə dövlət səviyyəsində keçirilməsi üçün şərait yaradılır. Bu bayram çox önəmlidir, dualar oxunur, yardımlar edilir. Oruc tutan, dua edən hər kəsin ibadəti qəbul olunsun. İslam dünyasının belə bir bayramı yüksək səviyyədə keçirməsi, Azərbaycanın da buna diqqətlə yanaşması çox xoş haldır".

47 saylı Mingəçevir seçki dairəsinin deputatı Aydın Mirzəzadə: "Hər zaman fitrə-zəkat məsələsinə həsas yanaşmışam. Məxsusi olaraq nəyisə zəkat verəcəyimi heç vaxt düşünməmişəm. Sadəcə olaraq mənə müraciət edən imkansız ailələrə kömək etməyə çalışmışam. Bəzən maddi, ərzaq yardımı, dərman alınması da olub. Belə formada kömək etməyə çalışmışam. Bilmirəm bu zəkat kimi qəbul olunur, yoxsa yox"...

60 saylı Salyan-Neftçala seçki dairəsinin deputatı Fəzail Ağamalı: "Bizim ailəmizin üzvlərindən də oruc tutanlar var. Mən özüm səhhətimlə əlaqədar oruc tuta bilmədim. Bu, bizim müqəddəs kitabımız olan Qurani-Kərimdə də qadağandır. Əgər səhhətimiz imkan vermirsə, riayət etməmək olar. Digər şərtlərə, qaydalara əməl edirik. Bu il də hər il olduğu kimi fitrə çıxarılmasına əməl edəcəyik".

21 saylı Nəsimi birinci seçki dairəsinin deputatı Məlahət İbrahimqızı: "Bu məsələlər haqqında danışmaq düzgün deyil. Hər bir müsəlmanın, insanın öz üzərində müəyyən məsuliyyəti vəzifələri, hər bir dinin öz qaydaları və qanunları var. İslam dininin də özünəməxsus qayda- qanunları var. İnsan Allah, cəmiyyət, öz vicdanı qarşısında müəyyən mükəlləfiyyət daşıyır. Biz də o mükəlləfiyyətləri mütləq yerinə yetirməliyik. Bu mükəlləfiyyətləri yerinə yetirib- yetirə bilməmək insanın özünə aid olan bir məsələdir. Bunu ictimailəşdirmək o qədər də yaxşı deyil".

4 saylı Naxçıvan şəhər seçki dairəsinin deputatı Eldar İbrahimov: "Uşaqlarımızdan tutmuş nəvələrimizə qədər həmişə biz də fitrə-zəkat veririk. Kasıb, imkanı olmayan insanları tapır, xəstə uşaqların hesabına pul da köçürürük. Xalqımızın milli-mənəvi dəyərlərinə sadiq olaraq kasıba, imkansıza kömək etmək savabdı. Ramazan bayramının da məqsədi elə bundan ibarətdir. Biz də təbii ki, hamı kimi öz ailəmizi nəzərə alaraq hər adambaşına müəyyən miqdarda, bəlkə də ondan daha artıq fitrə çıxarırıq. Bu bizim borcumuzdur. Kimə köməklik etdiyimizi deməyə ehtiyac yoxdur. Bir məsəl var ki, sağ əlin verdiyini sol əl bilməməlidir".

Milli Məclisin 75 saylı İmişli seçki dairəsindən deputatı Razi Nurullayev: "Mən gözümü açandan, evimizdən fitrə-zəkat çıxarıldığını görmüşəm. Və o ənənə bizim bütün ailə üzvlərimizin hamısı tərəfindən davam etdirilir. Bütün qardaşlarım, bacılarım hamısı buna əməl edirlər. Mənim də ailəmdə eyni şəkildə davam edir. Mütləq şəkildə biz fitrə-zəkatı evdən çıxarırıq, əvvəlcədən onu kənara qoyuruq. Əlavə olaraq gücümüz çatan qədər müxtəlif cür köməklik göstəririk. Bir dəfə də bu ənənəi qaçırmamışıq".

***Nəzrin Vahid***

# Hacıbala Abutalıbov ətrafında qalmaqallar dalğası...

## Sabiq merin başı bəladan açılmır – müəmmalı proses haradək uzana bilər?

***Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) keçmiş başçısı Hacıbala Abutalıbov ətrafında maraqlı proseslər cərəyan etməyə başlayıb. Həmin proseslərin növbəti halqasına yola salmaq üzrə olduğumuz həftə şahidlik etdik.***

Vəzifədə olduğu müddətdə adı çoxsaylı qanunsuzluqda, cinayətdə hallanan sabiq merin imzası ilə törədilən axırıncı (hələlik axırıncı!) qanundankənar əməlin vəzifədə olduğu son gün - 2018-ci il aprelin 20-də baş verdiyi ortaya çıxıb. Aprelin 21-də isə Hacıbala Abutalıbov artıq mer deyildi.



Mətbuat və vətəndaş cəmiyyəti haqlı olaraq bu qənaətdədir ki, onun imzaladığı həmin sənəd araşdırılacağı təqdirdə həbsinə yol açmaq gücündədir. Belə ki, son imzası ilə Hacıbala Abutalıbov Azərbaycan məhkəməsini ələ salmaqla yanaşı, misli görünməmiş qanunsuzluq etməklə Bakı şəhərinin şərq hissəsini susuz qalma təhlükəsi ilə üz-üzə qoyub.

Belə ki, Vətəndaş Bahadur Əli keçmiş mer və onun dəstə üzvlərinin cinayətlərinin araşdırılması üçün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova məktub yollayıb. Məktubda isə yazıb ki, Bakı Şəhər İcra Hakimiyyətində vaxtilə mühasib işləmiş, əvvəllər məhkum olunmuş Tamara Həmidova ilə BŞİH Aparat rəhbəri sənədləri saxtalaşdırıblar. Həmin saxta sənədlər əsasında Tamara Həmidova dövlətin və vətəndaşın mülkiyyətində olan torpaq sahəsini ələ keçirib.

Bu ağır ittihamdan az öncə isə vaxtilə Bakı şəhər İcra Hakimiyyəti başçısının müavini vəzifəsi üzrə səlahiyyətlərinin icrası həvalə edilən BŞİH başçısının Aparat rəhbəri vəzifəsində işləmiş Rasim Quliyev həbs olundu. Onun barəsində Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 314-2.3-cü (qanunla müəyyən olunmuş qaydaları pozmaqla tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham irəli sürüldüyü açıqlandı. Bu barədə yayılan rəsmi məlumatda vurğulanıb ki, hazırda cinayət işi üzrə intensiv istintaq tədbirləri davam etdirilir.

Həmin xəbər yayıldıqdan sonra "Unikal" olaraq yazmışdıq ki, mətbuatda "Hacıbala Abutalıbovun sağ əli" kimi təqdim olunan R.Quliyevin həbsi sabiq mer üçün ciddi başağrısı vəd edir. Belə ki, istintaqın gedişində sabiq Aparat rəhbərinin başqa qanunsuzluqlara da yol verdiyinin üzə çıxarılması istisna olunmur. Nəticədə isə prosesin BŞİH-in keçmiş başçısına qədər uzanması tamamilə real təsir bağışlayır.

Təxminən bir ay öncə dilə gətirdiyimiz bu ehtimal gün keçdikcə qüvvətlənir. Sabiq merin paytaxt rəhbəri vəzifəsindəki son iş günündə qanunsuz sənədə imza atmasını məhz belə dəyərləndirmək olar. Abutalıbovun adının son həftələrdə davamlı şəkildə qalmaqallı məsələlərdə gündəmə gəlməsi, onunla bağlı ifşaedici faktların ortaya çıxması təsadüfə bənzəmir. Aydın şəkildə görünür ki, Azərbaycanda rüşvət və korrupsiyaya bulaşmış indiki və keçmiş məmurlarla bağlı həbs dalğasının növbəti "dayanacağının" keçmiş mer olma ehtimalı heç də az deyil.

O da maraqlıdır ki, ötən ayın əvvəllərində Hacıbala müəllimin özü belə bu barədə danışmışdı. O, həbs olunması ilə bağlı yayılan xəbərlərə münasibət bildirərkən demişdi ki, "mənim həbs olunmağımı istəyənlər ürəyi bəd olan insanlardır".

Əlbəttə, Abutalıbov belə düşünə bilər; hər halda ölkəmizdə düşüncə azadlığı vardır və kimsə sabiq merə onun həbsi barədə yazıb-pozanları "ürəyi bəd insanlar" adlandırmağı yasaqlaya bilməz.

Ancaq bu da bir reallıqdır ki, xüsusilə son ayyarım - iki ayda Hacıbala müəllimin ətrafında gedən proseslər heç də ürəkaçan deyil və bu prosesin sonunda onu yaxşı nəticələrin gözləmədiyini düşünmək də hər kəsin haqqıdır. Onu da unutmayaq ki, Azərbaycan təcrübəsində vəzifədə olan, yaxud vəzifədən uzaqlaşdırılan hansısa iri məmurun adı ətrafında ardıcıl şəkildə qalmaqallı xəbərlərin, iddia və ittihamların ortaya çıxması təsadüfən baş vermir, bunun mütləq həmin məmur üçün "sürpriz nəticə"si olur.

Nəyi nəzərdə tutub Abutalıbovun qanını lap qaraltmaq, kefinə soğan doğramaq istəməzdik, ancaq əminik ki, əslində söhbətin nədən getdiyini tam açıqlığı ilə yazmağa da gərək yoxdur. Çünki keçmiş merin kifayət qədər yaşı, təcrübəsi var, o da nəyin nə olduğunu bilməmiş deyil. Bu səbəbdən də yaxşı olar ki, həbs ehtimalı barədə yazanlara, danışanlara "qulp qoymaqdansa", az qala hər gün haqqında ortaya atılan yeni ittihamlara cavab versin. Həm də ağlabatan cavab versin ki, ictimai rəydə müəyyən qədər inandırıcı qarşılansın...

***Emin***

# Qarabağda su təsərrüfatı kompleksinə dair Dövlət Proqramı hazırlanıb

***"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC işğaldan azad olunmuş ərazilərdə meliorasiya və su təsərrüfatı kompleksinin bərpası, eləcə də inkişafı üzrə Dövlət Proqramı hazırlayıb.***

"Unikal" xəbər verir ki, bunu qurumun sədr müavini Zakir Quliyev bildirib.

"Proqramın məqsədi Dağlıq Qarabağın ətrafındakı, uzun illər erməni təcavüzünə məruz qalmış ərazilərdə suvarılan torpaqların kənd təsərrüfatında istifadəsinə şərait yaratmaq üçün ilkin mərhələdə melioarsiya və su təsərrüfatı obyektlərinin təmirbərpası ilə onların iş rejimlərinin bərpası, sonrakı mərhələdə bu obyektlərin müasir səviyyədə yenidən qurulmasına və inkişafına nail olmaqla idarə edilməsinin səmərəli təşkilindən ibarətdir. Bu il səhmdar cəmiyyəti meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi, yenidənqurulması işlərinin davam etdirilməsi üzrə təkliflərini aidiyyəti qurumlara təqdim edib", - o deyib.

# Şuşada "Xarıbülbül" musiqi festivalı keçiriləcək

***Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Xarıbülbül" musiqi festivalı keçiriləcək.***

Bu barədə "Unikal"a Heydər Əliyev Fondundan məlumat verilib.

Bildirilib ki, Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" musiqi festivalı ilk dəfə 1989-cu ilin may ayında Şuşanın əsrarəngiz Cıdır düzündə təşkil olunub.

32 ildən sonra Cıdır düzündə keçiriləcək budəfəki "Xarıbülbül" musiqi festivalı Heydər Əliyev Fondu tərəfindən təşkil olunur. Hazırda festivala son hazırlıq işləri görülür.

Festival çərçivəsində Cıdır düzündə Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda təqdim ediləcək, xalq mahnıları və klassik musiqidən ibarət proqram təşkil olunacaq.

# Xalq şairi Musa Yaqub vəfat edib



***Azərbaycanın Xalq şairi Musa Yaqub 84 yaşında vəfat edib.***

"Unikal" xəbər verir ki, o, mayın 7-də İsmayıllı rayonunun Buynuz kəndində yaşadığı evdə dünyasını dəyişib.

Xalq şairi uzun illərdir Parkinson xəstəliyindən əziyyət çəkirdi.

M.Yaqub mayın 8-də Buynuz kənd qəbirstanlığında həyat yoldaşının məzarının yanında torpağa tapşırılacaq.

Qeyd edək ki, Musa Yaqub 1937-ci il mayın 10-da İsmayıllı rayonunun Buynuz kəndində anadan olub. Göyçay pedaqoji məktəbini bitirdikdən sonra Tircan kənd orta məktəbində müəllim (1957-1958), Buynuz kənd ibtidai məktəbində müəllim və müdir (1958-1967) işləyib. ADU-nun filologiya fakültəsində qiyabi təhsil alıb (1967-1973). Həmin illərdə Buynuz kənd 8 illik məktəbinin müdiri olub.

Bakıya köçəndən sonra Azərbaycan Yazıçılar İttifaqında bədii ədəbiyyatı təbliğ bürosunda direktor müavini, "Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri vəzifəsində çalışıb (1974-1978). İsmayıllı rayonunda çıxan "Zəhmətkeş" qəzetinin redaktoru olub.

Ədəbi fəaliyyətə 1957-ci ildə "Azərbaycan" qəzetində çap olunan "İki qəlb, iki dünya" poeması ilə başlayıb. Moldovada Sovet ədəbiyyatı, Ukrayna və Özbəkistanda Azərbaycan ədəbiyyatı günlərində və digər ümumittifaq tədbirlərində iştirak edib. Azərbaycan KP İsmayıllı rayon komitəsinin büro üzvü, rayon xalq deputatları Soveti ticarət və məişət xidməti daimi komissiyasının sədri olub. İsmayıllı rayon Xalq Deputatları Sovetinin deputatı seçilib. M.F.Axundov adına mükafata layiq görülüb.

Prezident İlham Əliyevin 25 may 2019-cu il tarixli sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə görkəmli şair, Yazıçılar Birliyinin üzvü Musa Yaqub "Xalq şairi" fəxri adlarına layiq görülüb.

Allah rəhmət eləsin!



## Təhsil eksperti: Buraxılış imtahanlarındakı yaxşı nəticə məktəblərin uğuru deyil

***Tam (11 illik) orta təhsil səviyyəsi üzrə 15-16 aprel 2021-ci il tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub.***

Maraqlıdır, əvvəlki illərə nisbətən bu ilin nəticələri necədir? Nə kimi fərqlər var?

Təhsil eksperti Kamran Əsədov Modern.az-a deyib ki, 2020-ci ildən etibarən orta məktəblərdə tədrisin məsafədən təşkili və bir çox fənlərin bu formatda şagirdlərə öyrədilməsində yaranan çətinliklər buraxılış və qəbul imtahanlarında nəticələrin əvvəlki illərlə müqayisədə aşağı olacağını proqnozlaşdırmağa əsas verirdi: "Hətta rəsmi münasibət belə ondan ibarət idi ki, orta ümumi təhsil məktəblərini bu il bitirən 85 minə yaxın 11-ci sinif şagirdinin məktəbə bir gün belə getməməsi, eyni zamanda 75 faizə qədərinin məsafədən tədrisdə iştirak etməsi nəticələri aşağı salacaqdır. Lakin görünən o oldu ki, orta məktəblərdə tədrisin ənənəvi qaydada aparılmaması şagirdlərin nəticələrinə o qədər də təsir göstərmir. Bu çox ciddi bir məsələdir. Bu onu göstərir ki, şagirdlər buraxılış və qəbul imtahanlarında orta məktəblərin nəticələri ilə yox, fərdi qaydada əldə etdikləri, daha çox repetitor kurslarından aldıqları bilikləri ilə iştirak edirlər. Bu da çox ciddi faktordur. Mən hesab edirəm ki, mütləq şəkildə ümumi təhsil məktəblərində tədrisin təşkilində bu amil mütləq nəzərə alınsın. Son illər şagirdlərin müvəfəqiyyətləri və uğurları orta ümumi təhsil məktəbləri ilə əlaqədar deyil".

K.Əsədov açıqlanan nəticələri yaxşı qiymətləndirdiyini qeyd edib: "Aprel ayının 15-i və 16-da ümumilikdə 26 min nəfərdən çox şagird 11 bölgəmiz üzrə buraxılış imtahanında iştirak etmişdi. Maraqlısı da odur ki, artıq Sumqayıt şəhərindən 1 nəfər şagird maksimum bal toplayıb. Lakin kifayət qədər orta və yüksək göstəricilər var. Artıq bu onu deməyə əsas verir ki, cari il üçün gözlədiyimiz imtahanlarda balların aşağı düşmə ehtimalı çox azdır. Çünki dünən açıqlanan nəticələrdə çox sayda şagird 200-dən yuxarı bal toplayıb. Bu da ötən illə müqayisə nəticələrin yaxşı olduğunu göstərir. Qarşıda digər imtahanların nəticələri də olacaq. Şagirdlər ilk imtahandı deyə, psixoloji gərginlik də keçirə, eyni zamanda mövzular baxımından tam hazıra olmaya da bilərlər. Nəticələrin aşağı olacağı proqnozu özünü hesab edirəm ki, doğrultmur. Bir tək riyaziyyat fənni üzrə abituriyentlərin nəticələri aşağı oldu. Ən yaxşı nəticə Azərbaycan dilindəndir. İmtahan iştirakçılarının böyük faizi Azərbaycan dili fənnindən çox yüksək nəticə göstərdi. İkinci yerdə xarici dil ilə bağlı nəticələr dayanır. Üçüncü yerdə isə riyaziyyatdır. Riyaziyyatın aşağı olması məsafədən tədris zamanı fənnin effektli keçilməməsi ilə bağlı ola bilər. Digərləri əvvəlki illərdən o qədər də ciddi şəkildə fərqlənmir".

# Azərbaycanda satılan milyonluq avtomobillərlə bağlı müəmma

### Həftənin replikası: ölkəmizdə bir nəfər rəsmi milyonçu yoxdursa, onda həmin avtomobilləri kim alır?

***Bir neçə gün öncə ölkədə satılan ən bahalı avtomobilin qiymətinin təxminən yarım milyon dollara (1 milyon manata yaxın) yaxın olduğu aşkarlanmışdı. Belə ki, Azərbaycanda ən bahalı avtomobil "Rolls-Royce" markasına aiddir. Bakı şəhərində satışa çıxarılan "Rolls-Royce Cullinan" modelinin (6.7 L, 2019 il) qiyməti 480 min ABŞ dollarıdır (816 min AZN).***

"Rolls-Royce" ailəsinə aid "Wraith" modeli isə (6.5 L, 2016 il) 304 min ABŞ dollarına (516 800 manat) satılır.

Üçüncü ən bahalı avtomobil "Lamborghini Huracan" modelidir. Bu modelin (5.2 L, 2017 il) qiyməti 265 000 ABŞ dolaradır (450 500 manat).

Digər ən bahalı avtomobil isə "Mercedes" markasına daxildir. Bakıda "Mercedes-Maybach S 560" modeli (4.0 L, 2020 il) 258 min ABŞ dollarına (438 min manat) satılır.

Bakıda beşinci ən bahalı avtomobil isə "Bentley" ailəsinə adiddir. "Bentley Flying Spur" markalı avtomobil (6.0 L, 2020 il) 350 min manata satışa çıxarılıb.

Bir neçə il əvvəl Azərbaycanda dəyəri hətta 1milyon manatdan yuxarı avtomobillərin satıldığı məlum olmuşdu. Belə bahalı avtomobillər ictimai rəyin "radarına" da az düşməyib: məsələn, yenə bir neçə il öncə Dövlət İqtisad Universitetinin yaxınlığında görünən bir avtomobil ərazidə olan şəxslərin diqqətini cəlb eləmişdi. O vaxt yerli media yazırdı ki, bu maşın adıçəkilən universitetin tələbələrindən birinə aiddir. "Lamborghini Aventador LP-740" markalı həmin avtomobilin qiymətinin 650 min ABŞ dolları (1 milyon manatdan çox) olduğu deyilirdi. Maşın sahibi kimi isə tanınmış bir iş adamının oğlu nişan verilmişdi. "Şərurlu İsfəndiyar" kimi tanınan həmin iş adamı - tikinti maqnatı İsfəndiyar Axundov isə avtomobilin onun oğluna məxsusluğunu inkar eləmişdi.



İsfəndiyar müəllim düz deyirdi, yoxsa yalan, məsələ bunda deyil.

Məsələ heç Azərbaycanda rastımıza çıxan və qiymətinin yüz min manatlarla ölçüldüyünü ilk baxışda hər kəsin anlaya bildiyi digər bahalı avtmobil sahiblərinin kimliyində də deyil.

Məsələ ondadır ki, necə ola bilər, ölkədə bir nəfər də rəsmi milyonçu yoxdur, ancaq biz küçələrdə şütüyən milyonluq avtomobillər görürük?

Necə ola bilər, ölkədə bir nəfər də rəsmi milyonçu yoxdur, ancaq biz elan saytlarında 5-10 milyon, bəzi hallarda 20-25 milyon manata satışa çıxarılan mülklərə rast gəlirik?

Bir az da konkretləşdirsək, Azərbaycanda milyonlarla manata sahib olan kifayət qədər insan var. Onların bir qismi vəzifəli şəxslərdir, bir hissəsi iş adamlarıdır.

Məmurları başa düşürük: topladıqları gözqamaşdırıcı sərvətin kökündə rüşvət və korrupsiya dayanır, ona görə də sərvətlərini daha çox ailə üzvlərinin, qohum-əqrəbalarının, digər yaxınlarının adına rəsmiləşdirirlər. Bəs iş adamları arasında niyə rəsmi milyonçu yoxdur? Ona görəmi ki, hələ də özəl sektorda "qara mühasibatlıq", vergi qaçaqçılığı "at oynatmaqdadır"? Ona görəmi ki, iş adamlarının çoxu öz bizneslərinin mövcudluğuna görə onları himayə edən iri məmurlara borcludurlar, yaxud faktiki olaraq elə həmin iri məmurların bizneslərinin qanuni, "kağız üzərindəki" təmsilçiləridir?

Göründüyü kimi suallar çoxdur, cavab tapmaq isə belə görünür o qədər də asan deyil.

Lakin hər halda aidiyyatı qurumlar Azərbaycanda milyonluq avtomobillərin, villaların və s. alınıb-satıldığı halda niyə bir nəfər rəsmi milyonçumuzun olmadığına aydınlıq gətirməlidir ki, biz də rahatlaşaq.

Yoxsa adamın pisinə gəlir ki, küçələrdə milyonluq maşınlar şütüsün, elan saytlarını çoxmilyonluq mülklər, villalar bəzəsin, ancaq məsələn, "Forbes"in milyonçular siyahısında bir nəfər belə vətəndaşımız olmasın...

***Sənan Mirzə***

# Xalidə Bayramovaya niyə cinayət işi açılmadı...

***"Səbail rayon İcra Hakimiyyəti başçısının 1-ci müavini postundan azad olunmuş Xalidə Bayramovanın hərəkətlərində ən azı vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, vəzifə səlahiyyətlərini aşma kimi cinayət əlamətləri sezilir".***

Bunu modern.az-a açıqlamasında tanınmış vəkil Cavad Cavadov bildirib. Vəkil deyib ki, istintaq istəsəydi, ona cinayət işi açardı: "Biz təbii ki, yalnız mətbuata sızan məlumatları bilirik. Bilinənlərdən belə bəlli olur ki, istintaq istəsəydi, Xalidə xanıma cinayət işi də başlada bilərdi. Amma birinci müavini məhz bu qaydada cəzalandırdılar. Qeyd edim ki, prokurorluğun təqdimat vermək kimi səlahiyyəti vardı. Bu qaydada isə daha yüngül, intizam tənbehilə cəzalandırmaq qərarına gəlinib. Səbəblərini deyə bilmərəm. Amma ola bilər ki, arxasında daha səlahiyyətli və nüfuzlu şəxs dayanır ki, ona cinayət işi açılmadı. İstənilən halda, prokurorluğun hadisəyə reaksiya verməsi və ictimaiyyəti məlumatlandırmasının özü də kifayət qədər müsbət haldır".




C.Cavadov "Prokurorluq haqqında" Qanuna əsasən qeyd edib ki, prokurorluğun təqdimatı ünvanlanan qurum üçün məcburidir:

"Həmin qurum təqdimat əsasında tədbir görüb prokurorluğa məlumat verməlidir. Bu, mütləqdir. Amma cəzalandırılması halına gələndə, ola bilərdi ki, ona sadəcə töhmət verilərdi, xəbərdarlıq edilərdi, aşağı vəzifəyə keçirilərdi. Bu, artıq işəgötürənin, konkret olaraq, Səbail rayon İcra Hakimiyyəti başçısının qərarıdır. Və başçı prokurorluğun təqdimatı ilə verdiyi qərar əsasında Xalidə Bayramovanı vəzifədən azad edib".

Xatırladaq ki, hələ 3 il əvvəl adı 162 saylı məktəbin 14 yaşlı şagirdi Elina Hacıyevanın intiharında hallanan X.Bayramova uzun müddət mətbuatın gündəmindən düşməyib. Həmin vaxt nə qədər etirazlar edilsə də, ona qarşı hansısa tədbir görülməmiş, yalnız icra hakimiyyətində Qəyyumluq Komissiyasındakı vəzifəsindən azad edilmişdi.

Bu dəfə isə X.Bayramova yaxın qohumuna "saxta vaksin sənədi" almaq üçün vəzifəli şəxslərə müraciət edib. Xanım müavinlə bağlı Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparılıb. O, vəzifə səlahiyyətlərindən istifadə edərək, Səbail rayonu ərazisində yerləşən 1 saylı Şəhər Poliklinikasının vəzifəli şəxslərinə zəng edib "COVID-19" xəstəliyi əleyhinə vaksinasiya prosesi ilə əlaqədar yaxın qohumuna peyvənd vurulmadan peyvəndlənmiş şəxs kimi qeydiyyata alınaraq bu barədə tibbi sənədin verilməsini tələb edib. Baş Prokurorluq onun intizam məsuliyyətinə cəlb edilməsi üçün İcra Hakimiyyətinə təqdimat göndərib.

***Gülşən RAUFQIZI***

# Heydər Əliyev ideyalarının Zəfəri



**Ağalar Vəliyev**
**Milli Məclisin deputatı**

***Hadisələrə ən böyük dəyəri zaman özü verir. Bu il dövlət müstəqilliyimizin yenidən bərpa olunmasının 30 illiyi qeyd ediləcək. 30 il zaman baxımından qısa olsa da, uğurların zənginliyi baxımından sanki 100 ilə bərabər yol keçilib. Bu uğurların zirvəsində 30 ilin işğalına son qoyularaq Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, ədalətin bərpası dayanır. Təbii ki, bu uğurumuz da öz növbəsində Azərbaycanın iqtisadi, siyasi, hərbi gücünə, gənclərimizin vətənpərvərlik hisslərinin, torpaq sevgisinin böyüklüyünə, texnoloji proseslərin inkişafına əsaslanır.***

Azərbaycanın bugünündən sabahına, müstəqilliyimizin ilk illərinə baxdıqca müstəqillik yolumuzun heç də hamar olmadığını görürük. Azərbaycanın XX əsrin əvvəllərində qazandığı müstəqilliyin ömrü obyektiv səbəblərdən qısa olsa da, bu, xalqımızın istəklərinə mane olmadı, əksinə, müstəqil, azad yaşamaq, öz təbii sərvətlərinin əsl sahibinə çevrilmək, müstəqil dövlət kimi dünyaya özünü təqdim etmək arzuları daha da alovlandı və nəhayət, 1991-ci il oktyabrın 18-də Müstəqillik Aktının imzalanması ilə dövlət müstəqilliyimiz yenidən bərpa edildi. Bu, xalqımız üçün böyük sevinc, xoşbəxtlik idi. Amma təəssüflər olsun ki, bu sevinc uzun sürmədi. Həmin illərdə ölkəmizə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətlərinin yoxluğu, ölkə daxilində gedən xoşagəlməz proseslər, siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə Azərbaycanın müstəqil yaşamasını sual altına qoymuşdur. O vaxt hakimiyyətdə olan AXC-Müsavat cütlüyü ancaq öz maraqlarını güdürdü. Həmin dövrdə hakimiyyətə gəlmiş təsadüfi adamları eynən Ermənistanda 2018-ci ildə hakimiyyətə gələn insanlarla əkiz qardaş kimi dəyərləndirən dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, təcrübəsiz, biliksiz, mədəniyyətsiz, səriştəsiz, qorxaq, fərari insanlar Azərbaycanı idarə edirdilər. Belə insanlara xalq tərəfindən inam ola bilərdimi? Ölkə tamamilə idarəolunmaz vəziyyətdə idi. Hakimiyyətə qanunsuz yollarla gəlmiş AXC-Müsavat cütlüyü ölkəni talayır, dağıdırdı. Xalqın sabaha ümidləri tamamilə itirdi.

Qeyd edək ki, 1992-ci il noyabr ayının gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdığı səbəbsiz qeyd edilmir. Bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, milyonların partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının yaradılması ilə Azərbaycanın müstəqillik tarixində yeni bir səhifə açıldı. Həmin dövrdə xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi olaraq 91 nəfər ziyalının dahi şəxsiyyət Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı müraciətində dövrün reallıqları daha geniş şəkildə əksini tapmışdır. Belə çətin vəziyyətdə Azərbaycanı xilas edəcək yeganə şəxsin Heydər Əliyev olduğu bildirilirdi. Ümummilli Lider Azərbaycanın dövlət müstəqilliyini tarixi nailiyyətimiz kimi dəyərləndirərək, belə bir partiya yarandığı təqdirdə Azərbaycanın demokratik inkişafına böyük töhfə verə biləcəyini, bu partiya yaranarsa ona rəhbərlik etməyə hazır olduğunu bildirmişdir. Beləliklə, 1992-ci il noyabrın 21-i Azərbaycanın tarixinə çox mühüm hadisə kimi yazıldı. 1992-ci il noyabr ayının 21 -də təsis konfransını müxtəlif regonlardan olan 550 nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyası çox qısa zamanda milyonların partiyasına çevrildi. Hazırda sıralarında 760 mindən artıq üzvü birləşdirir. Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı. Artıq həm ölkəmizin, həm Yeni Azərbaycan Partiyasının həyatında yeni bir mərhələnin əsası qoyuldu. "Biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər. Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın" söyləyən cənab İlham Əliyev bildirir ki, əsl müstəqillik tariximiz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki ona qədər müstəqillik sözdə var idi, amma faktiki olaraq yox idi. Azərbaycan müstəqil siyasət apara, öz hüdudlarını qoruya, beynəlxalq aləmdə öz sözünü deyə bilirdimi? Əsla, yox. Müstəqillik yalnız atributları ilə ölçülmür. Müstəqillik müstəqil siyasət aparmaq, öz sözünü demək bacarığıdır. Necə ki, Azərbaycan 30 ilə yaxın dövrdə müstəqil siyasətindən, ədaləti mövqeyindən bir addım belə geri çəkilmədi. Ümummilli Lider Heydər Əliyev uğurlu siyasəti nəticəsində Azərbaycanın ətrafında yaradılan informasiya blokadasını yardı. 44 günlük İkinci Qarabağ müharibəsi kimi, Azərbaycanın 30 ilə yaxın müstəqillik tarixi də həqiqət anıdır. Bu baxımdan ki, Azərbaycan hansı dövlətin münasibətində səmimi, yaxud ikili siyasət apardığını görür və təhlil edir. Möhtərəm Prezidentimiz İlham Əliyev , eyni zamanda, bu çağırışı da edir ki, o dövrü bilməyən gənc nəsil bilməlidir ki, nəyin bahasına biz müstəqilliyi qoruyub saxlaya bilmişik. Kimə biz borcluyuq. Əgər Heydər Əliyev o vaxt hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət kimi, bir yarımmüstəmləkə kimi yaşaya bilərdi.

Heydər Əliyev yolu Azərbaynı bu bəlalardan xilas etdi. Hər bir ölkənin inkişafında sabitliyin, iqtisadi tərəqqinin əsas rol oynadığını önə çəkən ulu öndər Heydər Əliyev iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verdi. Ümummilli Liderin gərgin səyləri nəticəsində 1994-cü il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı. Ulu Öndərin müəllifi olduğu neft strategiyasının uğurları göz önündədir. Azərbaycan enerji layihələrinin uğurlu icrası ilə regional inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrildi. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atıldı.

Müharibə şəraitində yaşayan ölkə üçün diplomatik mübarizədə qələbə, eyni zamanda ordu quruculuğu xüsusi rol oynayır. Azərbaycan diplomatiyası uzun illərdir erməni yalanlarının ifşası istiqamətində ciddi addımlar atır və müsbət nəticələr əldə edilib. Baxmayaraq ki, münaqişənin həlli üçün möhkəm hüquqi baza yaradılmışdır, bu sənədlər illərdir kağız üzərində saralır. 1993-2003-cü illəri tarixinə dirçəliş, inkişaf, tərəqqi dövrü kimi yazan Azərbaycan Heydər Əliyev yolunun işığında daha böyük uğurlara imza atır, zirvələri fəth edir. Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin əsası kimi qəbul edilən Heydər Əliyev ideyaları yeni prioritetlərin müəyyənləşdirilməsində stimulverici amil rolunu oynayır. Əbəs yerə deyilmir ki, müasir müstəqil Azərbaycan dahi şəxsiyyət Heydər Əliyevin şah əsəridir. Nə qədər müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaqdır.

Xalqımız 2003-cü ildə Heydər Əliyev siyasətinin davamına səs verərək, cənab İlham Əliyevi Prezident seçdi. Dövlətimizin başçısı andiçmə mərasimində bir daha bildirdi ki, Azərbaycanın daha güclü, qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasəti davam etdirilməlidir. Son 17 ilin uğurları bu vədin konkret əməli işdə öz təsdiqini tapdığını göstərir. Ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, milyonların partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayında "Həyat onu göstərdi ki, biz son 17 il ərzində doğrudan da tarixi uğurlara imza atdıq. Bu dövrü xarakterizə etmək üçün çox vaxt lazımdır" söyləyən ölkə Prezidenti İlham Əliyev bildirdi ki, hər şey göz qabağındadır: "Əminəm ki, bizim tarixçilərimiz, politoloqlarımız, alimlərimiz bu dövrü də məqalələrdə, kitablarda, dərsliklərdə düzgün əks etdirəcəklər. Çünki bu, gənc ölkəmizin yeni dövrü idi, əvvəlki dövrə əsaslanmış, o möhkəm təmələ əsaslanmış, amma yeni dövrüdür. Çünki bu da təbiidir. Çünki hər dövrün öz tələbləri var. Biz 1990-cı illərin tələbləri ilə XXI əsrdə yaşaya bilmərik. Hətta bu gün müharibədən sonra yeni dövr başlayır. Əvvəlki dövrlərdə əldə edilmiş bütün uğurları biz kənara qoymalıyıq. Bəli, bu, bizim üçün fundament yaratdı, baza yaratdı, imkan yaratdı ki, biz əsas məqsədimizə çataq. Ancaq əgər biz oturub bütün günü o dövr haqqında danışsaq, gələcək haqqında düşünməsək, onda nə olacaq. Biz gələcək haqqında düşünməliyik. Biz zamanı qabaqlamalıyıq."

2003-2020-ci illəri torpaqlarımızın işğaldan azad edilməsi üçün hazırlıq dövrü kimi də xarakterizə edə bilərik. Azərbaycanın iqtisadi, siyasi, hərbi gücü sayəsində Zəfər günümüzü yazdıq. Ərazi bütövlüyümüz bərpa edildi, 30 ilin işğalına son qoyuldu. Şanlı Qələbəmiz qürur mənbəyimizdir. Bu gün bizim Qələbəmiz dünyanın aparıcı ölkələrinin aparıcı ali məktəblərində öyrənilir. Azərbaycan xalqı birlik, həmrəylik göstərdi. Azərbaycan Ordusu rəşadət, qəhrəmanlıq, peşəkarlıq göstərdi. Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub öz tarixi torpaqlarını işğalçılardan azad etdi.

Döyüş bacarığı, hazırlığı, mübarizliyi ilə dünyanın hərb tarixinə yeni səhifə yazan Azərbaycan Ordusu ulu öndər Heydər Əliyevin "Biz hərb istəmirik, amma hərbə hazırıq" sözlərini reallaşdırdı. 2003-cü ildə ilk dəfə Prezident kimi and içən, " Azərbaycanda ordu quruculuğu daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır" sözlərinin doğruluğunu 30 il Ermənistanın işğalı altında qalan torpaqlarımızı azad etməklə təsdiq edən Ali Baş Komandan İlham Əliyev Füzulidə, Cəbrayılda, Ağdamda, Xudafərində üçrəngli bayrağımızı dalğalandırmaqla sözünün sahibi olduğunu bir daha göstərdi. Azərbaycan Ordusunun uğurları Prezident, Ali Baş Komandan İlham Əliyevin 17 illik gərgin siyasi-diplomatik səylərinin, dövlətçilik təcrübəsinin, torpağına bağlılığının, əsgər və zabitlərimizin ruh yüksəkliyinin, xalq-ordu birliyinin məntiqi nəticəsidir. "Şuşasız bizim işimiz yarımçıq olar" söyləyən Ali Baş Komandan İlham Əliyev ulu babalarımızın əmanətini xalqımıza qaytarmaqla ulu öndər Heydər Əliyevin vəsiyyətini də yerinə yetirdi.

Azərbaycan Ordusunun hərbi əməliyyatlar nəticəsində qazandığı uğurlar faşist xislətli Ermənistanın son iki əsrdə azərbaycanlılara qarşı apardığı soyqırımlara, siyasi, hərbi, ekoloji terrorlara cavabdır. Düşmən üzərində tam qələbəmizin müjdəsi olan Şuşanın işğaldan azad olunması Azərbaycan Ordusunun yenilməzliyini bütün dünyaya bəyan etdi. Bu qələbə, ordumuzun zəfər sevinci xalqımızın müzəffər sərkərdə Prezident İlham Əliyevin ətrafında "dəmir yumruq" kimi birləşməsinin ifadəsi idi. Təsadüfi deyil ki, ordumuzun döyüş əməliyyatları XXI əsrdə müharibə aparılması nümunəsi adlandırılır. Modernləşdirilən, ən müasir texnika ilə təmin olunan Azərbaycan Ordusu "Qlobal atəş gücü" indeksi üzrə 64-cü yerdə qərarlaşaraq, siyahının 111-ci sırasında yerləşən Ermənistanı qabaqlayır.

Qısa təhlil Heydər Əliyev siyasətinin uğurlarının miqyasının nə qədər geniş olduğunu nümayiş etdirir. Azərbaycan daim möhkəm təməl üzərində qurulan binaya bənzədilir. Binanın mərtəbələrinin sayı artdıqca möhtəşəmliyi daha aydın görünür. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, dahi şəxsiyyət Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və son 17 ili Azərbaycanın çoxəsrlik tarixinə qələbələr ili kimi yazıb. Bunu şərtləndirən amil sözlə əməl birliyi, atdığı hər addımda xalqına güvənməsi və onlar üçün çalışmasıdır. Məhz bu möhkəm təmələ söykənərək dövlətimizin başçısı İlham Əliyev bildirir ki, İkinci Qarabağ müharibəsində Zəfərimiz bölgədə və ölkəmizdə tamamilə yeni geosiyasi vəziyyət yaradıb. Bütün addımlarımızı düzgün atmalıyıq ki, daim qələbə qazanaq, Azərbaycan bayrağı daim yüksəklərdə olsun. Müstəqillik bizim ən böyük sərvətimiz, ən böyük dəyərimizdir.

# Nazirlikdən Arif Quliyevlə bağlı NEKROLOQ



***Mədəniyyət Nazirliyi Xalq artisti Arif Quliyevin vəfatı ilə bağlı nekroloq yayıb. "Unikal"ın məlumatına görə, nekroloqda bildirilib:***

Azərbaycanın mədəniyyət ictimaiyyətinə ağır itki üz verib. Tanınmış teatr və kino aktyoru, Xalq artisti, Prezident təqaüdçüsü Arif Quliyev 2021-ci il mayın 7-də, ömrünün 71-ci ilində vəfat edib.

Arif Əli oğlu Quliyev 1950-ci il mayın 16-da indiki Şirvan şəhərində anadan olub. 1965-1968-ci illərdə Bakı Mədəni-Maarif Texnikumunun Dram və kino aktyorluğu fakültəsində, 1973-1975-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Musiqili komediya aktyorluğu fakültəsində təhsil alıb.

Əmək fəaliyyətinə 1965-ci ildə Mingəçevir Dövlət Dram Teatrında aktyor kimi başlayan Arif Quliyev 1975-ci ildə Musiqili Komediya Teatrına dəvət edilib. Bu teatrın səhnəsində müxtəlif xarakterli obrazlar yaradıb. Onun "Təzə gəlin"də (S.Dağlı, C.Cahangirov) Şərbətəli, "Gözün aydın"da (F.Əmirov, M.Əlizadə) Salyanski, "Durna"da (S.Rüstəmov, S.Rüstəmov) Dursun, "Gurultulu məhəbbət"də (S.Ələsgərov, S.Qədirzadə) Mürsəl, "Özümüz bilərik"də (Ş.Qurbanov, S.Ələsgərov) İbişov, "Hicran"da (S.Rəhman, E.Sabitoğlu) Dursunov, "Ev bizim, sirr bizim"də (Ş.Axundova, N.Gəncəli) Tofiq, "Məşədi İbad"da (Ü.Hacıbəyli) Hambal, "Durnalar qayıdanda" tamaşasında (Hidayət) Mirzəqulu, "Məhəbbət, şeytan və ağ ölüm"də (M.Haqverdiyev) Səbzəli və s. canlandırdığı obrazlar tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Aktyorun "Şans", "Bığ əhvalatı", "Qayınana", "Lift əhvalatı", "Yarım ştat", "Evləri köndələn yar" və digər teletamaşalarda yaratdığı rollar da sənətkara böyük tamaşaçı rəğbəti qazandırıb.

Arif Quliyevin "Bəyin oğurlanması", "Yaramaz", "Bəxt üzüyü", "O dünyadan salam", "Qəm pəncərəsi", "Mənim ağ şəhərim", "Alma almaya bənzər", "Ağ gəmi" bədii filmlərindəki obrazları onun yaradıcılıq potensialının zənginliyini ifadə edir.

Müxtəlif teatrlarda çalışan sənətkarın yaradıcılığı qiymətləndirilib, 1989-cu ildə "Əməkdar artist", 1993-cü ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb. "Humay", "Qızıl dərviş" mükafatları və "Sənətkar" medalı ilə təltif olunan aktyor Prezidentin fərdi təqaüdçüsü idi.

Tanınmış aktyor, səmimi insan Arif Quliyevin əziz xatirəsi doğmalarının, sənət dostları və tamaşaçıların yaddaşında əbədi yaşayacaq.

Allah rəhmət eləsin.

# Ağdaşda dəzgah fəhlənin qolunu qopardı



***Mayın 6-da saat 15 radələrində Ağdaş rayonu, Qarağan kəndi ərazisində yerləşən sexdə fəhlə işləyən İlkin Məcidovun xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Ağdaş rayon prokurorluğundan "Unikal"az-a verilən məlumata görə, araşdırmalarla müəyyən edilib ki, İlkin Məcidov məişət tullantılarının emalı və plastik məmulatları sexində işlək vəziyyətdə olan dəzgaha müdaxilə edərkən sol qolunun amputasiyası ilə nəticələnmiş xəsarət alıb.

Faktla bağlı Ağdaş rayon prokurorluğunda Cinayət Məcəlləsinin 162.1-ci (texniki təhlükəsizlik və əmək mühafizəsinin başqa qaydalarının pozulması) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə istintaq aparılır.

# "İcra başçısı mənə süpürgəçi işləməyi təklif etdi" - Qəhrəman zabit






***Pirallahı rayon İcra Hakimiyyətinin başçısı Vətən müharibəsinin iştirakçısı olan zabitə süpürgəçi işləməyi təklif edib.***

"Unikal" xəbər verir ki, bu barədə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "şuşanın azad olunmasına görə" medalları ilə təltif olunan taqım komandiri, baş leytenant İqbal Səfərovun özü məlumat verib.

O, qeyd edib ki, Vətən müharibəsindəki qələbədən sonra ordudan tərxis olunub. İcra hakimiyyətindən iş istəməsə də, ona icra hakimiyyətində öncə şöbə müdiri vəzifəsi, sonra isə. süpürgəçi "vəzifəsi" təklif edilib. Qəhrəman zabit küçələri təmizləmək "şərəfini" ona verdiyi üçün icra başçısından Ali Baş Komandana şikayət edəcəyini bildirib.

"Müxtəlif tarixlərdə Pirallahı rayon İcra başçısı Vasif İmanovla iki dəfə şəxsən görüşmüşəm. İlk görüşümüz Xəzər rayon Hərbi Səfərbərlik İdarəsinin məni çağırıb, icra hakimiyyətində yeni yaradılan Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsində şöbə rəisi kimi mənə iş təklifi etməsindən sonra baş verib. Tam səmimi şəkildə qeyd edim ki, hər iki görüşümüzdə cənab başçı həqiqətən məni yüksək şəkildə qəbul edib. Məni Fəxri Fərmanla təltif etdi, şəkillər çəkdirdik",-deyə İ.Səfərov bildirib.

İkinci Qarabağ müharibəsində qəhrəmancasına döyüşən zabit qeyd edib ki, rayondan döyüşlərdə cəmi iki zabit komandir kimi iştirak edib: "Biri mənəm, Allahın qisməti sağ qayıtmışam, digəri isə haqqı rəhmətinə qovuşub, şəhidlik məqamındadır. Allah rəhmət eləsin qardaşıma!

Cənab Prezidentin Sərəncamına əsasən, sözü gedən şöbəyə yerli sakinlərdən və ən əsası döyüşlərdə iştirak etmiş komandir heyətindən bir nəfəri şöbə rəisi kimi təyin etmək gərəkdiyini mənə Hərbi Səfərbərlik İdarəsi bildirəndə, mən də bununla şərəf duyacağımı demişdim. Həm də başqa namizəd yox idi, tək mən idim. Bu işi həm təklif, həm də xahiş etmişdilər.

Yaxın günlərdə Pirallahı rayon icra başçısı Vasif İmanov tərəfindən başqa rayondan olan bir qardaşımız mən rayonda ola-ola müvafiq şöbəyə rəis təyin edildi. Eybi yox, buna bir söz demirəm. Problemim yeni təyin olunan şəxslə bağlı deyil. Ola bilər, məndən daha savadlı, daha qabiliyyətli, daha münasib şəxsdir ki, mən burda ola-ola onu başqa rayondan gətirdilər. Ona bu şərəfli, məsuliyyətli işdə uğur arzu edirəm, yolu açıq olsun.

Ali təhsilliyəm, iki diplomum var, xarici dil bilirəm, ATƏT-dən, İngiltərədən, Amerikadan sertifikatlarım, Vətən müharibəsinin iştirakçısı olaraq medallarım var. Bu özü Prezidentimiz tərəfindən bizlərə ayrı bir diqqətdir. Medal üçün getməmişdik ki, amma diqqət ayrı şeydir!".

İ.Səfərov bildirib ki, mayın 5-də icra başçısı tərəfindən ona rayonda süpürgəçi işləmək təklif edilib: "Cənab başçı, mənə küçədə süpürgəçilik işini hansı əsaslarla rəva bilirsiz? Yəqin, sənədlərimə baxıb son nəticə olaraq qərar verdiniz ki, mənim yerim Cənab Prezidentin Sərəncamı ilə yaradılan yeni şöbə yox, məhz küçələrdir. Anlamaqda çətinlik çəkirəm. Anlayan varsa, mənə də izah etsin, mən də anlayım. Bu nə deməkdir? Nəyə əsaslanıb qərara gəldiniz ki, məhz mən buna layiqəm. Yoxsa, mədəni üslubda bizi təhqir etdiyinizin fərqində deyilsiniz? Ola bilər ki, həqiqətən fərqində olmamısınız. Siz o qədər əminsiniz ki, özünüzdən məni bu yolla, üzümə gülə-gülə təhqir edirsiniz? Döyüşçüyə, zabitə, komandirə süpürgəni necə rəva bilirsən? Axı, bizlər bu çətin imtahanı canımızla vermişik. Ayıb deyilmi sizcə də? Bizlərin əli silah tutub, çox şükür 30 ilin həsrətini canlarımızla ödəyərək son vermişik.

Paltarlarımız qan içində evlərimizə dönmüşük. Aylarla xəstə yatmışam, bəlkə bir dəfə qapımızı açmısınız? Bəlkə hansısa bir müalicəmizdə köməklik göstərmisiniz? Mənim sol qolum, sağ ayağım hələ də hərəkət çətinliyi çəkir. Bəlkə bircə dəfə olsun ağzımı açıb ya sizdən, ya hansısa bir qurumdan köməklik istəmişəm?

Axı, mən bunu niyə etməliyəm ki, şükürlər olsun, müalicəmə öz imkanım çatır. Amma bəs imkanım çatmasaydı, halım necə olacaqdı? Nə olardı ki, bizim də qapılarımız açıla, bizlə də maraqlanalar... Axı biz də bu Vətənin övladlarıyıq. Bu tarixi, şanlı qələbəmizi ucuzlaşdırmayaq. I?nsan bir baxar, ən azından nəyi, kimə təklif etdiyinə. Olmaz belə cənab başçı, olmaz! Biz bu Vətənin keşikçiləriyik. Vətənimi qoruduğum kimi yeri gələr süpürərəm də... Həm də sevəsevə edərəm. Amma bunun üçün sizin köməyiniz gərəkmir. Bu işi tapmaq elə də çətin deyil".

İ.Səfərov Prezidentə şikayət edəcəyini bildirib: "Necə ki döyüşlərdə bizi tək buraxmadı, Komandirlik etdi, əl-ələ verdik, qələbə qazandıq, eləcə də indi bizi bu və bu kimi hallarda öz taleyimizlə baş-başa, tək buraxmasın. Döyüşçüyəm, zabitəm, zabit şərəfim var. Komandirəm və öz komandirimə şikayət edirəm. İnciməyin, cənab başçı!".

# "Binaları yuyanda nazirləri də görürdük, bizə..." - "Hörümçək adam"

***Bakıda tez-tez qarşılaşdığımız çoxmərtəbəli şüşə binalar göz oxşayır. Daha çox rəsmi dövlət qurumları, otellər və böyük şirkətlərə məxsus binaların bir də təmizlik məsələsi var. Müxtəlif dizaynda inşa edilən bu göydələnləri təmizləmək elə də asan deyil.***

Lent.az-ın budəfəki həmsöhbəti uzun illərdi bizlərin baxanda belə az qala gözümüz qaraldığı həmin o binaların ən yüksək mərtəbələrində gördüyü, şahidi olduğu hadisələrlə birgə, yaşadığı çətinliklərdən də danışacaq. Adı Emil, necə deyərlər, "Hörümçək adam"...

**İlk dəfə təmizlik şirkətlərinin birində süpürgəçi işləyib, Emil. Aldığı məvacib onu qane etmədiyindən, yeni, fərqli sahələrdə özünü sınayıb. Hündürlük mütəxəssisi olana qədər çalışmadığı sahə, öyrənmədiyi sənət qalmayıb:**

- Tatu ustası, fotoqraf, montajçı, videoqraf, gitaraçı... Heç birində ürəyim istəyən alınmadı. Elə o ərəfələr çoxmərtəbəli binaları təmizləməyə başlamışdım artıq. Ailəmin mənim qazancıma ehtiyacı olmasa da, işləmək, normal qazanmaq istəyirdim. Nə qədər çalışırdım, alınmırdı. Atam, ailəm məni heç vaxt sevmədiyim, istəmədiyim işdə çalışmağa məcbur etməyib. Ona görə, bu qədər yerdə özümü sınaya bildim. Bilirdim ki, haradasa alınacaq, hansındasa özümü tapacam.

**Sınaq mərhələsində təmizlədiyi ilk çoxmərtəbəli bina Bakı Biznes Mərkəzi, işə qəbul edildikdən sonra təmizlədiyi birinci bina isə Mərkəzi Bank olur:**

"Təmizlik şirkətində işləyəndə bir çox dövlət binaları, özəl şirkətlər, otellərə məxsus çoxmərtəbəli binaların şüşələrini təmizləmişik. Hərəsində bir maraqlı hadisə ilə qarşılaşırdıq. Dövlət binalarının şüşələrini yuyanda nazirləri belə görürdük - Sahil Babayevi, Ziya Məmmədovu, Misir Mərdanovu... Bəziləri bizə yaxşı bəxşiş də verirdi."

**Bir müddətdən sonra yoldaşlarından ayrılan "Hörümçək adam" tək işləmək qərarına gəlir:**

"Tək işlədiyim vaxtlarda avadanlıqlarım həmişə zəif olurdu. İp hər il dəyişilməli idi, amma 6 ili eyni iplə, 10 ili eyni təchizatla işlədim. Ayda 200 manat qazanırdımsa, necə dəyişə bilərdim? Orda artıq hündürlüyə çıxanda deyirdim ki, indi düşəcəm, bir azdan düşəcəm".

İşində xeyli uğur qazanan müsahibimin hazırda özünün təmizlik şirkəti var: "Bu işi qurmaq üçün riskə getdim, yüksək məbləğdə kredit götürdüm. Avadanlıqlar çox bahadır. Əvvəl bir nəfər işçi götürdüm, binaları ikimiz yuyurduq. Son 6 aydır özüm sadəcə rəhbərlik edirəm."



**İşin maddi tərəfi ilə maraqlandıqda Emil bəy ürəkli danışır. İşçilərinin maaşını 500 manatdan 1000 manata qaldırıb:**

"Biz də belə sistem yoxdur. Türkiyədə belədir və yaxşı üsuldur. İşçilər həvəslənir. Mən bunun əziyyətini çox çəkmişəm. İstəyirəm, komandam ən yaxşı olsun."

**Bu iş üçün tələb olunan ən vacib məqam isə hündürlük qorxusuna qalib gəlməkdir:**

- İşçilərdə yaş, çəki məhdudiyyəti yoxdur, amma uzun və arıq olmaq üstünlükdür. Ağıq çəkili adam çətinlik çəkir, cəld hərəkət edə bilmir. Bu iş cəldliyi sevir. Yuxarıdan aşağı hamı eyni vaxtda düşməlidir. Biri gecikəndə, digərinin yuduğu şüşə batır. Boyu balaca olmaq çətinlik yaradır."

**İşçilərin maddi təminatına və təhlükəsizliyinə həssas yanaşsa da, peşə prinsiplərində ciddidir:**

"İşi bilməyəni götürmərəm. Bu riskdir! Ən azı iki-üç il təcrübəsi olmalıdır. İş yerlərində təcrübə tələb edənlərin əleyhinəyəm, amma bu iş o işdən deyil. Bir balaca ehtiyatsızlıq və ya naşılıq olsa, ağır nəticələnə bilər. Əslində, mənə təcrübəsiz adam sərf edir, maaş baxımından. Amma bu riskdir və mən o riskə heç vaxt getmirəm. İşçinin sertifikatı var, kurs bitirib və hündürlükdə işləmək hüququ verilib. O zaman məsuliyyət məndən çıxır, çünki adam artıq peşəkardır".

İşçilərin təhlükəsizliyini isə ən yaxşı avadanlıqlarla təmin etmək mümkündür. Elə aidiyyatı dövlət müəssisələri də şirkət rəhbərlərindən ilk olaraq bunları tələb edir: "Avadanlıqlar istehsal edildiyi firmaya və qiymətə görə dəyişir. Elə firma var çox keyfiyyətli istehsal edir, qiymət də yüksəkdir. Elə firma var qiymət normaldır, zəmanəti də etibarlıdır. On il orta təminatlı avadanlıqla işləmişəm. Heç nə olmayıb. Bizim bağlandığımız iplərə 2 maşını bağlayıb dartmaq mümkündür. İçərisində bir neçə qat "tros" var. Təhlükə yalnız səhv bağlayanda, ya kimsə bilə-bilə kəsəndə, yaxud da avadanlıqda başqa nəyisə səhv edəndə ola bilər. İpin qırılması mümkün deyil. İkili iplə qoşuluruq. Birinə nəsə olsa, o biri insanı saxlayır. Ağırlıq saxlama gücü yarım tondur. Yuxarıda 50 kiloluq insan aşağıda 200 kilo ola bilir. Aşağı düşdükcə çəki artır. Ona görə də hər il avadanlıq dəyişilir. Gündə və ayda 15-20 dəfə işlənən ip ildə bir dəfə dəyişilməlidir."

İş prosesi də maraqlıdır. Yuyulacaq binaya yerində baxış keçirilir. Qiymət kvadrata, şüşənin çirklilik dərəcəsinə görə dəyişir: "Bir də yuyulma vaxtı önəmlidir. Məsələn, min kvadratmetri normalda üç-dörd nəfər ən geci iki günə yuya bilər, amma bir həftəyə qədər də uzana bilər. Binanın nə qədər əlverişli olması, dizaynı da şərtdir. Əlverişsiz binanı yumaq sərf eləmir. Vaxt çox gedir və növbəti şüşəyə keçəndə yuduğun şüşələr yenidən çirklənir. Bu, qiymətə təsir edir."

"Hörümçək adam"ın qalxdığı ən hündür bina 50 mərtəbə olub. Yuyulması ən çətin bina isə "SOCAR"ın binası və "Alov qüllələri"dir: "Həm külək tutan yerdir, həm də binanın quruluşu elədir ki, onu yumaq məşəqqətdir!".

Bəzən, yüksək vəzifəli məmurların, məşhur iş adamlarının evlərinin də şüşələrini yumaq ona etibar edilir: "Evi zəngin olmayan vəzifə sahibi yoxdur. Bilirsiniz, çox zənginlik olanda zövq itir. Azərbaycan əsilli dünyaca məşhur iş adamının evində işləyirdik. Evdə xəritə ilə gəzsək də, qapını tapmaq mümkün deyildi. İnsan birinci, ikinci evini zövqlə dizayn edə bilər. Evlər çoxaldıqca artıq absurdlaşmağa başlayır, qəribə fantaziyalar meydana çıxır. Yüksək vəzifəli bir şəxsin evi piramida formasındadır. Ev, həyət Misir piramidaları, Misir allahları ilə doludur. Buna nə ehtiyac var? Bu evlərin içi də, çölü də daşdır. Bildiyiniz muzeydir. Ev evdən çox hər şeyə oxşayır. Təsəvvür edin, muzeydəsiniz. İnsan heç muzeydə rahat oturub çay içə bilərmi?".

***Nigar Adil***



## Əlilliyin təyinilə bağlı imtina səbəbləri nələrdi...

***Əlilliyin təyinilə bağlı imtina səbəblərinə aydınlıq gətirilib. Modern.az-ın məlumatına görə, bu barədə sualı cavablandıran Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) "Sosial saat" verilişində DOST Agentliyinin İdarə Heyəti sədrinin müavini Seymur Alıyev bildirib ki, imtinaların əsas səbəbi prosedura uyğunsuzluqla bağlıdır:***

"Əlilliyin verilməsi üçün prosedur var. Orada həkim protokoluna əsasən müalicənin necə aparılacağı müəyyənləşib. Bizim Tibbi Sosial Ekspert Komissiyasının (TSEK) əməkdaşları yalnız "Forma 88" vasitəsilə gələn məlumatları görür, şəxsin özünü görmür və tanımır. Ona görə də sənəddə nələrsə düzgün doldurulmayıb və düzgün qeyd edilməyibsə, hansısa məlumatlar yetmirsə, ona əlillik verilə bilməz".

Qurum rəsmisi deyib ki, əks təqdirdə, məlumatlar yetərli olmadığı halda, əlillik təyinatı aparan əməkdaşımızın özü məsuliyyət daşıyır: "Burada müddətlər nəzərdə tutulub. Hər bir xəstəliyin özünün müalicə müddəti var. O müalicələr effekt vermədikdə, artıq əlillik barədə rəy verilir".

## Şuşada DOST mərkəzi açılacaq

***"İşğaldan azad edilmiş ərazilərlə bağlı məsələlər dövlət başçısının nəzarətindədir, daim o ərazilərə səfər edir. Bildiyiniz kimi, hazırda ərazinin minalardan təmizlənməsi prosesi gedir. Proses yekunlaşdıqdan sonra bütün qurumlar öz fəaliyyətini bərpa etməyə başlayacaq".***

"Unikal"ın məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) "Sosial saat" verilişində DOST Agentliyinin İdarə Heyəti sədrinin müavini Seymur Alıyev bildirib.

S.Alıyevin sözlərinə görə, bununla bağlı dövlətimizin geniş planı var: "Həmçinin, biz də həmin plana uyğun olaraq, ya Cəbrayıl, ya Füzulidə böyük regional mərkəzin yaradılmasını nəzərdə tutmuşuq. Həmçinin, Şuşada DOST filialının açılmasını planlaşdırırıq".

## Hökməli bələdiyyəsinin işçisi cəzalandırıldı

***Polis orqanları tərəfindən sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə tədbirlər davam etdirilir.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.

Mayın 5-də Abşeron Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən 28 May qəsəbəsində keçirilən belə tədbir zamanı E.Müslümov küçəsində sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması faktı aşkar edilib.

İnzibati Xətalar Məcəlləsinin 271-ci maddəsinin (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) tələblərini pozduğuna görə Hökməli bələdiyyəsinin işçisi X.Eyvazov barəsində protokol tərtib edilərək inzibati tənbeh tədbiri tətbiq olunub.

Həmçinin qısa müddətdə həmin ərazinin təmizlənməsi təmin edilib.

Bu istiqamətdə tədbirlər davam etdirilir.



## Ermənistanda vəkil Nikol Paşinyanı məhkəməyə verdi

***Ermənistanda vəkil kimi çalışan Tiqran Atanesyan ölkənin baş nazir vəzifəsini icra edən Nikol Paşinyanı məhkəməyə verib.***

"Report"un məlumatına görə, bu barədə "Datalex" məhkəmə informasiya sisteminin saytında bildirilir.

İddia İnzibati Məhkəməyə verilib, sənədi hakim Qriqor Arakelyan imzalayıb.

Vəkil məhkəmədən Nikol Paşinyan hökumətinin istefasını qəbul edən prezident fərmanının 25 aprel tarixində yayımlandıqdan sonra Paşinyanın baş nazir vəzifəsini yerinə yetirməsi üçün qanuni əsasların olmamasını tanımasını tələb edir.

Qeyd edək ki, dünən Ermənistanın sabiq prezidenti Robert Koçaryanın Paşinyana qarşı iddiası əsasında məhkəmə başlayıb.

## Ağ Evin mətbuat katibi vəzifəsindən getməyi planlaşdırır

***Ağ Evin mətbuat katibi Cen Psaki 2022-ci ildə vəzifəsini tərk etmək niyyətindədir.***

Bu barədə "Report" "Mediaite"yə istinadən xəbər verir.

Məlumata görə, o, əvvəlcə təxminən 1 il və ya həmin müddətə bu vəzifədə qalmağı planlaşdırıb.

Bu halda Psaki qeyd edib ki, "qorxmur", əksinə, bu çətinliyi və bir insan olaraq mətbuat katibi olaraq üzərinə götürməli olduğu məsuliyyəti "bəyənir".

Psakinin Co Baydenin və Kamala Harrisin keçid komandasına qoşulması ötən ilin noyabrında məlum olub. O, bir qədər sonra Ağ Evin mətbuat katibi təyin edilib.

Psaki 2009-cu ildən 2011-ci ilə qədər, həmçinin 2013-cü ilin fevralından 2015-ci ilə qədər ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin başçısı olub. O, həmçinin 2015-ci ildən 2017-ci ilə qədər ABŞ-ın o zamankı prezidenti Barak Obamanın kommunikasiyalar üzrə köməkçisi vəzifəsini tutub.

## Avropa İttifaqı çevik hərbi qüvvələr yaradacaq

***Avropa Komissiyası dünyadakı böhranlı vəziyyətlərə qısa zamanda cavab vermək üçün Avropa İttifaqının (Aİ) çevik qüvvələrinin yaradılmasına dair təkliflər hazırlayacaq.***

"Report" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti ali nümayəndəsi Josep Borrell İttifaqın Müdafiə Nazirləri Şurasının iclasından sonra bildirib.

"Biz daha hazırlıqlı olmalıyıq. Böhran vəziyyətində ilkin addımlar ata biləcək çevik hərbi birləşmə yaratmaq fikrinə qayıtdıq. Üzv dövlətlər üçün müvafiq təklif hazırlayacağıq", - deyə diplomat qeyd edib.

# PKK erməni generallarla sövdələşir: İrəvanla terrorçuların gizli danışıqları

***Türkiyənin son vaxtlarda İraqın və Suriyanın şimal bölgələrində həyata keçirdiyi əməliyyatlar nəticəsində ağır zərbələr alaraq xeyli zəifləyən, böyük itkilər verən PKK ("Parti Karkaren Kurdistan") terror təşkilatı Ermənistanla gizli danışıqlar apararaq hava hücumundan müdafiə sistemləri əldə etməyə çalışır.***

"Pençe Kaplan", "Pençe-Şimşek" və "Pençe-Yıldırım" əməliyyatları nəticəsində sığınacaqları, bazaları, anbarları və mövqeləri darmadağın edilən, yüzlərlə mənsubunu itirən PKK terrorçuları Türkiyənin qırıcı-bombardmançı təyyarələrindən, zərbə helikopterlərindən və uçan pilotsuz aparatlardan (PUA) qorunmaq üçün hava hücumundan müdafiə sistemlərinə yiyələnməklə situasiyanı öz xeyrinə dəyişmək niyyətindədir.

PKK funksionerləri bu məqsədlə terrorçu xuntanın "Təhlükəsizlik Şurası"nın katibi, Xocalı soyqırımının qəssablarından biri Vitali Balasanyan, terrorçu xuntanın sabiq "müdafiə naziri", hazırda Ermənistan Müdafiə Nazirliyinin müşaviri olan general-leytenant Cəlal Arutyunyan və terrorçu xuntanın digər sabiq "müdafiə naziri", general Samvel Babayan vardı.

Gizli danışıqlarda PKK mənsubları bildiriblər ki, İraqdakı Qəndil dağındakı əsas bazada, habelə daha 4 məkanda Rusiya istehsalı olan "9K33 Osa" zenit-raket komplekslər yerləşdirmk istəyirlər.

Bese Hozat bildirib ki, Ermənistandan alınacaq "Osa"lar İraqdakı "Həşdi Şəbi" qruplaşmasının xüsusi ayrılacaq qrupları vasitəsilə Ermənistandan İrana keçiriləcək, oradan da İraqın şimalına daşınacaq.

Rəsmi İrəvan PKK terrorçularına "Osa" ZRK-ları satmağa razılıq verib, lakin bu əməliyyatın Rusiyanın icazəsi olmadan həyata keçirilməsinin mümkünsüzlüyünü vurğulayıb.

B.Hozata "Əvvəlcə Rusiyadan icazə alın, sonra işə başlayaq" deyilib. Eyni zamanda, Hozatın nəzərinə o da çatdırılıb ki, Ermənistan PKK-ya Rusiya istehsalı olan "9K38 İqla", "9K338 İqla", "9K333 Verba" daşınan zenit-raket komplekslərini satmğa hazırdır.

Bir müddət sonra isə İraqın müdafiə naziri Cümə İnad Səəduni Xəttabın başçılıq etdiyi nümayəndə heyəti İrəvana səfər edib. 8 nəfərlik nümayəndə heyətinin səfəri əsnasında general Xəttab İrəvanda prezident A.Sarkisyan, baş nazir Nikol Paşinyan və s. şəxslərlə rəsmi görüşlər keçirib, sonra da Ermənistanla İraq arasında hərbi əməkdaşlıq haqqında əməkdaşlıq imzalanıb.

Səfər əsnasında general Xəttab Ermənistanın müdafiə naziri Vaqarşak Harutyunyanla keçirdiyi görüşdə PKK-ya "Osa" ZRK-ların satışı məsələsini də müzakirə edib.

Eyni zamanda general Xəttab erməni həmkarından İkinci Qarabağ Müharibəsi zamanı Türkiyə istehsalı olan döyüş PUA-larının, xüsusilə də "Bayraktar TB2"lərlə bağlı müfəssəl məlumatları istəyib.

Nazirlə növbəti görüş və müzakirələrin Bağdadda keçirilməsi barədə razılığa gəliblər.

PKK-nın Suriyanın şimalında fəaliyyət göstərən bölmələri də HHM sistemləri əldə etməyə çalışırlar. Lakin PKK bu məsələ ilə bağlı Ermənistanla yox, Liviyada maral Xəlifə Xəftarın "administrasiyası" ilə danışıqlar aparır.

Ötən ilin may ayında başlanmış PKK-Xəftər danışıqlarına Birləşmiş Ərəb Əmirliklərinin XİN başçısı Ənvər Qarqaş vasitəçilik edib. "Yaxın Şərqin qara qutusu" kimi tanına Qarqaş PKK-ya maliyyə və hərbi-texniki yardımlar göstərən dövlətlərin "fəaliyyət"lərinin "koordinasiyası" ilə məşğul olur.

PKK-nın Suriyanın şimalındakı bölməsi olan PYD-nin Siyasi Şurasının sədri Elder Halil məhz Ə.Qarqaşın göstərişlərindən və təlimatlarından sonra X.Xəftarın iki müavini ilə danışıqlar aparıb.



Ermənistanla, habelə Liviyada "Milli Silahlı Qüvvələrin ali baş komandanı" marşal Xəlifə Xəftarın yaxın ətrafı ilə danışıqlar aparırlar.

PKK mənsublarının rəsmi İrəvanla həyata keçirdiyi gizli danışıqlarda İranın xüsusi xidmət strukturlarının və kəşfiyyat orqanlarının xüsusi rolu var.

Danışıqlarda İraqdakı "Həşdi Şəbi" silahlı könüllülər qruplaşmasının nümayəndələri də iştirak ediblər.

Xatırladaq ki, "Hədi Şəbi" İranın xüsusi xidmət orqanlarının tam nəzarətində fəaliyyət göstərir.

Gizli danışıqlarda PKK-nın nümayəndə heyətinə əslən Türkiyənin Tunceli vilayətindən olan, "Hülya Oran" kimi tanınan erməni Bese Hozatla "Sozdar Avesta" kod adlı yezidi kürd Nuriye Kesbi rəhbərlik ediblər.

B.Hozat və N.Kesbi PKK-nın Ali Şurasının üzvləridir. Bese Hozat habelə, Murat Karayılanla birlikdə PKK terror təşkilatının həmsədri sayılır.

Nuriye Kesbiyə gəldikdə isə, o, PKK ilə Ermənistandakı yezidi kürd icması arasında "qarşılıqlı əlaqələrin və təmasların təminatına məsul şəxs" kimi tanınır.

Erməni tərəfdən danışıqlara qatılanlar arasında Dağlıq Qarabağdakı

Kürd terrorçular Xəftardan "Pansir-S1" zenit-raket və artilleriya sistemləri istəyiblər.

"Pansir"lərin BƏƏ vasitəçiliyi ilə gizli şəkildə İraqın şimalına, Qəndil dağına daşınacağını vurğulayan E.Halil ZRK-lara görə "ödənişlərin tam həyata keçirilməsi" ilə yanaşı, Liviyada Xəftara dəstək üçün 3 min PKK terrorçusundan ibarət 5 dəstənin də göndəriləcəyini vəd edib.

PKK-nın Liviyadan "Pansir" alması ilə bağlı gizli əməliyyatına Birləşmiş Ərəb Əmirlikləri, Fransa və İraqın müdafiə nazirlikləri ilə kəşfiyyat strukturlarının dəstək verməsi nəzərdə tutulmuşdu.

Rusiya istehsalı olan "Pansir C1"lərdən PKK-ya nə qədər verilməsi ilə bağlı müzakirələr uzun çəkib.

Xatırladaq ki, marşal Xəftar məhz Birləşmiş Ərəb Əmirliklərinin vasitəçiliyi ilə Rusiya istehsalı olan 23 "Pansir C1" əldə etmişdi. BƏƏ bu ZRK-ları Rusiyadan alaraq Xəftara bağışlamışdı.

Xəlifə Xəftar danışıqlar zamanı PKK-ya bol vədlər verib, sonra isə "proses"i oğlu Səddama tapşırıb.

Səddam Xəftar da atasının göstərişi ilə bir neçə dəfə PKK funksionerləri ilə görüşüb, lakin sonda "Liviyada vəziyyət gərginləşib, hava hücumundan müdafiə sistemlərinə ehtiyacımız daha da artıb" deyərək "Pansir"lərin verilməsinin mümkün olmadığını deyib.

Səddam Xəftarın belə "qəfil imtina"sının əsas səbəbləri PKK-ya "Pansir C1"lərin veriləcəyi təqdirdə, Britaniya, Çin və Türkiyənin bu "əməliyyat"a reaksiyalarını həddən ziyadə ağır olacağı idi.

BƏƏ rəhbərliyi mümkün sonucları ehtimal edərək geri çəkilmişdi.

... PKK terror təşkilatı hava hücumundan müdafiə sistemləri əldə etmək üçün gizli danışıqları və sövdələşmələri davam etdirir.

Təbii ki, alqı-satqının gerçəkləşdirilməsini və maliyyələşdirilməsini vəd etmiş hamilərinə güvənərək.

***Elçin Alıoğlu***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Dağlıq Qarabağ həqiqətləri dünyaya çatdırılmalıdır

## Arzu Nağıyev: “Müharibənin hərbi fazası artıq bitib,bundan sonra Azərbaycan informasiya müharibəsində qalibiyyət qazanmalıdır”



***Son aylar ərzində Azərbaycanın işğaldan azad olunmuş rayonlarına çoxsaylı nümayəndə heyətlərinin səfərləri həyata keçirilir. Onların arasında rusiyalı siyasətçilərin və ekspertlərin sayı da az deyil. Bu cür tanışlıq səfərlərinin məqsədlərindən biri də Azərbaycana dəymiş ziyanı xarici ekspertlərə nümayiş etdirmək, onlara erməni vəhşiliyini öz gözləri ilə görmək imkanı yaratmaqdır.***

Ötən həftə Rusiyanın siyasi və ekspert ictimaiyyətinin nümayəndələri Azərbaycanın işğaldan azad olunmuş Ağdam rayonuna səfər ediblər. Səfərdə RF Dövlət Dumasında ”Vahid Rusiya” partiyasını təmsil edən millət vəkili, Təbii Sərvətlər, Mülkiyyət və Torpaq Məsələləri Komitəsinin üzvü Valençuk Oleq Dorianoviç, RF Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyasını təmsil edən millət vəkili, İqtisadi Siyasət, Sənaye, İnnovativ İnkişaf və Sahibkarlıq Komitəsi sədrinin birinci müavini Kalaşnikov Sergey Vyaçeslavoviç, RF Dövlət Dumasının RLDP fraksiyası rəhbərinin müşaviri, İnformasiya və Analitika Departamentinin rəhbəri Voronin Sergey Anatoliyeviç, ”Milli müdafiə” jurnalının baş redaktoru Korotçenko İqor Yuryeviç, Siyasi Tədqiqatlar İnstitutunun direktoru Markov Sergey Aleksandroviç iştirak edib. Rusiyanın siyasi və ekspert ictimaiyyətinin nümayəndələri Azərbaycanın işğaldan azad olunmuş Ağdam rayonuna səfər edərək Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal dövründə dəymiş zərəri öz gözləri ilə əyani surətdə görüblər.

Sergey Markov ermənilərin Ağdamda törətdikləri vandalizmlə bağlı təəssüratlarını da bölüşüb. “Ağdam. Müsəlmanların dini duyğularını təhqir etmək üçün İslamda haram sayılan donuzların uzun illər saxlanıldığı pəyəyə çevrilmiş məscidin yanına boş konyak şüşəsi atılıb”, - deyə o, öz Facebook səhifəsində yazıb. Markov gördüklərini utanverici adlandırıb. “Bunlar xristian deyillər. Biz bu vandallarla ümumi heç nəyimizin olmasını istəmirik”, - deyə politoloq vurğulayıb. O, həmçinin Ağdamda Mədəniyyət Sarayının qalıqları, 200 min nəfərə yaxın rayon və 65 min nəfər şəhər əhalisi olan çiçəklənən şəhər tamamilə dağıdılıb və 25 ildən çox boş qalıb. Sakinlərin hamısı kütləvi qırğınlar və etnik təmizləmələr təhlükəsi altında qaçıb. Və əsrin dörddə biri ərzində Ağdamda heç kəs məskunlaşmayıb”, - deyə yazıb.Politoloq onu da vurğulayıb ki, erməni işğalçıları şəhəri boş saxlayıblar. “Vəhşilik insanı sarsıdır. İnsanlıqdan məyus olmağa başlayırsan. Ümid edirik ki, tezliklə sivilizasiya- Ağdama qayıdacaq”, - deyə o yazıb.

Qeyd edək ki, son aylar ərzində işğaldan azad olunmuş ərazilərə bir neçə səfərlər təşkil olunub. Azərbaycanda fəaliyyət göstərən səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin rəhbərləri fevralın 6-da işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfər edib. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev səfərin məqsədi ilə bağlı qeyd edib ki, Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycanda akkreditə olunmuş səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların rəhbərləri ilə birlikdə işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan bölgələrini ziyarət etmək üçün yola çıxıblar. Onlar ermənilər tərəfindən dağıdılmış qəbiristanlığa baş çəkiblər. Dəfələrlə erməni vandalizminin törətdiyi vəhşiliklər diplomatları dəhşətə gətirib və onların heç bir dəyərə hörmət etmədiyinin bir daha şahidi olublar. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, martın 6-da ölkəmizdəki diplomatik korpusun nümayəndələrinin işğaldan azad olunmuş ərazilərə səfəri təşkil edilib. Səfərin məqsədi Ermənistan silahlı qüvvələrinin qədim yurd yerlərimizdə törətdiyi vəhşiliklər və cinayət əməlləri ilə tanış olmaqdır.

Ekspertlər xarici ölkələrin nümayəndələrinin Dağlıq Qarabağa səfərinin vacib olduğunu söyləyirlər.

Deputat Arzu Nağıyev “Unikal” qəzetinə açıqlamasında bildirib ki, müharibənin hərbi fazası artıq bitib. Bundan sonra Azərbaycan informasiya müharibəsində qalibiyyət qazanmalıdır: “Müharibə arxada qalsa da, işğal dövrünün fəsadları qalmaqdadır. Azərbaycanın bundan sonra görəcəyi iş diplomatik xarakter daşımalı, Dağlıq Qarabağ həqiqətlərini olduğu kimi dünyaya çatdırmaqdır. Bu baxımdan işğalçı dövlətin münaqişə dövründə Azərbaycan torpaqlarında törətdiyi vəhşiliklər dünyaya çatdırılmalıdır. Diplomatik korpusun nümayəndələrinin, attaşelərin işğaldan azad olunmuş torpaqlarımıza səfəri bu baxımdan çox vacibdir. Çünki, Ermənistan hər yerdə haray-həşir salır ki, onlara qarşı haqsızlıq edilir. Hərbi Qənimətlər Parkının açılışı məsələsində də onlar bizim qalibiyyətimizə kölgə salmağa çalışdılar. Amma təbii ki, bunu bacarmadılar. Çünki, Azərbaycan öz torpaqlarının bütövlüyünü təmin edib, işğala son qoyub. Bu baxımdan ölkəmizin bundan sonra görəcəyi iş sırf informasiya müharibəsində həqiqətləri dünyaya çatdırmaqdır. Bu mənada işğaldan azad edilmiş torpaqlarımıza səfərlərin təşkili erməni vəhşiliyini olduğu kimi görməkdə faydası böyükdür. Biz nə qədər desək də, xarici ölkələrin diplomatik nümayəndələrinin, beynəlxalq təşkilatların bu reallığı öz gözləri ilə görməsi daha məqsədəuyğundur. Bu zaman Azərbaycan Dağlıq Qarabağ həqiqətlərini həm də xarici ölkə nümayəndələrinin vasitəsilə dünyaya çatdırmış olur. Artıq bu zaman Dağlıq Qarabağ həqiqətləri bizim dilimizdən yox, həmin şəxslərin vasitəsilə dünyaya çatdırılır”.

A. Nağıyev onu da deyir ki, eyni zamanda Azərbaycan işğaldan azad olunmuş torpaqlarımızda abadlıq-quruculuq işlərini də həyata keçirməlidir. Onun sözlərinə görə, bir sıra kəndlərdə açılışların edilməsi, infrastrukturların təməlinin qoyulması doğrudan da Böyük Qayıdış üçün atılan ilkin addımlardır. A. Nağıyev deyir ki, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən quruculuq işləri hər bir vətəndaş üçün qürurvericidir: “Cəbrayıl rayonunun giriş lövhəsi işğaldan əvvəlki vəziyyətində necə idisə, elə də bərpa edilib. Bu, həm dünyaya, həm də mənfur qonşularımıza mesajdır ki, müharibə aparmaq bacarığımız olduğu kimi, eyni zamanda, infrastrukturun yenidən qurulması və sülhün bərqərar olması da bizim üçün çox mühüm məsələdir. Bu gün işğaldan azad olunan ərazilərdə böyük qayıdış üçün bütün zəruri tədbirlər həyata keçirilir. Yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir. Görülən işlər ən müasir standartlara uyğun həyata keçirilir”.

Deputat bildirir ki, düşmən azad olunmuş torpaqlarımızda abadlıq-quruculuq işlərinə mane olmaq üçün hər cür vasitəyə əl atır. Onların minalanmış ərazilərin xəritəsini gizlətməsi buna sübutdur: “ qarşıda duran ən mühüm vəzifələrdən biri də işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsidir. Ərazilərimizdə çoxlu həm tank, həm nəqliyyat, həm də piyada əleyhinə olan minalar basdırılıb. Təbii ki, bunların hamısının təmizlənməsi üçün müəyyən vaxt lazımdır. Xəritələrin olması burada vacib məqamlardan biridir. Azərbaycan enerji, nəqliyyat və digər xətlərin keçdiyi ərazilərdə minaların təmizlənməsi prosesi ilə məşğuldur. Çox ciddi işlər aparılır. ANAMA bütün gücünü sərf edir. Bundan başqa xaricdən mütəxəssislər cəlb olunur. Bir daha deyirəm ki, burada əsas problem xəritələrin verilməməsidir. Xəritələrin olub-olmaması məsələsinə gəlincə, məlumdur ki, minalar basdırılanda hərbi hissənin məxfi hissəsinə təhvil verilir. Yəni xəritələrin olmaması qeyri-mümkündür. Bu xəritələr mütləq var. Ola bilsin ki, xaotik vəziyyətdə basdırılmış minalar da var. Bu gün dünya ölkələri Ermənistana təzyiqi artırmalıdırlar ki, xəritələri versinlər”.

A.Nağıyev deyir ki, Ermənistan yaranmış reallığı qəbul etməlidir. Onun sözlərinə görə, tarixə “Dəmir yumruq” əməliyyatı adı ilə düşən 44 günlük Vətən müharibəsi regionda yeni reallıqlar yaradıb: “Ermənistan silahlı birləşmələrinin törətdikləri növbəti təxribatların qarşısını almaq məqsədilə Azərbaycan ordusunun ötən ilin sentyabrın 27-dən başladığı əks-hücum əməliyyatları qısa zaman ərzində gücümüzü nəinki düşmənə, bütün dünyaya göstərdi. Artıq Qarabağ münaqişəsi həll olunub və Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Azərbaycan qalib ölkə olaraq gələcəyə baxır və regionda yeni münasibətlərin qurulmasında maraqlıdır” deyə deputat bildirib.

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Şamaxıda dəhşətli hadisə: "Arvadının arxasında gizlənmisən..." - Şok təfərrüat



***Şamaxı şəhərində 1980-ci il təvəllüdlü Xalid Əliyev həmyerlisi Samir Əhmədovu bıçaqlayaraq öldürüb.***

Teleqraf.com-un xəbərinə görə, hadisə ötən il oktyabrın 24-də Şamaxı şəhərində Bakı-Şamaxı-Yevlax avtomobil yolu yaxınlığında baş verib.

Xalid Əliyev hadisədən bir neçə gün əvvəl azyaşlı övladları arasında baş vermiş münaqişə ilə bağlı mobil telefon vasitəsilə apardıqları danışıq zamanı sözlü mübahisəni aydınlaşdırmaq məqsədilə Samir Əhmədov tərəfindən həmin gün, saat 15 radələrində Bəhyəddin Mirzəyev küçəsinin Bakı-Şamaxı-Yevlax avtomobil yolu ilə kəsişməsinə dəvət edilib.

Görüş zamanı Xalid və Samir bir-birilərinin ünvanına nalayiq ifadələr işlədiblər. Xalid yaşadığı evdən götürərək üzərində gəzdirdiyi bıçağın arxa hissəsi ilə Samirin alın nahiyəsinə vurub. O, Samirə bir neçə xəsarət yetirədən sonra evlərinə qayıdıb.

Samir hadisə yerində olan şəxslərin köməkliyi ilə aparıldığı Şamaxı rayon Mərkəzi xəstəxanasında tibbi yardım göstərilməsinə baxmayaraq ölüb.

### "Xırda söz-söhbətlər olub"

İstintaq orqanı tərəfindən Xalidin barəsində Cinayət Məcəlləsinin 126.3-cü (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olma) maddəsi ilə ittiham elan edilib.

Xalid elan olunmuş ittiham üzrə özünü təqsirli bilməyib. O, ifadəsində göstərib ki, 2003-cü ildə ailə həyatı qurub, 2007-ci il təvəllüdlü İlkin, 2009-cu il təvəllüdlü Amil adlı övladı olub: "Mərhum Samir qonşuluqda yaşayıb, eyni zamanda onunla uzaq qohumluq əlaqələrimiz var. Əvvəllər Samir və ya onun ailəsi ilə hər hansı ciddi mübahisəsimiz, ədavətimiz olmayıb.

Azyaşlı övladlarımızın bir-biri ilə mübahisə etmələrinə və dalaşmalarına görə ailələrimiz arasında xırda söz-söhbətlər baş verib. Onları da öz aramızda həll etmişik.

Samir belə mübahisələr zamanı ehtiyac biləcəyi təqdirdə həm öz, həm də onun övladının qulağını bura biləcəyini deyib. Mən də eyni haqqı Samirə vermişəm. Bununla da aramızda hər hansı narazılıq qalmayıb".

### "Oğluma sataşdıqlarını gördüm"

Xalidin sözlərinə görə, 2020-ci ilin oktyabrında, hadisədən 10-15 gün öncə Bakı-Şamaxı-Yevlax avtomobil yolunun kənarında "Mercedes" markalı avtomobilin təkərlərində nasazlıq yarandığını, qonşusu Bəxtiyar adlı şəxsin isə həmin avtomobilin düzəltməyə kömək etdiyini görüb:

"Baş verənlərə baxmaq üçün həmin yerə yolandım. Həmin vaxt iş dalınca göndərdiyim oğlum İlkin "Musa bulağı" adlanan məhəllədən biz olan tərəfə gələrkən Samirin böyük və balaca oğullarının İlkini yolda saxladıqlarını, ona sataşaraq vurduqlarını gördüm.

Buna görə qışqıraraq onlara tərəf getdim. Uşaqlar mübahisə etdikləri üçün onları danladım. İlk öncə öz oğlum İlkinə bir şillə vurdum. Daha sonra Samirin böyük oğlunun çənəsini tutaraq "üzümə bax" dedim, ona da iradımı bildirdim. Bir daha belə hərəkətlərə yol verməməsini tapşırdım".

### "Atasına desəm, yaxşı olmayacaq"

Xalid qeyd edib ki, evdə olmadığı müddətdə Samirin arvadı və övladları onların evinə gəlib:

"Arvadım Amiləyə övladını vurduğuma görə irad tutub və bildirib ki, atasına desəm, yaxşı olmayacaq. Amilə də öz növbəsində ona cavab verdiyi üçün aralarında xırda mübahisə yaranıb. Daha sonra mübahisə sakitləşib. Axşam işdən qayıdanda Amilə mübahisə barədə mənə məlumat verdi. Mən isə bu kimi mübahisələr əvvəllər də baş verdiyi üçün bu məsələni ciddiyə almadım. Əvvəllər olmuş xırda mübahisələrdən biri kimi qəbul etdim".

### "Uşağımı boğmusan, bu sənə baha başa gələcək"

Xalidin sözlərinə görə, oktyabrın 24-də, saat 14.15-də nahar etmək üçün yaşadığı evə gəlib: "Dəstəyi qara rəngli plastmas materialdan olan mətbəx bıçağı ilə ət doğramağa başladım. Arvadım və övladlarım da evdə idi. Ətin bir hissəsini həyətdə manqalda bişirərək övladlarıma verdim. Mənə tanımadığım nömrədən zəng gəldi. Cavab verdikdə zəng edənin qonşumuz Samir olduğunu bildim.

Danışıq zamanı Samir məni təhqir etdi. Bildirdi ki, uşağımı boğmusan, bu sənə baha başa gələcək, çıx tinə. Mən ailə üzvlərimin yanında olduğu üçün "danışarıq, izah edərəm sənə necə olub", - deyərək zəngi sonlandırdım. Arvadım Amilə məndən nə baş verdiyini soruşdu. Zəng edənin Samir olduğunu, övladlarımız arasında baş verən mübahisəyə görə zəng etdiyini və münasibətləri aydınlaşdırmaq üçün məni çölə çağırdığını bildirdim.

Amilə narahat olduğu üçün uşaqlardan birini qonşuluqda yaşayan atam evinə göndərdi və atamı çağırmağı tapşırdı. Bir neçə dəqiqə sonra atam bizə gəldi. Arvadım baş verənləri ona danışdı. Atam söhbəti eşitdikdən sonra çölə çıxdı. Lakin onun hara getdiyini bilmədim. Daha sonra isə əti doğramağa davam etdim".

### "Arvad dalında gizlənmişdin, bir neçə dəfə burdan keçmişik?"

Xalid qeyd edib ki, atası evdən çıxdaqdan 5-7 dəqiqə sonra yenidən mobil telefonuna eyni nömrədən zəng gəlib: "Zəngə cavab verdikdə Samir yenə məni təhqir edərək "Kişisənsə, çıx bayıra" deyə bildirdi. Samirin hədə və söyüşlərindən əsəbləşdim, əti doğramağımı yarımçıq qoydum və evdən çıxdım. Bakı-Şamaxı-Yevlax avtomobil yoluna tərəf getdim.

Yaşadığım evlə Samirin evi eyni küçədə yerləşməklə, demək olar ki, üzbəüzdür. Atamın yaşadığı ev isə həmin küçəyə paralel olan digər küçədə yerləşir. Avtomobil yolunun kənarındaki səki ilə atamgilin məhəlləsinə tərəf getdim. Atamın orada olmadığını görəndə geriyə, evimə tərəf getməyə başladım.

Bu zaman dövlət qeydiyyat nişanını xatırlamadığım "Niva" markalı avtomobil yanımda dayandı. Samir həmin avtomobildən düşərək üzərimə gəldi. Mənə "arvad dalında gizlənmişdin, bir neçə dəfə burdan keçmişik" deyərək yumruqla vurmağa başladı. Cavab olaraq Samirə bir neçə yumruq zərbəsi qaytardım.

Yumruq zərbəsi vurmaq istəyərkən evdə ət doğradığım bıçağın sağ əlimdə olduğunu gördüm. Samirlə telefonda danışdıqdan sonra çox əsəbiləşdiyim və tələsik evdən çıxdığım üçün bıçağın əlimdə olmasına fikir verməmişəm. Hadisə yerinə əlimdə bıçaqla gəldiyimi bilməmişəm. Yalnız Samirə yumruq zərbəsi atanda əlimdə bıçaq olduğunu görmüşəm".

### "Ünvanıma ağır söyüşlər işlətməkdə davam etdi"

Təqsirləndirilən şəxsin ifadəsinə görə, dalaşdıqları vaxt "Niva" markalı avtomobilin sürücüsü, həmçinin yolun qarşı tərəfində tikinti materiallarının satışı mağazasında olan, əvvəllər tanıdığı "Şamo" ləqəbli şəxs onlara yaxınlaşaraq sakitləşdirib:

"O, bizi bir-birimizdən aralamağa çalışdı. Lakin Samir sakitləşmədən mənə hücum edərək ünvanıma ağır söyüşlər işlətməkdə davam etdi. "Şamo" ləqəbli şəxs və "Niva" markalı avtomobilin sürücüsü Samiri bir neçə dəfə məndən aralayaraq kənara aparsalar da, o, yenidən üzərimə hücum etdi.

Samirlə dalaşdığım bütün müddət ərzində bıçaq sağ əlimdə olub. Bıçağı yerə atmaq istəsəm də, Samirin fiziki cəhətdən məndən qüvvəli olduğundan qorxaraq bıçağı özümü müdafiə etmək məqsədilə kənara atmadım".

### "Dedi ki, sən niyə kişilikdən dəm vurursan"

Xalid bildirib ki, dalaşdıqları müddət ərzində Samir ünvanına çox ağır nalayiq ifadələr işlədib: "Atam əvvəl ailə münaqişəsi zəminində bacım Günel Məmmədovanı qəsdən öldürdüyü üçün məhkum olunub. Samir də bunu nəzərdə tutaraq "sən niyə kişilikdən dəm vurursan, sənin bacın əxlaqsız olub, atan sizin qeyrətinizi çəkib, bacının başını kəsib, sən mənə bıçaq vuracaqsan?" - deyərək üzərimə hücum etdi.

Özümü Samirdən qorumaq üçün bıçağı bir neçə dəfə sağ və sol istiqamətə yellədim, onu qorxutmaq istədim. Onunla üzüzə dayanaraq ünvanıma söyüşlər söyməməsini tələb etdim. Samir dizi ilə kəmərdən aşağı nahiyəmə zərbə vurmaq istədi. Bir addım arxaya getdim və həmin an əlimdəki bıçaq Samirin bud nahiyəsinə batdı. Həmin nahiyədən qan gəldiyini gördüm.

Daha sonra qorxduğum üçün hadisə yerindən uzaqlaşdım və evimə qayıtdım. Bir neçə dəqiqədən sonra Samirin ailə üzvləri evimə hücum etdi, küçədən evimi daşlamağa başladılar. Onları qorxutmaq və özümü müdafiə etmək üçün həyətimdə olan baltanı qaldıraraq Samirin qohumlarına nümayiş etdirdim".

### "Qorxduğum üçün evdən çıxa bilmədim"

Xalid bildirib ki, daha sonra etdiyi hərəkətdən peşman olduğu üçün özünə məxsus mobil telefonla əvvəlcə Daxili İşlər Nazirliyinin "102" xidmətinə zəng edib: "Lakin həmin zəng uzun müddət gözləmədə qaldığı üçün "103" xidmətinə zəng edərək hadisə barədə məlumat verdim, təcili tibbi yardım briqadası çağırılmasını xahiş etdim. Operator isə cavabında artıq həmin ünvana təcili tibbi yardım briqadasının göndərildiyini bildirdi.

Samirin qohumları evimin qapısına toplaşdığından qorxduğum üçün evdən çıxaraq təslim olmaq məqsədilə Şamaxı rayon polis şöbəsinə gedə bilmədim. "103" xidmətinə zəngdən təxminən 5-10 dəqiqə sonra polis əməkdaşları evimə gələrək məni şöbəyə apardılar".

Bu cinayət işinə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Faiq Qəniyevin sədrlik etdiyi kollegiyada baxılıb.

Xalid 10 il müddətinə azadlıqdan məhrum edilib.

# Rəhbərlərin risklərin dəyərləndirilməsində etdikləri SƏHVLƏR

***Rəhbərlik və risklər. Mental tələlər.***

Bildiyimiz kimi, hər bir şirkət öz fəaliyyətində mütəmadi olaraq fərqli risklərlə üzləşir. Bu risklər şirkətə hədəflərə çatmaq üçün mane olur. Daha öncə bir müsahibədə risklər haqqında məlumat vermişdim. Rəhbər vacib qərarlar verən zaman riskləri nəzərə almalıdır. Lakin bu həmişə belə olmur. Əsas problemlər hansılardır? Bunlara mental tələlər deyilir.

1. Rəhbər riskləri görmür;

2. Rəhbər riskləri görür, lakin kifayət qədər diqqət vermir və ciddi qəbul etmir;

3. Rəhbər riskləri görür, ciddi olduğunu bilir, lakin onları idarə edə bilmir.

Niyə rəhbər riskləri görmür? Həddindən artıq optimizm.



Bu mental tələdir. Hətta ən böyük pessimistlər belə qeyri-müəyyənliyi lazımi qədər qiymətləndirmir, lazımi qədər ciddiyə almır. İnsan beyni belə işləyir.

Təcrübə. Əslində təcrübəli rəhbər daha düzgün qərarlar verir, nəinki təcrübəsiz. Təcrübəli olmaq əlbəttə ki, rəhbərin üstünlüyüdür. Amma təcrübə, təhsil, bilik bəzi riskləri rəhbərin gözündən qaçırır. Bu o deməkdir ki, bəzi ciddi risklər müəyyən olunmayacaq. Bu risklərə görünməz risklər deyilir. Belə halların qarşısını almaq üçün risklər bir nəfər tərəfindən müəyyən olunmamalıdır, bunun üzərində qrup işləməlidir.

Özünü və digərlərini verilən qərarın düzgün qərar olmasına inandırmaq. Belə bir tendensiya mövcuddur. Aralıq və ya ilkin nəticələr əksini göstərdiyi halda, rəhbər hələ də verilən qərarın düzgün olduğunu iddia edir, dəyişikliyə getmir. Bu, yanlış yanaşmadır.

Rəhbər faktlara öz bilikləri və inancları prizmasından baxırlar, bu isə onlara yeni riskləri görməyə imkan vermir.

Bəzi hallarda rəhbər sübutların və əsasların olmaması halları ilə kifayətlənirlər, həqiqi əsasların və sübutların araşdırılması istiqamətində tədbir görmürlər, əsasları üzdə axtarırlar.

Rəhbər vərdiş etdiyi planlamadan kənarda qalan risklərə yetərincə diqqət vermir. Qısa müddətli motivasiya rəhbərin daha çox marağındadır, nəinki uzunmüddətli motivasiya.

Rəhbərlər keçmiş hadisələri qiymətləndirirlər və düşünürlər ki, keçmişi təhlil etdikdə, gələcək risklər artıq aydın olur və risklərin sistemli araşdırılmasına və müəyyən olunmasına ehtiyac görmürlər.

Rəhbər riski gördüyü halda, niyə kifayət qədər diqqət vermir və ciddi qəbul etmir?

Rəhbərin qarşısında böyük bir fayda verə bilən əməliyyat varsa, onun beyni artıq bir çox riskləri görməməyə başlayır. Bu çox ciddi bir haldır. Belə vəziyyətdə rəhbər riskləri real görmür, fikri yalnız həmin faydanı əldə etmək yanında olur. Qeyd etdiyim kimi, risklərin araşdırılması qrup tərəfindən aparılmalıdır, bir şəxs tərəfindən yox.

Rəhbərə risk haqqında verilən məlumat rəhbərin risk haqqında fikrinin formalaşmasına təsir edir. Riskin düzgün qiymətləndirilməsi onun ilkin olaraq necə ifadə olunması və risk haqqında çatdırılan ilkin məlumatdan da çox asılıdır. Riski düzgün ifadə etmək lazımdır, çünki onun gələcəkdə idarə olunması bu faktordan çox asılıdır.

Rəhbər bəzi hallarda yanlış olan, həqiqətdən kənarlaşan və ya tam olmayan məlumatlar əsasında qərar verir. Bu da bir mental tələdir və ciddi risk faktorudur. Düzdür, hər dəfə tam, dolğun məlumat əldə etmək olmur, amma qərar vermək lazım olur. Hər bir halda məlumat elə olmalıdır ki, verilən qərarda yayınma minimum olsun.

Rəhbər riskləri gördüyü halda, ciddi olduğunu bildiyi halda, niyə onları idarə edə bilmir?

Kontrol illüziyası. Rəhbərə elə gəlir ki, vəziyyət tam nəzarət altındadır. Belə hallar həqiqətən vəziyyəti nəzarətə almaq, riskləri qiymətləndirmək üçün maneələr yaradır. İnsan çox vaxt özünə olduğundan daha çox arxayın olur. Bu bir mental tələdir və bu tələyə düşmək olmaz. Məsələn, biz həmişə əminik ki, taksi ilə getmək daha təhlükəlidir, nəinki özümüz tərəfindən idarə olunan avtomobildə. Bu həqiqətən belədirmi? Əlbəttə ki, həmişə belə deyil.

Rəhbər düşünür ki, bu rahat aşkar edilən bir riskdir və bu risk artıq başqaları tərəfindən idarə olunur. Bu da təhlükəli mental tələdir.

Rəhbər düşünür ki, bu və ya digər riskin qarşısını ala bilməzlər. Bu düşüncə ilə riskləri effektiv idarə etmək olmur. Rəhbər çox vaxt vərdiş etdiyi vəziyyəti dəyişməkdən qorxur. Əslində qarşısı alınmaz risklər mövcuddur, lakin bu risklər idarə olunmalıdır.

Bir riskin tam aradan qaldırılması istiqamətində görülən tədbirlərə rəhbər tələb olunduğundan daha çox diqqət və vaxt ayırır, lakin bir çox digər riskləri yetərincə təhlil etmir, onların müəyyən edilməsinə və təhlil edilməsinə zaman ayırmır. Bu yanlış yanaşmadır. Biz bilirik ki, bütün riskləri tam aradan qaldırmaq mümkün deyil. Amma bu o demək deyil ki, belə risklər idarə olunmamalıdır.

Bəzi hallarda bu gün görülən riskləri azaldan tədbirlər, gələcəkdə baş verə biləcək riskləri artırır. Mövcud riski azaltmaq üçün bir qərar verilərkən, qərarın gələcək risklərə necə təsir edəcəyi dəyərləndirilməlidir.

Rəhbər düşünür ki, neqativ hərəkətlər neqativ hərəkətsizliklərdən daha pisdir. Belə düşünən rəhbər qərarlar verməkdən çəkinir, çünki üzərinə məsuliyyət almaqdan qorxur.

Gündəlik iş həyatımızda rastlaşdığımız yüzlərlə mental tələ var. Mən bunların bir hissəsi haqqında fikir bildirdim. İstər iş həyatında, istər şəxsi həyatda mental tələləri dərhal müəyyən etməyə və bu tələlərə düşməməyə çalışmalıyıq.

***Kamran Babayev***
***Sığorta eksperti***

# "Azərsu" rəsmisi Şuşa ilə bağlı planları açıqladı



***Şuşa şəhərinin içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı təsdiqlənən Tədbirlər Planına uyğun olaraq ərazidə ilkin mərhələdə magistral su kəmərinin bir hissəsinin tikintisinə başlamışıq.***

Bu barədə "Unikal"a açıqlamasında "Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı bildirib.

Qurum rəsmisi deyib ki, "Zəfər yolu"nun keçdiyi ərazilər və Şuşa şəhərinin girişində elektrik yarımstansiyasının tikintisi ilə əlaqədar işlərin yubanmaması üçün həmin ərazidə təxirəsalınmaz tədbirlər görülür.

"Tədbirlər Planına Şuşanı su ilə təmin edən Kiçik Kirs və Zarslı mənbələrində yenidənqurma işlərinin aparılması, Şuşa şəhərini qidalandıran işğaldan əvvəl tikilmiş 10 km uzunluğunda Kiçik Kirs-Şuşa su xəttinin tamamilə yenidən çəkilməsi, suqəbuledici kameranın, Şuşa şəhərində 6 km-lik paylayıcı şəbəkənin yenidən qurulması və həcmi 500 kubmetr olan 3 su anbarının tikintisi daxildir. Bütün bu işlərin görülməsi üçün vəsait ayrılıb".

A.Cəbrayıllı qeyd edib ki, Tədbirlər Planına daxil olacaq işlər cari il ərzində icra ediləcək:

"Növbəti mərhələdə Şuşa şəhərinin təsdiqlənəcək Baş Planına uyğun olaraq işlər görüləcək. Bura şəhərin digər ərazilərini əhatə edəcək paylayıcı şəbəkələrin yenidən qurulması, Şuşa şəhərində həm içməli, həm də tullantı su təmizləyici qurğuların tikintisi daxildir.

Hazırda Şuşa ərazisinə Kiçik Kirs və Zarslıdan ayrı-ayrılıqda su xətləri daxil olur. Amma yeni layihədə suqəbuledici kameralar yenidən qurulacaq, bu, mənbələri əlaqələndirəcək. Beləliklə, hər iki kəmərdən su həmin kameraya qəbul ediləcək, buradan isə bir kəmərlə Şuşa şəhərinə veriləcək. Yeni polad magistral kəmər yeyinti sənayesində istifadə edilən xüsusi boyalarla daxildən boyanır, üzəri isə karroziyaya qarşı izolyasiya olunur. Bu, həm keyfiyyətli və təhlükəsiz su təminatına, həm də boruların uzunmüddətli istismarına imkan verəcək".

# Naxçıvanda pensiyaların maliyyələşdirilməsi başa çatdı

***May ayında bütün növ əmək pensiyalarının maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan bildirilib.

Qeyd olunub ki, təyin olunan əmək pensiyalarının ödənişi plastik kartlar və poçt bölmələri vasitəsi ilə həyata keçirilib. Həmçinin əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi, həmin şəxslərin şəxsi hesablarına və ya poçt ünvanlarına vəsaitin köçürülməsi üçün müvafiq işlər davam etdirilir.

Fond bundan sonra da mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq vətəndaşlara pensiya və məcburi dövlət sosial sığorta üzrə ödəmələrin həm plastik bankomat kartları, həm də poçt bölmələri vasitəsilə hər ay vaxtında ödənilməsi üçün qarşıya qoyulan vəzifələri həyata keçirəcəkdir.

# İpoteka və Kredit Zəmanət Fondunun mənfəəti kəskin azalıb

***Azərbaycan İpoteka və Kredit Zəmanət Fondu 2020-ci ili 7 milyon 228 min manat xalis mənfəət ilə başa vurub. Fond 2019-cu ili 18 milyon 695 min manat xalis mənfəət ilə bağlamışdı. Beləliklə, ötən il Fondun xalis mənfəəti 2,6 dəfə azalıb.***

Fins.az Fondun maliyyə hesabatına istinadən xəbər verir ki, faiz gəlirlərinin azalması və gözlənilən kredit zərəri ayırmasına görə İpoteka və Kredit Zəmanət Fondunun mənfəəti azalıb.

2019-cu illə müqayisədə 2020-ci ildə Fondun faiz gəlirləri 7,7% azalaraq 41 milyon 486 min manat təşkil edib. 2019-cu ildə Fondun faiz gəlirləri 44 milyon 959 min manat təşkil etmişdi.

Ötən il Fondun gözlənilən kredit zərəri 13 dəfəyə yaxın artaraq 4 milyon 770 min manat təşkil edib. Bu rəqəm 2019-cu ildə 375 min 708 manat idi. Kredit zərəri ayırması gəlirdən silinir.

Qeyd edək ki, bütün kreditlər, digər borc maliyyə aktivlərində gözlənilən kredit zərərləri üçün ehtiyyat yaradılır. Gözlənilən kredit zərəri ayırmasının artması Fondun ipoteka krediti portfelinin keyfiyyətinin pisləşdiyinə işarədir.

2019-cu illə müqayisədə 2020-ci ildə İpoteka və Kredit Zəmanət Fondunun ipoteka krediti portfeli 139 milyon 600 min 512 manat və ya 14% artaraq 1 milyard 137 milyon 758 min manata çatıb. 2019-cu ilin sonunda bu portfel 998 milyon 158 min manat idi.

2020-ci ildə İpoteka və Kredit Zəmanət Fondunun istiqraz buraxılışı ilə aldığı borcu da artıb. Ötən il, Fondun buraxılmış qiymətli kağızlar üzrə öhdəlikləri 208 milyon 180 min manat artaraq 938 milyon 387 min manata çatıb.

# Azərbaycan beynəlxalq təhlükəsizlik sisteminin önəmli komponentinə çevrilib - TƏHLİL

***ABŞ-ın "Politico" dərgisi ABŞ və Rusiya prezidentlərinin ikitərəfli görüşünün keçirilə biləcəyi şəhərlərin adlarını çəkib.***

Belə ki, Co Bayden-Vladimir Putin görüşünün Helsinki, Vyana, Lyublyana, Reykyavik, Sürix, Praqa yaxud Bakıda keçirilməsi müzakirə olunur. Görüş üçün ehtimal göstərilən şəhərlər arasında Bakının adının olması təəccüblü deyil.

Bundan əvvəl də, Azərbaycan paytaxtı beynəlxalq gərginliyin azaldılmasına xidmət edən görüşlər üçün platforma rolunu oynayıb. Belə ki, 2014-cü ildə Rusiyanın Krımı ilhaq etməsi və Ukraynanın şərqində hərbi əməliyyatlarda tərəf olması onun Qərblə münasibətlərinə ciddi zərbə vurmuşdu. Şimali Atlantika Alyansı (NATO) həmin il Moskva ilə əlaqələri birtərəfli qaydada dondurmuşdu. Dünyanın ən böyük hərbi alyansı ilə Rusiya arasında hərbi əlaqələrin dondurulması dünya üçün əlavə risklər yaradır, beynəlxalq təhlükəsizlik sistemi üçün hədəyə çevrilirdi. NATO ilə Moskva arasında "buzların əriməsin"də Bakının rolunu qeyd etmək olar. 2017-ci il fevralın 16-da Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimov ABŞ Ordusunun Baş Qərargah Rəisləri Komitəsinin sədri, general Cozef Danfordla məhz Bakıda görüşmüşdü.

Həmin görüş hərbi fəaliyyət təhlükəsizliyinin təmin olunması, həmçinin, insidentlərin yaranma riskini önləmək üçün təşkil edilmişdi. Suriyada Rusiya və ABŞ hərbi kontingentlərinin eyni vaxtda hərbi kampaniya apardığı vaxta təsadüf edən görüş Moskva ilə Vaşinqton arasında hərbi stabilliyi qorumaq baxımından önəmli idi. Paralel olaraq, NATO-nun əsas üzvü sayılan ABŞ alyans adından Rusiya ilə hərbi kanal vasitəsilə əlaqəni bərpa etdi. 2019-cu il noyabrın 26-da Valeri Gerasimov yenidən Bakıya gələrək NATO-nun Hərbi Komitəsinin sədri, aviasiya marşalı Stüart Piçlə görüşmüşdü. Bu dəfəki görüşdə NATO-Rusiya sərhədində insidentlərin qarşısının alınması, iki tərəfin hərbi ekspertləri arasında hərbi əməkdaşlığın bərpası müzakirə olunmuşdu.

Sonuncu görüş 2020-ci ilin fevralın 6-da Gerasimovla NATO-nun Avropadakı hərbi kontingentinin rəhbəri Tod Uolterslə görüşüb. Ümumilikdə, həmin görüşlər Vaşinqtonla Moskva, həmçinin, NATO ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı arasında əlaqələri stabilləşdirməyə, qarşıdurma riskinin qarşısını almağa imkan verdi. Avropa Birliyinə, Qərbə inteqrasiya meylini açıq ifadə edən, Rusiya ilə diplomatik münasigətləri kəsən Gürcüstan yaxud KTMT-ya üzv, Rusiyanın Qafqazdakı forpostu sayılan Ermənistandan fərqli olaraq, balanslaşdırılmış siyasət yürüdən, istər Moskva, istərsə də ABŞ-la isti münasibətlər saxlayan Rusiya təsadüfi deyil ki, Azərbaycan prezidenti İlham Əliyev 2017-ci ilin oktyabrında MDB Dövlət Başçıları Şurasında çıxışı zamanı Azərbaycanın qlobal təhlükəsizlik sistemində sabitləşdirici faktorlardan biri olmasını, NATO və Rusiya hərbi rəhbərliyinin görüşü üçün məhz Bakının seçilməsini vurğulayıb. "ABŞ və Rusiya Baş Qərargah rəislərinin ilk görüşü Bakıda keçirilir və biz görüş üçün ölkəmizin seçilməsindən çox məmnunuq.

Biz gələcəkdə də təhlükəsizliyin möhkəmləndirilməsi və risklərin azaldılmasına öz töhfəmizi verməyə hazırıq"-deyə prezident söyləmişdi. Bu kontekstdə 2007-ci ildə baş verən və tezliklə unudulan hadisə də qeyd olunmalıdır. Belə ki, 2007-ci il iyunun 7-də Rusiya prezidenti Vladimir Putin ABŞ-ın İranın raket təhlükəsinə qarşı Polşa və Rumınıyada radiostansiya elementləri yerləşdirmək planına qarşı alternativ təklif etmişdi. O, ABŞ prezidenti Barak Obamaya bu raket elementləri üçün o zamanlar Rusiyanın Azərbaycan ərazisində icarəyə götürdüyü Qəbələ Radiolokasiya Stansiyasından birgə istifadə etməyi təklif etməsi yada düşür.

Obama həmin təklifi qəbul etməsə də, zamanında Putinin bu təklifi dünya KİV-də 1 nömrəli xəbərə çevrilmişdi.

Sadalanan faktlar Azərbaycanın qlobal təhlükəsizlik sisteminin vacib faktoruna çevrildiyini göstərir.

***Vüqar İsmayılov***

# 8 may - Şuşanın işğal tarixini necə qeyd etməli

***Azərbaycan xalqı 30 ilə yaxın müddətdə 8 may tarixini Şuşanın işğalı günü kimi qeyd edib. Bu işğal günündə hər zaman şəhidlərimiz anılıb, insanlarımızın başına gətirilən müsibətlərin unudulmamasının vacibliyi aşılanıb.***




2020-ci il sentyabrın 27-də rəşadətli Azərbaycan Ordusunun başladığı əks-hücum əməliyyatları elə Şuşanın azad olunması ilə sonlandırıldı. Şuşa azad olunan kimi Ermənistan təslim olmaq məcburiyyətində qalaraq, üçtərəfli bəyanat imzalamağa razılaşdı. Beləliklə, Şuşanın azad edildiyi tarix - 8 Noyabr Azərbaycanda Zəfər günü elan edildi.

Düşmən üzərində qələbə qazanıb, torpaqlarımızı işğaldan azad etsək də, tariximizi, ermənilərin başımıza gətirdiyi müsibətləri unuda bilmərik. Bu müsibətlər sırasında 1992-ci il, 8 may - Şuşanın işğal edildiyi tarix də var.

Bəs zəfər əhval-ruhiyyəsində olan Azərbaycan xalqı 8 mayı necə qeyd edəcək?

Bununla bağlı Modern.az-a danışan Şuşanın deputatı Elman Məmmədov şəhərin işğal olunduğu günə "Əziz Şuşa! Sən azadsan!" sözləri ilə münasibət bildirib:

"Biz tariximizi unutmamalıyıq.1992-ci il mayın 8-i Şuşanın ermənilər tərəfindən işğal olunduğu gündür. Bu il isə biz Şuşanın işğal günündə cənab Prezidentin dediyi kimi söyləyirik ki, əziz Şuşa, sən azadsan! Şuşada, Bakıda, eləcə də ölkəmizin digər bölgələrində də işğal günü qeyd olunacaq. İşğal günündə qürurla dayanacağıq, çünki düşməndən intiqamımızı aldıq və Şuşamızı azad etdik.

Bu ərəfədə cənab prezidentin Şuşaya və digər ərazilərə səfəri ola bilər. Amma onsuz da, Ramazan bayramından sonra qardaş Türkiyənin prezidenti Rəcəb Tayyip Ərdoğanla İlham Əliyevin Şuşaya səfəri gözlənilir. Ona görə, prezidentin 8 mayda Şuşaya gedib-getməyəcəyi haqqında fikir söyləyə bilmərik".

Ermənilərin hər il Şuşanın işğal günündə orada "qələbə paradı" keçirdiklərini xatırladan deputat onlara bir daha dərs verməyin məqamı olduğunu düşünür:

"Mən Modern.az-a və digər xəbər saytlarına da bir neçə dəfə açıqlamamda qeyd etmişəm. İstəyərdim ki, bu il Şuşaya qalib bir xalq kimi gedək. Şəhidlərimizi də orada anaq. Bu da ermənilərə göz dağı olsun. Əlbəttə ki, bu mənim ürəyimdən keçənlərdir. Hər şey cənab prezidentin tapşırığı və rəhbərliyi ilə həyata keçirilir. Hər il biz Şəhidlər Xiyabanını ziyarət edirik. Bu il də pandemiyaya görə, kütləvi şəkildə olmasa da, kiçik qruplarla mütləq ziyarət edəcəyik".

# Vətən yolunda şəhid olan igid Əli

***Əli Turac oğlu Quliyevin adı Azərbaycan Ordusunun 44 gündə zəfərlə bitirdiyi İkinci Qarabağ müharibəsində müqəddəs Vətən torpaqlarının faşist ermənilərin tapdağından təmizləməkdə xüsusi qəhrəmanlıq dastanı yazan igidlərin sırasında qürurla çəkilir.***



Masallı rayonunun Kolatan kəndində boya-başa çatan Əli cəmiyyətə layiqli vətəndaş, el-obaya layiq oğul olmaqdan ötrü halallığa tapınmaqla Vətəninə, torpağına ürəkdən sevdalanır. Hətta qısa müddətdə öz yaxşı əməllər sayəsində insanlar arasında hörmət də qazana bilir. Necə deyərlər, bu yeniyetmənin adı el-obada çəkiləndə qohum-qonşunun üzlərində nur, ürəklərində mənəvi rahatlıq hissi yaranır.

Ürəyi, amalı Vətən eşqi ilə dolu Əli Quliyev 2019-cu ildə hərbi xidmətə yola düşür. Onun əsgərlik həyatı Cocuq Mərcanlıda başlanır. Və ilk gündən and içir ki, Vətənə vicdanla, qeyrətlə xidmət edəcək, murdar xislətli düşmənə qarşı amansız olacaqdır. Hərbi hissədə fəallığı, nümunəvi davranışı, təlim-tərbiyəsi, ən əsası doğma Azərbaycana sonsuz məhəbbəti ona komandirlərin etimadını qazandırır. Bütün bunlarla bərabər həmişə içindəki bir hiss Əlini Vətən torpaqlarını əsarətdə saxlayan ermənilərdən qisas almağa çağırır. Məhz buna görə də 2020-ci il sentyabrın 27-də başlayan Qarabağ müharibəsinə yağı üzərində qələmə çalmaq əzmi ilə gedir. Füzuli və Xocavənd istiqamətində gedən şiddətli döyüşlərin əsl qəhrəmanı olur. Şanlı zəfərimizə gedən yolda düşmənin bir neçə postunun ələ keçirməsində böyük şücaət göstərir. Erməni quldurlarına qənim kəsilən igid əsgər Əli Quliyev oktyabr ayının 27- də düşmən gülləsinə tuş gələrək cavan ömrünü Vətənə tapşırır. Əlinin bu ölməz hünəri çox keçmir ki, dövlət tərəfindən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülür.

Əli ömrünün ən gözəl çağında -19 yaşında özünü Vətən yolunda şəhid etdi. Xalq bu cür igid oğulları qəlbində yaşatmaqla heç vaxt unutmaz.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# YÜKSƏLİŞ ZAMANLA QAZANILIR...



***Tələbə yoldaşlarımı tez-tez xatırlayıram. Kim necə idisə, o cür də yadda qalıb.***

Vaqif Əlisoy secilirdi. Bizi bir yerə toplayıb, deyirdi: ,,Dostlar, mən o adamları sevirəm ki, gələcək qarşısında məsuliyyət, kecmiş qarşısında etiram, indinin özündə fədəkarlıq hiss etsin...,,

Vaqif 40 ildən sonra da bu sözləri deyir. Bu sözlərlə o, Vətən qarşısında şərəfli bir ömrün xəritəsini cızır. Fəal mövqe aydınlığı ilə...

İnstitutu bitirdikdən sonra bir müddət müəllimliklə məşğul olduq.

Vaqif qanicən ermənilər torpaqlarımıza basqın edəndə, daha tanınmağa başladı. İşilə, əməlilə. Cəbrayılda döyüş taktikasını, deyilənə görə, çox gözəl bilirmiş, 14 kənd ermənilərdən alınanda fədəkarlıq göstərmişdir. ,,Yüksək, çətin keçilən dağlı-meşəli yerlərdə vuruşurdular. Vaqif kimi oğullar yurdumuza bahar gətirməkdən ötrü ər doğulublar...

Vaqif Əlisoy, həqiqətən, fəxr edilə bilən, özünü döyüşdə də, digər işlərdə də təsdiq etmişdir.

Vaqif özü qədər məğrur və səmimidir. Tez-tez müsahibələr verir, sosial şəbəkələrdə yazır ki, həyata, dünyaya, cəmiyyətə hər kəsin özəl baxışı olmalıdır və çox aydın bir dildə olmalıdır.

Düşünürəm ki, Vaqifdə mənəviyyat ucalığı çox yüksəkdir. Faciələrimiz başlananda o, cəmiyyətin və zamanın ağrılarını öz çiynində fədəkarlıqla daşımışdır. Daim hərəkətdədir, Azərbaycan xalqının firəvan həyatı üçün yeni fikir və təkliflərlə çıxış edir.

O nə qədər insanları sevindirmişdi. 90-cı illərdə. Əsirləri dəyişdirmiç, şəhidləri geri almışdı. El-obasını ləyaqətlə təmsil etmişdir. Bu və ya digər xeyirxah işlərinə görə Vaqifə indinin özündə də böyük maraq var. Ona görə ki, o, xeyrin və aydınlığın tərəfindədir. Tələbə yoldaşımız, tanınmış yazıçı, xeyli sayda romanların müəllifi Azad Qaradərəli Vaqif Əlisoyu əfsanəvi qərrəman, Milli qəhrəman hesab etməkdə haqlıdır.

Keçmiş döyüşçü 1988-ci ildən başlayaraq Qarabağ, ərazi bütövlüyü və müstəqilliyimiz uğrunda mübarizə apapır. Xalq hərəkatının rəhbərlərindəndir.Qarabağ komitəsinin üzvü düşəndə deyir ki, ,,erməni vəhşiliyini mənim kimi görən olmayıb,,

O, Qarabağ qazisi kimi dövlət və hökumət rəhbərləri qarşısında tələblərlə çıxış edir. ,,Xalqı aldatmaq olmaz, həqiqət nədir, onu demək lazımdır,, Bu tələblər qətidir. Vaqifin müraciətləri səviyyəlidir, kecərlidir.

Krçmiş döyüşçü indi yaşının müdriklik dövrünü yaşayır, torpaqlarımızın yağı-düşməndən geri alınmasına sevinir, amma kədərlənir də. Torpaq elə-belə alınmır, qan bahasına, Şəhid qanı ilə. Tanrı Şəhidlərimizin qanını yerdə qoymadı.Allah onlara dönə-dönə rəhmət eləsin.

Vaqif də hələ azad olunmuş torpaqlarımıza gedə bilməyib. O torpaqlarda görüşənədək, əziz Vətənsevər!!!Gələcək işlərində uğurlar, cansağlığı diləyilə...

***Filologiya elmləri doktori, professor, AMEA Dilçilik İnstitutu, Müasir Azərbaycan dili şöbəsinin müdiri İsmayıl Kazımov***

# Xüsusi istedada malik gənclər üçün yeni müsabiqə elan olunub

***Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, Mədəniyyət Nazirliyi və "RANG" leyblın tərəfdaşlığı, "GəncSİMA" İctimai Birliyinin təşkilatçılığı ilə "Səhnədə" müsabiqəsi elan olunub.***




Mədəniyyət Nazirliyindən bildirilib ki, müsabiqənin məqsədi paytaxt və regionlarda xüsusi istedada malik gənc ifaçıları aşkar etmək, onların qabiliyyətlərinin inkişafı və sənətdə öz yerini tapmasına dəstək göstərməkdir. Azərbaycan Dövlət Televiziyasında (AzTV) teleşou formatında yayımlanacaq müsabiqə vasitəsilə 16-25 yaş arasındakı gənclər özlərinin ifaçılıq sahəsində olan bacarıqlarını nümayiş etdirəcəklər.

Müraciət etmək istəyən istedadlı gənclər www.gencistedad.az saytı vasitəsilə qeydiyyatdan keçə bilər. Daxil olan müraciətlərin dəyərləndirilməsindən sonra uğurlu hesab edilən iştirakçılar Bakı, Gəncə, Naxçıvan, Şəki, Quba, Lənkəran və Bərdə şəhərlərində keçiriləcək kastinqlərə dəvət olunacaqlar.

Kastinqlər nəticəsində müəyyənləşən 10 finalçı Bakı şəhərində keçiriləcək möhtəşəm konsert proqramında iştirak edəcək və münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Qalib olaraq seçilən 3 ifaçı "RANG" leyblı ilə birillik əməkdaşlıq müqaviləsi imzalamaq şansı əldə edəcək.

Qeyd edək ki, müsabiqənin münsiflər heyəti ölkəmizin musiqi sahəsində tanınan və peşəkar simaları olan Sevda Ələkbərzadə, Pərviz İsaqov və digər ulduzlardan ibarətdir.

Müsabiqədə iştirak etmək üçün iyunun 10-dək müraciət etmək lazımdır.

# MƏMLƏKƏT SEVDALILARI ÜÇÜN - İlqar RƏSUL yazır

## (Prezidentin məlum bəyanatı səbəbsiz deyil)

**Əziz həmvətənlər!**

Bəzi siyasilərin və politoloqların mövcud hakimiyyətə və prezidentə nifrəti gözlərini o qədər tutub ki, millətə və Məmləkətə məmnuniyyətlə xəyanət etməkdən, gerçəyi kölgələməkdən belə çəkinmirlər.

Belələrinin Qarabağ savaşı, ordumuzun zəfəri, torpaqlarımızın işğaldan azad olunmasına dair dediklərinə inanmayın. Qarabağ azad olunub. Ordumuz zəfər çalıb. Gözlə görülən gerçəklik hələ bu zəfərin bir hissəsidi. Ağılla görülənlər də zamanla gözlə görülən gerçəkliyə çevriləcək.

**Rusların bölgədəki mövcudluğuna gəlincə:**

İndiki hal "Moskva regionda və dünyada sülhün təminatçısıdır" təəssüratını yaratmaq üçün Rusiyaya çox lazımdır. Moskvanın aləmində Qarabağda "sülhməramlı" mövcudluq Ermənistanı tam itirməmək, Ukraynadakı davranışlarına haqq qazandırmaq üçün də Rusiyanın işinə yarayır (Rusiyada ciddi postlar tutan ermənipərəst qüvvələri sakitləşdirmək baxımından da bu oyun Vladimir Putin üçün az əhəmiyyət kəsb etmir).

Əslində isə bu gün, ya sabah Rusiya qoşunlarını çəkib gedəcək. Düzdür, aramızda buna inanmayanlar çoxdur. Amma Şuşanın azad olunacağına inanmayanlarımız, "Qarabağ getdi" deyənlərimiz də də yetərincə idi. Həm də sıradan adamlar deyildi bunlar.

-"Rusiya hələ indiyənədək öz xoşu ilə heç yerdən qoşunlarını çəkməyib" - deyib də, rusların Qarabağdan gedəcəyini düşünənlərə istehza edən, gülənlər də az deyil.

Əvvəla onu deyim ki, sabah ruslar regiobdan toy-bayramla çəkilsələr belə, onsuz da bu onların öz xoşu ilə deyil, İlham Əliyevlə Tayyip Ərdoğanın uğurlu oyununa görə baş vermiş olacaq.

Digər tərəfdən, yaxın tarixdə Moskva SSRİ olaraq Alnaniyadan Vyetnama, Kubadan Monqolstanadək dünyanın hər yerindən qoşununu çəkilbsə, niyə Moskva Rusiya olaraq keçmiş sovet respublikalarından ordusunu çəkilməsin ki (Kimsə deyə bilər, o vaxt dünya tələb edirdi. İndi də dünya tələb edir də Rusiyanın özünə yığışmasını)?

Çəkəcək qoşunlarını. Mütləq çəkəcək. Bəli, ilk olacaq, ama olacaq. Azərbaycanda və onun Qarabağında dünya miqyaslı ilklər olmayıbmı? Olub əlbəttə. Demək yenə olacaq. Kağız üzərində və açıqlanmayan danışıqlarda bu ilk olub artıq. Qalıb həyata keçirilməsi, o da olacaq.

**Əziz həmvətənlər!**

Sosial şəbəkəyə diqqət etməmiz kifayətdir ki, gündə nə qədər insanın dünyasını dəyişdiynin şahidi olaq. Torpağın azad olunduğunu görüb, torpağı görməyənlərimizin sayı gün-gündən artıq. İş o yerə gəlib ki, səhər FB yə girəndə "Allah rəhmət eləsin", "Ruhu şad olsun" deyimlərini kopyalayıb əlimizin altında hazır saxlayırıq ki, rastımıza çıxan bir ölüm xəbərinin altına qoyub, o birinə keçək. Çünki artıq yazıb çatdırmaq olmur. Dediyim odur ki, Məmləkətimizin belə həssas zamanında, cavanlı-qocalı hamımızın həyatının belə aşırı etibarsız vaxtında sizləri bədbin proqnozlarla yükləməyə, ümidsizlik girdabına atmağa çalışanlara inanmayın. Onlar Vətən müharibəsindən az əvvəl baş vermiş Tovuz hadisələrində də Ali baş komandanı iradəsizlikdə qınayır "ordu düşmən qabağından qaçdı" deyirdilər. Təsəvvür edirsiz, Azərbaycan ordusu Şuşanı bir neçə saata işğaldan azad etməyin təlimlərini keçərkən, Tovuzu faciəyə çevirib hərbiçiləri ruhdan salmaq, əhalini başıpozuq kütləyə çevirmək istəyənlər var idi. Beləəri bilərəkdən dünənki "proünozunun" iflas etdiyindən ibrət almırlar. Çünki, bunu məqsədli şəkildə edirlər. Ən azı nifrətin təsiri altında. Amma səbəb tək nifrət də deyil əlbəttə...

**Əziz həmvətənlər!**

Bölgədə Azərbaycanın maraqlarına uyğun çox ciddi proseslər gedir. İlham Əliyevin müxtəlif vaxtlarda özünün "deyirəmsə, bu məsələ bitib, demək bitib!" bəyanatını təkrarlaması təsadüf deyil və bunun arxasında həmin prosesin indi açıqlanması məqbul sayılmayan detalları dayanır.

Səhhətinizi, əsəblərinizi və ən başlıcası ümidlərinizi kənar, məqsədli təsirlərə qurban verməyin. Yaxşı günlərimiz hələ qarşıdadır. O günləri görməyə və görə bilməyənlərimizin əvəzindən də yaşamağa kökləyin özünüzü. Bu yanaşma və yumruq kimi birlik bizi arzularımıza daha asan və tez qovuşdurar.

Allah Məmləkətimizi qorusun!

ELAN

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən İbrahimov Rəşad Vahid oğluna verilmiş AA 04291, AA 04292, AA 05321 nömrəli gəmi biletləri itdiyi üçün etibarsız sayılır.**

# Oğlunun ad günündə şəhid olan polkovnik-leytenant - "Kobra" ləqəbli zabitin döyüş yolu - FOTOLAR

## Məşhur bir deyim var: "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!".



***Bəli, 30 illik həsrətə son qoyan, torpaqları yağı düşməndən qan bahasına geri alan Azərbaycan əsgəridir. Şanlı Ordumuz Ermənistanın təxribatlarının qarşısını almaq, ərazi bütövlüyümüzü bərpa etmək üçün 2020-ci il sentyabr ayının 27-dən etibarən zəfər yürüşünə başladı, 10 noyabrda qələbə çaldı. Şəhidlərimiz qan bahasına aldığı torpaqları özlərindən sonra bizə miras qoydu.***

Modern.az saytı "Vətəni yaşadanlar" rubrikasında qəhrəman igidlərimizi hər kəsə tanıtmağa davam edir. Bu dəfə haqqında danışacağımız şəhid "Kobra" ləqəbli polkovnik-leytenant Xeyrulla İbrahimovdur.

Arayış: Şəhid polkovnik Xeyrulla İbrahimov 1971-ci ildə aprelin 19-da Bakı şəhərində anadan olub. Əslən İsmayıllı rayonundandır. 1988-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsilini başa vuraraq, Ukraynadakı Xmelnitski Ali Artilleriya Komandanlıq Məktəbinə daxil olub və 1992-ci ildə həmin məktəbi artilleriya ixtisası üzrə bitirib.

Həmin vaxtdan N saylı hərbi hissədə haubitsalı artilleriya divizionunun qərargah rəisi, divizion komandirinin müavini təyin edilib. Xeyrulla İbrahimov 1992-ci ildə Azərbaycanın ən gənc hərbi hissə komandiri olub. Həmin il Laçın, Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl, Tərtər rayonlarının müdafiəsi



uğrunda döyüşlərdə iştirak edib. 1994-cü il iyunun 24-də ona "baş leytenant" hərbi rütbəsi verilib. 1994-cü ildə Füzuli rayonunda işğalçı ermənilərlə döyüşdə yaralanıb.

1994-cü il yanvarın 18-dən 1997-ci il mayın 14-nə qədər Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə Artilleriya divizionunun komandiri, 1997-ci il mayın 14-dən 1998-ci il noyabrın 1-nə qədər isə həmin hərbi hissədə Haubitsalı artilleriya divizionunun komandiri vəzifəsində xidmət edib. 1997-ci il iyunun 30-da isə "bapitan" hərbi rütbəsi verilib.

Xeyrulla İbrahimov 2000-ci il iyulun 26-dan 2003-cü il sentyabrın 30-na qədər Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə komandir müavini, 2003-cü il sentyabrın 30-dan 2004-cü il aprelin 1-nə qədər həmin hərbi hissədə komandirin MTT üzrə müavini - MTT bölmə rəisi vəzifəsində xidmət edib.

2004-cü il iyunun 30-da ona "polkovnik-leytenant" hərbi rütbəsi verilib.

2011-ci ilə qədər Orduda xidmət edən Xeyrulla İbrahimov daha sonra Azərbaycan Silahlı Qüvvələri sıralarından ehtiyata buraxılıb.

Xeyrulla İbrahimovun hərbi ləqəbi "Kobra" olub.

Şəhid polkovnik-leytenant Xeyrulla İbrahimovun haqqında daha ətraflı anası Xalidə İsmayılov Modern.az-a danışıb.

### "Gəlinimin dərdinə dözə bilmirdim, indi də oğlum..."

Deyilənə görə, Xeyrulla İbrahimov 44 günlük savaşa qeyri-adi şəkildə çağırılıb. Onun vətən sevdasını bilən keçmiş hərbçi dostlarından biri Bakıdan artileriyaçı siyahısı tələb olunanda Xeyrulla İbrahimovun da adını xəlvətcə həmin vərəqə qeyd edib ki, vaxtilə "Kobra"nın ordudan tərxis olunmasını "təşkil edənlər" bundan xəbər tutmasınlar.

Sınaq atışına çağırılan Xeyrulla İbrahimov 9 illik fasilədən sonra bir atışla 2 "düşmən hədəfi"ni məhv edir və hamını məəttəl qoyur. Beləcə onu Bakı korpusu üzrə artilleriya rəisi təyin edirlər.

"Xeyrulla övladım olduğu üçün demirəm, çox yaxşı, vətəni, insanları sevən, dəyər verən bir oğul idi. Ukraynada yaxşı oxuduğuna görə onu orada saxlamaq istəyiblər, amma Azərbaycanda müharibə başlayanda dözməyib geri döndü və müharibəyə getdi.

Oğlum Vətən müharibəsinə getməzdən 4 ay öncə yoldaşı Pərvanə xərçəng xəstəliyindən dünyasını dəyişdi. Belə bir xəstəliyin olmağından xəbərimiz yox idi, belindəki yırtığı əməliyyat etdirən zaman xəstəliyi üzə çıxdı. Həkimlər artıq gec olduğunu, müalicənin xeyri olmayacağını dedilər. Onu həyatda saxlamağa gücümüz çatmadı. 11 ay sonra 40 yaşında vəfat etdi. Mən gəlinimin yoxluğuna, dərdinə dözə bilmirdim. İndi oğlumun yoxuğuna necə dözüm?".



Xeyrulla İbrahimov II Qarabağ savaşına qədər düz, 9 il taksi sürücüsü kimi çalşıb, ailəsini dolandırdırmaqla məşğul olub.

"Ondan mənə yadigar iki övladı qaldı: biri qız, biri oğlan. Qızı Xətai rayonu İcra Hakimiyyətində işləyir. Oğlu isə Türkiyənin Sakarya Universitetində təhsil alır.

Övladları ataları ilə fəxr edir. Ataları ilə xatirələrindən danışıb, hər gün yada salırlar.

Getdiyi gün gecə saat 12-də mənə zəng etdi. "Ana, mən Tərtərə gəldim. Çox yaxşı qarşıladılar, bütün generallar mənimlə görüşə gəldi. Mən artileriya vasitələtini yenidən yoxladım, mövqelər düzgün qoyulmamışdı. Bütün mövqeləri dəyişdim. Yaxşı bir atış baş tutdu. Ermənilərin texnikasını kütləvi şəkildə məhv etdik" dedi. Həmin günün səhərisi də Füzuliyə yola düşdülər. Müharibədə göstərdiyi qəhrəmanlığına görə onu Bakı korpusu üzrə Artilleriya rəisi təyin etmişdilər".

Bəzi məlumatlara görə, I Qarabağ müharibəsində onun qətli üçün ermənilər pul mükafatı ayırıblarmış. Bu informasiyanı Rusiya mediası da təsdiqləyib.

I Qarabağ müharibəsində ermənilərə qan udduran artileriyaçı savaşdan sonra da müxtəlif hərbi vəzifələrdə çalışıb. 1992-ci ildə müharibədə qəlpə yarası alanda Xeyrullaya hələ o zaman Heydər Əliyev "gələcəyin Əliağa Şıxlınıskisisən" deyib.

2009-cu ildə hərbi hissə komandiri təyin olunan Xeyrulla İbrahimov iki il sonra ordudan tərxis olunub.

### Son görüş, son telefon zəngi...

"Övladımı sonuncu dəfə 2020-ci il sentyabrın 28-i gördüm. Evə gəlib müharibə başladığını və cəbhəyə yollanacağını dedi.



Oğlum sənin yoldaşın 4 aydır ki, rəhmətə gedib, iki övladın var, onları kimə tapşırıb gedirsən?" söylədim. O isə "onları Allaha tapşırıram!" dedi.

Xeyrulla 20 ilə yaxın hərbçi kimi xidmət etdiyinə görə ermənilərin mövqeyini yaxşı bilirdi. Mənə "Ana, mənim bildiyim mövqeləri hər kəs bilmir" dedi. Nə qədər "getmə" desəm də, bizi Allaha tapşırıb yola düşdü.

Peşəsini ürəkdən sevdiyi üçün evdə hərbiyə aid heç bir şey danışmazdı. Zəng edəndə də ancaq yaxşı olduğunu, övladlarından müğayət olmağımı istəyirdi.

Ən sonuncu telefon zəngini qardaşına edib. Oktyabrın 26-da, günorta şəhadətə yüksəlməzdən təxminən 1 saat əvvəl danışıblar. Qardaşına "əməliyyata gedirəm, vacib sözün yoxdursa, telefonu söndürüm" deyib. Həmin gün Xeyrullanın oğlunun doğum tarixi idi. Çox diqqətçil adam olmasına baxmayaraq, oğlunu təbrik etməyib. Mən də dəfələrlə onun nömrəsini yığdım ki, "oğlunu təbrik elə" deyim. Amma telefonuna zəng çatmadı. Artıq hiss etdim ki, oğlumu itirmişəm".

### "İnşallah, şəhadətə yüksələrəm" deyirmiş...

"Oğlum hər danışanda "İnşallah, şəhadətə yüksələrəm" deyirdi. Sanki müharibəyə o arzu ilə getmişdi. Döyüş yoldaşları, dostları Xeyrulladan ağız dolusu danışırlar. Polkovnik yoldaşına "mən bura vətənim üçün şəhid olmağa, şəhadətə yüksəlməyə görə gəlmişəm" deyib.

O, arzusuna çatdı, qəhrəman kimi şəhid oldu. Biz də onsuz qaldıq...".

### Şəhid anasının gileyi...

"Xeyrullanın tabeliyində vuruşmuş hərbçilərə "Vətən Müharibəsi Qəhrəmanı" adı veriblər. Amma mənim dağ boyda oğluma, Vətən uğrunda canını qurban verən polkovnik-leytenanta bu adı layiq görməyiblər. Mən şikayət etmirəm. Bilirəm ki, Ali Baş Komandanımızın hər xırda problemdən xəbəri ola bilməz. Ona bunu deyən lazımdı.

Mən dövlətdən heç nə istəmirəm. Sadəcə, oğlumun ruhunun şad olması üçün dövlət tərəfindən ona status verilsin.

Mən sual vermək istəyirəm: qəhrəmanlıq etmək üçün oğlum daha nə etməli idi? Bu suala cavab verməlrini istəyirəm...

Vətən üçün şəhid oldu, vətən də ona dəyər versin".

Polkovnik-leytenant Xeyrulla İbrahimov 2020-ci ilin 26 oktyabr tarixində Şuşa şəhəri ətrafında gedən döyüşlərdə şəhid olub.

Şəhidimiz ölümündən sonra Prezidentin sərəncamı ilə "Azərbaycan bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.

Allah rəhmət etsin! Ruhun şad olsun, qəhrəman şəhid!

***Fidan İlqarqızı***

# Gizlin dəfn edilən böyük aktyor - Ermənini kinostudiyadan qovub

***5 may Adil İsgəndərovun doğum tarixidir... "Unikal" modern.az-a istinadən böyük aktyor barəsində yazını təqdim edir.***

Onun haqqında düşünəndə nədənsə gözlərimin önünə əvvəlcə "Qanun naminə" filmində yaratdığı Kamilov obrazı gəlir. Əynində mundir, başında papaq əllərini qaldırıb köhnə kişilərə xas "Çal, mənim havamı çal, "Heyvagülü"" deyir və ağır-ağır oynamağa başlayır. Bir də həmin filmdəki sonuncu kəlməsini xatırlayıram "Kaş, Tanrı mənə bir az da ömür verəydi, onda mən bilərdim necə yaşayardım".

Bəlkə bu Kamilov obrazının daxili dünyası ilə Adil İsgəndərovun iç dünyası arasında nə isə bir bağlılıq var... Kamilova möhlət verilsəydi, əvvəlki həyatından fərqli olaraq yalnız xeyirxah əməllərlə məşğul olardı. Çünki onun daxili dünyası safdır, sadəcə şeytan əməlinə qalib gələ bilməyib. Bəs, Adil İsgəndərovun özünə bu möhlət verilsəydi, nə edərdi? Görəsən, ömür boyu getdiyi düz yoldan, şəxsiyyətini, mənliyini, sənətini hər şeydən üstün tutduğu üçün çəkdiyi başağrılarından qurtulmaq üçün əks istiqamətə yollanardımı? Yəqin ki, yox, çünki...

Tanrının bizə bəxş etdiyi kiçik zaman kəsiyini hərəmiz bir cür başa vururuq. Kimisi sadəcə gəlir bu özülü ədalətsiz qoyulmuş dünyaya, ona verilən vaxtın keçəcəyini gözləyə-gözləyə yaşayır, kimisi çarpışır-vuruşur var-dövlət toplamaqla məşğul olur. Eləsi də var ki, ona verilən həmin qısacıq vaxtda özündən sonrakı ömrünü qazanır. Adil İsgəndərov kimi...

Adının qarşısından bilərəkdən dürlü-dürlü titullar yazmıram. Əslində həm rəsmi şəkildə, həm də qeyri-rəsmi xalq artisti idi.

Həqiqətən xalqın olan sənətkarı xalq unutmur, şəxsiyyəti və sənəti bütöv olanlar bu gün də xalqın yaddaşındadır, onu rəsmən yada salmasalar da nəsillər dəyişir, amma o əbədi qalır. Tofiq Kazımov, Mehdi Məmmədov, Həsənağa Turabov... siyahı o qədər də uzun deyil. Sayı o qədər də çox sənətkarlar arasında Adil İsgəndərovun da imzası var.



### Onun quruluşunda "Vaqif" tamaşası 1064 dəfə oynanılıb

Bakı Teatr Texnikumunda aldığı təhsillə qane olmayan məzun A.Lunaçarski adına Moskva Teatr Sənəti İnstitutunda oxuyub. Moskva Bədaye və Vaxtanqov teatrlarında təcrübə keçib. Tam hazır vəziyyətdə Akademik Milli Teatra gələn Adil İsgəndərovu bir il sonra baş rejissor təyin edirlər. İlk rejissorluq işinə "Polad qartal" tamaşasından başlayan İsgəndərov milli teatrın səhnəsində "Həyat", "Vaqif", "Xanlar", "Fərhad və Şirin", "Aydın", "Şərqin səhəri", "Otello", "Cavanşir" kimi tamaşalara həyat verir.

Onun quruluşunda "Vaqif" tamaşası milli teatrın səhnəsində düz 1064 dəfə oynanılıb. "Otello" tamaşasından Ələsgər Ələkbərovun şəkli Şekspir muzeyində indi də saxlanılır. Moskva dekadasında həmin tamaşanı seyr edən və heyran qalan ingilislər tamaşanı lentə alıb aparıblar. Tamaşa vaxtı Moskva teatrının pərdəsi alqışların səngiməməsinə görə düz 17 dəfə bağlanıb və yenidən açılıb. Azərbaycan teatrına onlarla rejissor və aktyor nəsli bəxş edən sənətkar milli teatrın yeni binaya köçürülməsinə razı olmur, yeni bina akustikasız olduğundan böyük teatr üçün yaramır deyir. Eşitmirlər onu. Sənətkar həqiqəti izhar etdiyi üçün incidilir və nəticədə sözünü geri götürmədən teatrı tərk etməli olur.

### Kinostudiyada

1966-cı ildən başlayaraq "Azərbaycanfilm" kinostudiyasına rəhbərlik etməyə başlayır. Yalnız "Əhməd haradadır?" filminin quruluşçu rejissoru olmağa vaxtı çatan Adil İsgəndərov filmlərdə müxtəlif səpgili obrazlar yaradıb. Həmin illərdə ondan soruşurlar ki, bu illər ərzində teatrsız necə qala bilirsiniz? Cavabında "Dişimi dişimə sıxıb dözürəm" deyir. Kərbəlayi İsmayıl kimi ötkəm, Kamilov kimi kövrək və sadəlövh, gülsatan qıza valeh olan şişman alman məmuru kimi obrazların yaradıcısı həm də, 1937-ci ildən ömrünün sonuna qədər İncəsənət İnstitutunda dərs deyib.

### Kərbəlayiyə verilən mükafat Qəmloya çatıb

Adil İsgəndərov tez-tez əyalət teatrlarına gedərmiş. Aktyor Məlik Dadaşov onun belə səyahətlərindən birinin tapıntısı idi. Söhbət Məlik Dadaşovdan düşmüşkən, "Axırıncı aşırım" filminin Tbilisidə nümayişdən sonra baş rolun - Kərbəlayi İsmayıl obrazının ifaçısı mükafata layiq görülür. Adil İsgəndərov mükafatdan imtina edir, böyük ürəklə həmin mükafatı Qəmloya - Məlik Dadaşova verməyi məsləhət görür.



Onunla işləyən aktyorların ailə vəziyyəti, sosial həyatı ilə həmişə maraqlanarmış. O dövrdə çətin vəziyyətdə yaşayan evsiz-eşiksiz xeyli aktyor Adil İsgəndərovun köməkliyi ilə ev alıb. Mərhum sənətkar Şahmar Ələkbərov sağlığında həmişə Adil İsgəndərovun onu ev-eşik sahibi etməyindən danışardı.

Onun üçün sənət şəxsi münasibətlərin fövqündə olub.

Hanı indi elə sənətkar ki, sənəti ambisiyalarından üstün tutsun...

Bu qayğıkeş insan şəxsi münasibətlərlə sənət müəyyən etməzmiş. Bir dəfə xalq artisti Rza Əfqanlı ilə pərtləşirlər. Bir neçə gün sonra Hüseyn Cavidin "Şeyx Sənan" əsərini tamaşaya qoymaq üçün rol bölgüsünə başlayan Adil İsgəndərov baş rolu Rza Əfqanlıya həvalə edir. Öz dostları rejissoru qınayır, etiraz edirlər ki, sənin üzünə ağ olan adama niyə baş rol verirsən? Cavab verir ki, qada, mən o obrazda yalnız onu görürəm. Milli Dram Teatrının o vaxtlarını görən qocaman sənətkarlardan eşitmişik ki, teatrda hələ "Şeyx Sənan" tamaşasının baxışı kimi baxış olmayıb. Bütün zal dolu olub, tamaşa 10 gün anşlaqla keçib. Kollektiv təkcə o tamaşa ilə Tiflisdə 40 gün qastrolda olub.

"Otello" tamaşasında da baş rolu Ələsgər Ələkbərova verəndə onunla qanlı bıçaq imiş. Bu tamaşadan sonra məşhurlaşan Ələsgər Ələkbərov düşmən olduğu Adil İsgəndərov haqqında "On sozdal menya" - deyirmiş.

### Hələ sovet vaxtı ermənini kinostudiyadan qovub

Tələbəsi Əbdül Mahmudbəyovu dinləyək: "Moskvada mənimlə birgə bir erməni təhsil alırdı. Azərbaycan dilini də gözəl bilirdi və təhsilimizin sonunda bu ermənin ssenarisi ilə bir film çəkmək qərarına gəldim. O vaxtlar "Azərbaycanfilm"ə Adil müəllim rəhbərlik edirdi. Gəldim yanına, çox sevindi, çünki onun yetirməsi idim. Görüşdük, söhbət etdik, vaxt yetişdi, Adil müəllim ssenarini açdı ki, baxsın. Bir də gördüm kişinin rəngi ağardı, oxuyub ki, rejissor Əbdül, ssenari Akopyan. Akopyan da yanımızdadır, qayıtdı ki, qada, bu ermənidir? Dedim, bəli, amma Bakıda doğulub. Qada, cəhənnəmə doğulub, bəs sən bu gədəni bura gətirəndə görmədin ki, girişdə "Azərbaycanfilm" yazılıb? Üzünü tutub Akopyana, qayıtdı ki, dur tərpən Sabunçu vağzalına, min qatara birbaşa "Erməniflmə" get. Sonra da mənə xəbərdarlıq etdi ki, bir daha belə qələt etməyim."

### İkinci Fəxri Xiyabanın ilk fəxri sakini

Kamal Xudaverdiyevin xatirələrindən: "Adil müəllim kurs rəhbərim olub. Biz sənətin əlifbasını Adil İsgəndərovdan öyrəndik. Mənim ilk filmə çəkilməyimin də səbəbkarı o oldu. "İstintaq" filmində kənardan aktyor dəvət olunmuş bir obraza məni məsləhət görmüşdü. Bunu yalnız mənim üçün etməmişdi, Rasim, Şahmar, ümumiyyətlə o dövrdə üzə çıxan bütün aktyorlar onun tapıntısı idi. Filmlərə kənardan aktyor dəvət olunmasının qarşısını alıb, öz aktyorlarımızı tanıtdı. Sübut etdi ki, bizdə də bacarıqlı gənclər var. Bir rejissor onu eşitmək istəmirdi, Adil müəllim ondan soruşdu ki, niyə özümüzünkülərlə işləmirsən? Cavab verdi ki, mən özümüzünkülərlə işləyə bilmirəm. Dedi, qada, onda mən kənardan rejissor çağıraram bizim aktyorlarla işləyər. 15 aktyor dəvət etməkdənsə, bir rejissor dəvət etmək daha sərfəlidir. Adil müəllimdən sonra elə kişi görməmişik. O, tamam başqa kişi idi. İnandırıram sizi onu laqeydlik məhv etdi.

Teatrın 100 illiyində məndən qabaqda oturmuşdu, onun hansı hisləri keçirdiyi mənim içimə süzüldü. Teatrda can qoymuş, özül qoymuş bu adamı bir kimsə yada salmadı. Kişi içində qovruldu. Deməmişlər ki, 100 illiyə teatrı bu kişi gətirib.

"Belə laqeydliklər insan ömrünü qısaldan başlıca amillərdəndir. Əgər o, insan sənətkardırsa, deməli ömrü çox, lap çox qısa olacaq... 1978-ci ilin sentyabrında Tanrının Adil İsgəndərova verdiyi o qısacıq vaxt sona çatdı. Həmin gün "dahi Sovet rəhbəri" L.İ.Brejnev Bakıya növbəti rəsmi səfərə gəlibmiş. Sənətkarı rəhbərin gəlişindən yaranan bayram əhval-ruhiyyəsi pozulmasın deyə, gizlin-gizlin axşamın qaranlığında divar dibi ilə aparıb indiki İkinci Fəxri Xiyabanda səssiz-səmirsiz torpağa tapşırıblar. Adil İsgəndərov Zaqafqaziyanın ilk SSRİ xalq artistidir.

# Miokard infarktının ağırlaşmaları

***Miokard infarktının ağırlaşması bir-neçə faktordan asılıdır. Onlardan ən önəmlisi ürək əzələsinin zədələnmə sahəsinin ölçüsüdür.***

İkinci faktor isə prosesin lokalizasiyasıdır. Belə ki, sol mədəciyin geniş hissəsinin zədələnməsi digərlərindən daha çox ağırlaşmaya səbəb olur.

Üçüncü faktor ürək əzələsinin zədələnməsinin transmural xarakteridir ki, bu da ürək əzələsinin bütün qatlarının prosesə cəlb olunması ilə xarakterizə olunur və ağırlaşmalara gətirib çıxarır.

Dördüncü faktora koronar damarlarda dəyişikliklərin xarakteri ( miokard infarktının inkişafı) daxildir.

Miokard infarktının ağırlaşması əksərən ürək əzələsinin böyük və dərin zədələnməsində baş verir. İnfarkt sahəsinin böyük olması infarkt sahəsinin yumşalmasına səbəb olur ki, bu da divar qalınlığının azalmasına və sol mədəcik boşluğunun artmasına gətirib çıxarır. Bütün bunlar anevrizmaya, miokardın cırılmasına, trombun yaranmasına, ürək çatışmazlığına və perikarditə şərait yaradır. İnfarktın 2 ağırlaşması var:

1. Erkən.
2. Gecikmiş.

Erkən ağırlaşmalara xəstəliyin ən kəskin dövründə rast gəlinir. Belə ağırlaşmalara sol mədəcik çatışmazlığı, ürək astması, kardiogen şok, ürəyin keçiricilik pozğunluqları, sol mədəciyin anevrizması və s. aiddir.

Gecikmiş ağırlaşmalara isə infarkdan sonrakı stenokardiya, durğunluq ürək çatışmazlığı, sol mədəciyin xroniki anevrizması daxildir.

# Yeməkdən əvvəl, yoxsa sonra? - Vitaminlərin qəbul edilmə vaxtı

***Vitamin və mineralların qəbulu zamanı bəzi qaydalara əməl etmək lazımdır ki, onlar düzgün sovrulub, orqanizmə dəstək verə bilsin.***

Elə vitaminlər var ki, birbaşa yemək zamanı, xüsusən yağ qəbulu ilə, elələri də var ki,yeməkdən əvvəl və ya sonra qəbul edilməlidir.

Milli.Az medicina.az-a istinadən vitaminlərin qəbul vaxtını təqdim edir:

**A, E, D K -vitaminləri**

Yağda həll olan vitaminlər olduğu üçün mütləq yemək zamanı, xüsusən yağlı qidalar yeyərək qəbul edilir. Əgər yemək yemirsizsə, bir az yağ çörək yeyib, üzərindən bu vitaminlərdən birini içə bilərsiz. Yağ olmasa bu vitaminləri mədə turşusu məhv edir.

Kalsiy - sümüklər üçün vacib mineraldır. Vitamin D və maqniy ilə birgə qəbul edilməlidir. Amma onu dəmir və sinklə eyni vaxtda içmək olmaz. Kalsiy içdikdən 1-2 saat sonra heç bir şey qəbul etməyin. Kalsiy yeməkdən əvvəl və ya 1 saat sonra qəbul edilə bilər. Səhər, axşam fərqi yoxdur.

**B qrup vitaminləri**

Sinir sistemini bərpa edir, enerji verir. Onu səhər yeməyi zamanı içmək lazımdır.

**Maqniy, dəmir**

Axşam saat 7-8-də və ya yuxudan əvvəl içə bilərsiz. Maqniy bir qədər sakitləşdirici təsir edir. Bu vitaminlərlə kofe, çay içmək olmaz. Maqniy yeməkdən dərhal sonra içilə bilər.

**C vitamini**

Günün istənilən saatı, bir stəkan su ilə içmək lazımdır. Mədə turşuluğunu artırır, ona görə acqarına olmaz. Dəmir defisiti, qan azlığında C vitaminini dəmir preparatı ilə birgə içmək olar.

# Koronavirusu bir saniyəyə məhv etməyin yeni üsulu tapılıb

***Texas Universitetinin alimləri yüksək temperaturdan istifadə edərək SARS-KoV-2 koronavirusunu bir saniyədə öldürməyin yolunu tapıb ki, bu da patogenin uzunmüddətli ötürülməsinin qarşısını almaq üçün yeni yollar tapmağa imkan verir. KOVID-19 virusunu müvəffəqiyyətlə təsirsiz hala gətirmək üçün istiliyin tətbiqinin effektivliyi əvvəllər də göstərilmişdir, lakin əvvəlki tədqiqatlarda istiliyə məruz qalma bir dəqiqədən 20 dəqiqəyə qədər davam edir və bu praktik deyil.***

Mütəxəssislər, içindən koronavirus məhlulu keçən, paslanmayan polad borudan ibarət, yeni təcrübə qurğusu hazırladılar. Boru yüksək temperaturda istilənir, virus isə yalnız bir neçə saniyə istiyə məruz qalır. Virusun əvvəllər düşünüləndən daha qısa müddətdə zərərsizləşdirilə biləcəyi ortaya çıxıb. Məhlul təxminən yarım saniyə ərzində 72 dərəcə Selsiyə qədər qızdırılırsa, virusun titri yüz min dəfə azalır, bu da virusu təsirsiz hala gətirmək və insanlara keçməsinin qarşısını almaq üçün kifayətdir. Bu metod mövcud kondisioner, havalandırma və istilik sistemlərinə tətbiq edilə bilər.

# Saç tökülməsini dayandıran EFFEKTİV YOLLAR

***Koronavirus infeksiyasının nəticələrindən biri də saç tökülməsidir.***

"Unikal" publika.az-a istinadən xəbər verir ki, trixoloq Lidiya Şoşina "Zvezda.ru"ya verdiyi müsahibədə deyib ki, xəstəlikdən sonrakı ilk üç ay xüsusilə təhlükəli dövrdür. Həkimin sözlərinə görə, keçəlləşmə təhlükəsi koronavirusa qarşı təyin olunan terapiya ilə əlaqələndirilir.

"Bu terapiya bədən üçün çox zəhərlidir. Eyni zamanda, bəzi dərmanları qəbul etdikdən sonra hamiləlik planlaşdırmaq olmaz. Dərman dəriyə və saça təsir edir. Mezoterapiya və ya xüsusi



seçilmiş vitaminlər keçəlliyin qarşısını almağa kömək edəcək. Mezoterapiyaya getmək mümkün deyilsə, kollagen, amin turşuları, kompleks vitaminlər qəbul etməlisiniz. Beləliklə, bütün elementlər daxil olmalıdır ki, saç güclənsin", - həkim xəbərdarlıq edib.

Trixoloq koronavirus xəstəliyindən əziyyət çəkənlərə, xüsusilə müstəqil olaraq özləri üçün pəhriz tərtib edənlərə daha diqqətli olmağı tövsiyə edir. Yemək orqanizm üçün zəruri olan elementlərin bir dəstini ehtiva edir, ağır pəhrizlər isə onların qəbulunu məhdudlaşdırır. Nəticədə hemoqlobin səviyyəsi aşağı düşür, saçın quruluşuna təsir edən dəmir, maqnezium və sink çatışmazlığı yaranır.

# Ürəkdə qüsur - əlamətlər nəyi bildirir?

***Təngnəfəslik - xəstəliyin ilk, erkən simptomlarından biridir. O, kiçik qan dövranında qan durğunluğu və ağciyər hipertenziyası ilə əlaqədar olur. Əvvəl təngnəfəslik fiziki və emosonal yüklənmə zamanı meydana çıxır, sonralar isə sakitlik vaxtı da müşayiət olunur. Bəzi xəstələrdə təngnəfəslik uzanmış vəziyyətdə artır, oturaq vəziyyətdə isə azalır. Bu hallarda xəstələrdə uzanan zaman quru öskürək meydana çıxır.***

Boğulma tutmaları - mitral stenozu olan xəstələrin ağciyərlərində qan durğunluğunun olması və intersistal ağciyər ödəminin yaranmasını göstərir. Ürək astması (paroksizmal gecə boğulması) gecələr uzanan vəziyyətdə baş verir, oturaq vəziyyətdə itir.

Qanhayxırma - mitral stenozun vacib əlamətlərindən biridir və ağciyər - bronxial anastomozların qırılması, ağciyər arteriyasının şaxələrinin tromboemboliyası və ağciyər infarktı ilə əlaqədardır.

Halsızlıq, əzələ zəifliyi - mitral stenozun xarakterik və erkən klinik əlamətləri olub, fiziki iş zamanı meydana çıxır.

Ürəkdöyünmə - mitral stenozun çox təsadüf olunan əlamətlərindən biridir, ürəyin ritm pozğunluqları ilə əlaqədqrdır.



Ürək nahiyəsində ağrı - az sayda xəstələrdə rast gəlinir. Kəskin ağciyər hipertenziyası ilə əlaqədardır. Ağrılar stenokardiya tipli olmur, küt və davamlı olur və fiziki işdən sonra artmır.

# Xroniki böyrək çatışmzlığı

***Xroniki böyrək çatışmazlığı simptomokompleks olub, hemostazın pozulması ilə meydana çıxan, nefronların durmadan məhvinə səbəb olan, xroniki, ikitərəfli böyrək xəstəlikləri nəticəsində baş verən, böyrəklərin funksiyasının uzun müddətli, proqressiv pozulmasıdır. Bununla belə böyrəklər müxtəlif metobolitlərin ekskresiyası, su-duz, qələvi-turşu, osmotik hemostazın sabitliyini təmin etməkdə böýtük kompensator imkanlara malikdir.***

Hətta 50% nefronların məhvi adətən simptomsuz keçir və heç bir əlamət vermir. Dünya Səhiyyə Təşkilatı böyrək çatışmazlığı xəstələrinin günü-gündən artdığını bildirir. Xroniki böyrək çatışmazlığının 3 mərhələsi ayırd edilir

I mərhələ - Bu zaman böyrək çatışmazlığının əlamətləri müşahidə edilmir, amma böyrək zədələnməsi əlamətləri ön planda diqqəti cəlb edir. Bu əlamətlərə aiddir:

- nefrotik sindrom
- tubulyar sindrom
- sidik sindromu
- arterial təzyiqin yüksəlməsi



- proteinuriya
- ödemlər.

II mərhələ - Bu mərhələ böyrək çatışmazlığı simptomlarının müxtəlif kombinasiyası və onun dərəcəsi ilə müşahidə olunur. Bu mərhələdə birinci mərhələnin simptomlarına uremiya simptomu əlavə olunur.

III mərhələ - Bu mərhələ son mərhələ hesab olunmaqla böyrəklərin ən ağır vəziyyəti hesab edilir. Bu zaman əgər dializ müalicəsi başlamasa, uremik intoksikasiyanın ağır təzahürləri meydana çıxır.

Böyrək çatışmazlığının əmələ gəlməsinin əsas səbəbləri aşağıdakılardır:

Böyrək yumaqcıqlarının zədələnməsi ilə keçən xəstəliklər

- xroniki qlomerulonefrit
- yarımkəskin qlomerulonefrit
- pielonefrit
- intersistal nefrit.

Böyrəklərin zədələnməsi ilə keçən birləşdirici toxumanın diffuz xəstəlikləri

- qırmızı qurd eşənəyi
- sistem sklerodermiya
- düyünlü periarterit
- hemoragik vaskulit

Mübadilə pozğunluğu xəstəlikləri

- şəkərli diabet
- amiloidoz
- podaqra
- sistinoz
- hiperkalsinuriya

böyrəklərin anadangəlmə, irsi xəstəlikləri

- böyrək polikistozu
- diffuz mezangial nefroskleroz
- nefropatiya ilə keçən skletin anadangəlmə xəstəlikləri

Damarların birincili zədələnmsi

- bədxassəli hipertoniya xəstəliyi
- esensial hipertoniya

Obstuktiv nefropatiyalar

- böyrəkdaşı xəstəliyi
- hidronefroz
- sidik-cinsiyyət sisteminin şişləri.

# Bir futbolçu üçün 1 milyon funt sterlinq – ÇL-i qazansa

***Çempionlar Liqasının finalında üz-üzə gələcək “Çelsi” və “Mançester Siti”nin futbolçularına vəd olunan mükafatların məbləği bəlli olub.***

”Unikal” qəzetinin məlumatına görə, London təmsilçisindəki ümumi mükafat fondu 11 milyon funt sterlinqə çata bilər.

Finala vəsiqə üçün 5 milyon alacaq paytaxt klubunun üzvləri kuboku qazanmaqla daha 5 milyon əldə edəcək. İngiltərə kubokunun “Lester”lə finalındakı qələbə qazanılsa, bu, daha 1 milyon qazanc gətirəcək.

Bütün bonuslar futbolçular arasında bərabər bölünəcək. Bu isə hər oyunçunun təxminən yarım milyon qazanması anlamına gəlir.




“Mançester Siti”nin mükafatları daha fərqli olur. Əgər “Çelsi”də mövsümlük hədəf üçün müəyyənləşən məbləğ oyunçular arasında bərabər bölünürsə, “şəhərlilər” hər futbolçu ilə ayrıayrılıqda razılaşır.

Komanda Çempionlar Liqasını qazansa, bu rəqəm 15 milyon funt təşkil edəcək. Buna səbəb komandanın liderlərinin müqaviləsində yüksək bonusların göstərilməsidir. Məsələn, Kevin de Breyne finaldakı qələbə üçün 1 milyon alacaq. Digərləri isə təxminən 600 min alacaq. Meydana az-az çıxan oyunçular isə daha aşağı məbləğlə kifayətlənəcək.

Qeyd edək ki, Çempionlar Liqasının finalı mayın 29-da keçiriləcək.

# "Neftçi"nin baş məşqçisi: "İndiki futbolçular robotdur"

***”İndi internet vaxtıdır. Hər şey çox asanlıqla əldə olunur. Futbolçular vaxtının çoxunu sosial şəbəkələrdə keçirir”.***

”Unikal” qəzeti xəbər verir ki, bu fikirləri ”Neftçi-2”nin baş məşqçisi Mahmud Qurbanov klub televiziyasına açıqlamasında Azərbaycanda yaxşı futbolçuların yetişməməsinin səbəbləri barədə danışarkən deyib.



48 yaşlı mütəxəssis bildirib ki, onlar vaxtlarının çox hissəsini telefon və kompüter oyunlarına sərf edirlər: ”İmkan tapan kimi oyun oynayırlar. Buna qarşı hər hansı qadağalarımız yoxdur. Çünki buna nəzarət edə bilmirik, oyundan, məşqdən sonra hərə öz evinə gedir. Uşaqlar vaxtının çoxunu boş işlərə xərcləyirlər. İndiki futbolçuların çoxu robotdur. Proqramlaşdırırsan, çıxıb oynayırlar”.

Qurbanovun sözlərinə görə, futbolçuların özlərində də yaradıcılıq olmalıdır: ”Şükürlər olsun ki, bizim oyunçularda kreativlik var. Robot deyillər. Meydanda fərqlilik edirlər. Özlərinə də demişəm ki, hər şey öz əlinizdədir. Meydanda əlinizdən gələnin ən yaxşısını etməlisiniz. Robot kimi qaçmaq lazım deyil. Bu baxımdan bizdə problem yoxdur”.

Qeyd edək ki, ”Neftçi-2” I Divizionda sona 2 tur qalmış çempionluğu təmin edib.

# Olimpiya mükafatçımız Olimpiadadan kənar qaldı

***Dünən (7 may) Bolqarıstanın paytaxtı Sofiyada taekvondo üzrə Avropa Olimpiya Təsnifat turnirinə start verilib.***

”Unikal” qəzetinin xəbər verir ki, ilk yarış günündə Azərbaycanın iki təmsilçisi dayanq üzərinə çıxıb. Son Olimpiya mükafatçımız Patimat Abakarova (-49 kq) artıq uduzaraq mübarizəni dayandırıb. Fəridə Əzizova (-67 kq) isə Andrea Mokanuya (Rumıniya) qalib gəlməyə çalışacaq.

Son Olimpiya çempionumuz Radik İsayev (+80 kq) isə lisenziya uğrunda mübarizəyə sabah qatılacaq.

Qeyd edək ki, daha əvvəl Milad Beiqi (-80 kq) Olimpiadaya lisenziyanı 2019-cu ildə təmin edib.




# Millimiz Böyük Dəbilqəni bir medalla başa vurdu

***Azərbaycan milli komandasının son təmsilçisi Rusiyanın Kazan şəhərindəki cüdo üzrə Böyük Dəbilqədə mübarizə aparıb.***

”Unikal” qəzetinin məlumatına görə, üçüncü yarış günündə 100 kq-dan yuxarı çəki dərəcəsində Camal Feyziyev tatami üzərinə çıxıb.

O, 1/16 final mərhələsinə təsadüf edən ilk görüşündə Marius Fizelə (Slovakiya) qalib gəlsə də, növbəti raundda braziliyalı Rafael Silvaya ipponla uduzub.




Qeyd edək ki, daha əvvəl Azərbaycanın mübarizəyə qoşulmuş 9 cüdoçusundan yalnız Murad Fətiyev (81 kq) medal qazana bilib. Fətiyev həm də Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya əldə edib.

# “Kənddə yaşayıram, odun doğrayıram, traktorla gəzirəm” – əfsanəvi futbolçu

***“Hazırda kənddə yaşayıram. Odun doğrayıram, traktorla gəzirəm”.***

”Unikal” qəzetinin məlumatına görə, bunu İtaliya millisinin sabiq futbolçusu Roberto Bacco deyib.

Futbol əfsanəsi hazırda sevimli idman növündən çox uzaqlaşmağından, vaxtilə meydanda yaxşı tanıdığı oyunçulardan danışıb: “Futbola baxmıram. Çünki artıq məni əyləndirmir. Televizoru açanda özümün sabiq həmkarlarımı görürəm. Elə danışırlar ki, sanki professordurlar. Amma mən xatırlayıram ki, onlar meydanda üç hərəkət də edə bilmirdilər”.

# Məşhur müğənni İngiltərə klubunun forma sponsoru oldu

***İngilis müğənni Ed Şiran İngiltərə klubuna sponsorluq edəcək.***



”Unikal” qəzeti xəbər verir ki, 30 yaşlı müğənni “İpsviç Taun” klubunun yeni mövsümdə forma sponsoru olacaq. Bu barədə Şiran özü açıqlama yayıb.

Uşaqlıqdan klubun azarkeşi olan Şiran, sevimli komandasına dəstək olmaq üçün belə addım atıb.

Ed Şiranın 2017-ci ildə buraxdığı “Divide” musiqi albomu dünyanın ən çox satılan albomu olub.

“İpsviç Taun” İngiltərənin 1-ci liqasında mübarizə aparır.

# “Borussiya”da yeni müqavilə – rəsmi



***Almaniyanın “Borussiya” klubu futbolçusu Feliks Passlakla müqaviləni yeniləyib.***

”Unikal” qəzeti xəbər verir ki, 22 yaşlı müdafiəçi ilə yeni sözləşmənin müddəti 2023-cü ilin yayına qədərdir. Bu barədə Dortmund təmsilçisinin mətbuat xidməti məlumat yayıb.

Passlak 2016-cı ildən “Borussiya”da çıxış edir. Alman müdafiəçi bu mövsüm Bundesliqada 6 oyuna çıxıb.

Passlakın əvvəlki müqaviləsi yaya qədər idi.

# Sərbəst güləş yığmamız hara gedir? – Tokio-2020-də antirekord

***Azərbaycan sərbəst güləş yığması Tokio-2020 Yay Olimpiya Oyunlarında cəmi üç idmançı ilə təmsil olunacaq.***



”Unikal” qəzetinin məlumatına görə, ölkəmizi Yaponiya paytaxtında Hacı Əliyev (65 kq), Hacımurad Hacıyev (74 kq) və Şərif Şərifov (97 kq) təmsil edəcək.

Onlardan da ikisinin milliləşən legioner olduğunu nəzərə alsaq, Azərbaycan sərbəst güləş məktəbi Tokioya vur-tut 1 vəsiqə qazanıb. Bu da güləşin bu növündəki geriləmədən xəbər verir.

Lisenziyaların ümumi sayı da ürəkaçan durumdan uzaqdır. Müstəqilliyin əldə olunduğu vaxtdan sonra yığmamız heç vaxt bu qədər az sərbəst güləşçinin ümidinə qalmayıb.

Bunadək antirekord 4 təmsilçimizin olduğu Afina-2004-ə təsadüf etmişdi. Bu dəfə isə idmançılarımız mütləq antirekorda imza atdı. Düzdür, bəziləri koronavirus pandemiyası, bu səbəbdən Olimpiadanın da, digər yarışların da təxirə düşməsi, hazırlıq planlarının dəyişməsini səbəb göstərə bilərlər. Amma bütün dünya idmançıları təxminən eyni vəziyyətdə olduğundan bu, səbəb deyil, bəhanə kimi görünür.

Əlbəttə, çəki dərəcələrinin ümumi sayı da azalır. Artıq ikinci dəfədir ki, dördilliyin multiidman yarışında 10, 8 və ya 7 deyil, cəmi 6 kateqoriyada yarış olacaq.

Komandamız da bu 6 çəkidən yalnız üçündə təmsil olunacaq. Bu da 50 faizlik göstəricidir. Elə bu rəqəm də mütləq anrtirekorddur.

İki dəfə, o cümlədən sonuncu dəfə cəmi 5 il öncə bütün çəkilərdə təmsil olunan sərbəst yığmamız 50 faizlik eniş yaşayıb. Bu enişlə sərbəst güləşin növbəti Olimpiadalara necə və neçə nəfərlə gedəcəyi indidən düşünməyə vadar edir.

| il | şəhər | çəki dərəcələri | təmsilçi sayı | faiz |
| --- | --- | --- | --- | --- |
| 1996 | Atalanta | 10 | 6 | 60,00 |
| 2000 | Sidney | 8 | 6 | 75,00 |
| 2004 | Afina | 7 | 4 | 57,14 |
| 2008 | Pekin | 7 | 7 | 100,00 |
| 2012 | London | 7 | 6 | 85,71 |
| 2016 | Rio-de-Janeyro | 6 | 6 | 100,00 |
| 2020 | Tokio | 6 | 3 | 50,00 |

Səhifəni hazırladı: Aygün İlqarqızı